**AZƏRBAYCAN RESPUBLİKASININ
İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ
(OMBUDSMAN)**

# Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında

## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)

## 2023-cü il üzrə məruzəsi

**Bakı - 2024**

*“Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında” Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsi “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 14-cü maddəsinə uyğun olaraq hazırlanmışdır.*

*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) cari il bitdikdən sonra iki aydan gec olmayaraq illik məruzəni Azərbaycan Respublikasının Prezidentinə təqdim edir və həmin məruzə ilə Azərbaycan Respublikasının Milli Məclisi qarşısında çıxış edir.*

*İllik məruzə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş prokuroruna göndərilir.*

*Məruzə “Azərbaycan” qəzetində və “Azərbaycan Respublikasının qanunvericilik toplusu”nda dərc olunur.*

## Giriş sözü

İnsan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi vəzifəsinin yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlər ictimai-siyasi sabitliyin möhkəmlənməsinə və insan hüquqlarının daha etibarlı müdafiəsinə xidmət edir.

Hüququn aliliyi prinsipinə və xalqın maraqlarına xidmət edən, dünya dövlətləri sırasında nüfuzu daim artmaqda olan və söz sahibinə çevrilən respublikamız insan hüquqlarının qorunmasına yönəlmiş bir sıra mühüm layihələrin təşəbbüskarı olmaqla bərabər, qlobal əhəmiyyətli tədbirlərə ev sahibliyi etmişdir.

Əhalinin təhlükəsizliyinin təmin edilməsi, insanların həyat və sağlamlıqlarına yönəlik ciddi təhdidlərin aradan qaldırılması məqsədilə 2023-cü ilin sentyabr ayında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Xankəndi və ətraf ərazilərin Ermənistanın qanunsuz hərbi birləşmələrindən və terrorçulardan təmizlənməsi ölkəmizin beynəlxalq hüquqla tanınan ərazisi üzərində suverenliyinin tam bərpa olunmasında, həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsində müstəsna əhəmiyyət kəsb etmişdir.

İşğaldan azad edilmiş ərazilərdə davam etdirilən tikinti-quruculuq işlərinin və reinteqrasiya prosesinin sürətlənməsi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafına və keçmiş məcburi köçkünlərin 30 ilə yaxın müddət ərzində pozulmuş hüquq və azadlıqlarının bərpasına xidmət etməkdədir.

İnsan hüquqlarının səmərəli təmininə yönəlmiş davamlı tədbirlər, həyata keçirilən irimiqyaslı layihələr insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsinə, əhalinin həyat səviyyəsinin və yaşayışının daha da yaxşılaşmasına, aztəminatlı ailələrə və əhalinin həssas qruplarına qayğının artırılmasına və ümumilikdə digər problemlərin həllinə şərait yaratmışdır.

2023-cü il Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ölkəmizdə "Heydər Əliyev İli"nin elan edilməsi, bu qüdrətli şəxsiyyətlə bağlı milli və beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi ilə də yadda qalmışdır.

Xüsusi ilə qeyd olunmalıdır ki, Ulu Öndərin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərmanı və 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" ilə Azərbaycanda ilk dəfə insan hüquqlarının müdafiəsi sahəsində institusional islahatların əsası qoyulmuşdur. Demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi, təmini və təşviqinə yönəlmiş bu islahatların davamı olaraq və məhz Ümummilli Liderin tövsiyəsi ilə insan hüquqlarının müdafiəsi üzrə effektiv mexanizm olan Ombudsman institutu təsis edilmişdir.

İnsan hüquqları sahəsində həyata keçirilən bu mühüm islahatlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilməklə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi üzrə dövlətin ali məqsədinin həyata keçirilməsində müstəsna rolu olan Ombudsmanın mandatının beynəlxalq hüquq normalarına uyğun olaraq genişləndirilməsi ilə bağlı əhəmiyyətli təşəbbüslər irəli sürülmüş, yeni fəaliyyət istiqamətləri müəyyən edilmişdir.

Növbəti belə təşəbbüslə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda (bundan sonra – Ombudsman haqqında Konstitusiya Qanunu) dəyişikliklər edilməsi nəticəsində Ombudsmanın mandatı genişləndirilmiş, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsi, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının təşviqi və monitorinqi üzrə müstəqil mexanizm funksiyalarının həyata

keçirilməsi üzrə səlahiyyəti təsbit olunmuş, habelə fəaliyyət istiqamətlərinə uyğun olaraq yerli, regional və beynəlxalq təşkilatlarla, xarici ölkələrin insan hüquqları təsisatları ilə əməkdaşlıq etmək, bu məqsədlə müqavilələr (sazişlər) bağlamaq və beynəlxalq qurumlarda təmsil olunmaq mandatı rəsmi qaydada müəyyən edilmişdir. Həmin dəyişikliklərdə, eyni zamanda beynəlxalq təşkilatlar tərəfindən verilmiş tövsiyələrin icrası və təsisatın fəaliyyətinin Paris Prinsiplərinə tam uyğunlaşdırılmasına xidmət edən digər mühüm məsələlər də öz əksini tapmışdır.

Ombudsman dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, beynəlxalq təşkilatlar və xaricdəki həmkarları ilə səmərəli əməkdaşlıq şəraitində fəaliyyətini davam etdirmiş, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi və səmərəli təmini məqsədilə mövcud əlaqələrin gücləndirilməsi və imkanların genişləndirilməsi istiqamətində zəruri tədbirlər görmüşdür.

Azərbaycan Respublikasının Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət orqanları, bələdiyyələr, habelə dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər) və büdcə təşkilatları, onların vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi, eyni zamanda insan hüquqları pozuntularının qarşısının alınması məqsədilə Ombudsman tərəfindən müxtəlif tədbirlər həyata keçirilmişdir.

2023-cü ildə Ombudsmanın ünvanına 29.411 müraciət daxil olmuşdur.

Həmin müraciətlər, bir qayda olaraq, poçt, elektron poçt, onlayn müraciət qaydasında göndərilmiş, "Hökumət Evi" inzibati binasında fəaliyyət göstərən Vətəndaşların Qəbulu Mərkəzində və regional mərkəzlərdə keçirilən qəbullar zamanı, 7/24 rejimində fəaliyyət göstərən 916 Çağrı Mərkəzi, rəsmi sosial şəbəkə hesabları vasitəsilə, həmçinin Ombudsmanın, onun aparatının və regional mərkəzlərinin əməkdaşlarının respublikanın müxtəlif şəhər və rayonlarında əhali qrupları ilə görüşləri, cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlama yerlərinə, qarnizon hauptvaxtlarına, qanunsuz miqrantların saxlanılması mərkəzlərinə, habelə saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə, o cümlədən müvafiq tibb, sosial və təhsil müəssisələrinə başçəkmələr zamanı təqdim edilmişdir.

Müraciətlərin hər biri üzrə Ombudsman haqqında Konstitusiya Qanunu ilə müəyyən edilmiş qaydada zəruri tədbirlər görülmüş, pozulmuş hüquqların bərpası məqsədilə səlahiyyətli dövlət qurumlarına müraciətlər olunmuş, həyata keçirilmiş tədbirlərin nəticəsi barədə ərizəçilərə müvafiq cavablar verilmişdir. Ombudsmanın səlahiyyətlərinə aid olmayan müraciətlər üzrə ərizəçilərə hüquqi məsləhətlər verilmişdir.

Müraciətlərin araşdırılması və təhlili təcrübəsi, habelə dövlət qurumları ilə əməkdaşlıq əlaqələri bir sıra problemlərin operativ həllində, süründürməçiliyin və baş verə biləcək pozuntu hallarının qarşısının alınmasında, həmçinin qanunvericiliyin təkmilləşdirilməsində əhəmiyyətli rol oynamışdır.

Əhalinin həssas qruplarının problemlərinin kompleks həlli məqsədilə Ombudsman tərəfindən aidiyyəti səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş, təklif və tövsiyələr verilmişdir ki, onlar da tədricən öz həllini tapmaqdadır.

Qeyd olunmalıdır ki, Ombudsmanın hər il olduğu kimi növbəti ilin dövlət büdcəsi layihəsinin Azərbaycan Respublikası Milli Məclisinin müvafiq komitələrinin iclaslarında aparılan müzakirələrində iştirakı və irəli sürdüyü təkliflər insan hüquqlarının təmin edilməsi sahəsində səmərəliliyin artırılmasına xidmət etmişdir.

Ombudsmanın təşəbbüsü və təşkilatçılığı ilə insan hüquqları sahəsində məlumatlılıq səviyyəsinin artırılması, qurumlar arasında əlaqələndirmənin inkişaf etdirilməsi, habelə yerli, regional və beynəlxalq təşkilatlarla, o cümlədən xarici ölkələrin insan hüquqları təsisatları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə müxtəlif tədbirlər təşkil edilmiş, insan hüquqlarının ayrı-ayrı sahələrinə dair geniş fikir və

təcrübə mübadiləsi aparılmışdır. Bu baxımdan, Bakıda və bölgələrdə "Heydər Əliyev İli" çərçivəsində Ümummilli Liderin insan hüquqlarının müdafiəsinə verdiyi töhfələrlə bağlı, eyni zamanda 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü ilə bağlı elan edilmiş "İnsan hüquqları aylığı", 20 Noyabr - BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümünə həsr edilmiş "Uşaq hüquqları aylığı" çərçivəsində, habelə 10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş, eləcə də Dayanıqlı İnkişaf Məqsədlərinin maarifləndirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər üzrə Fəaliyyət Planına əsasən, "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyi"ndən irəli gələn öhdəliklərə uyğun olaraq müxtəlif maarifləndirmə tədbirlərinin təşkili müstəsna əhəmiyyət kəsb etmişdir.

Qeyd edilənlərlə yanaşı, ölkə Prezidentinin müvafiq Sərəncamına əsasən elan edilmiş və 2024-cü il fevralın 7-nə təyin olunmuş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri öncəsi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının birgə təşkilatçılığı ilə Bakıda, Gəncədə, Şəkidə, Masallıda, Qubada və Naxçıvanda "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda geniş maarifləndirmə tədbirləri təşkil edilmişdir.

Ombudsmanın müxtəlif beynəlxalq tədbirlərdə iştirakı və insan hüquqlarının bir sıra aktual problemlərinə dair məruzələrlə çıxışları ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilmiş islahatların təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından da əhəmiyyətli olmuşdur.

Ombudsmanın mandatı çərçivəsində faktaraşdırıcı missiyalar həyata keçirilmiş, bu prosesə beynəlxalq ekspertlər də cəlb olunmaqla işğaldan azad edilmiş ərazilərdə tarixi, dini, mədəni obyektlər, dağıdılmış məzarlıqlar, Edillidə tapılan kütləvi dəfn yerləri, eyni zamanda Birinci Qarabağ müharibəsinin ən ciddi humanitar nəticələrindən biri olan itkin düşmüş şəxslərlə, həmçinin Ermənistan tərəfindən hərbi əməliyyatlarda, hərbi qruplaşmalarda və ümumilikdə nifrət siyasətində uşaqlardan istifadə edilməsi ilə bağlı hazırlanmış hesabatlar aidiyyəti beynəlxalq təşkilatların və ölkə ictimaiyyətinin diqqətinə təqdim olunmuş, bu əməllərin qarşısının alınması üçün dünya ictimaiyyətinə çağırışlar edilmişdir.

Ölkəmizə qarşı tətbiq edilən ikili standartlara, bu xüsusda qəbul edilən bəyanatlara Ombudsman tərəfindən dərhal reaksiyalar verilmiş, müvafiq mövzular üzrə beynəlxalq təşkilatlara müraciətlər ünvanlanmışdır.

Yekun olaraq, illik məruzədə ölkəmizdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi, o cümlədən pozulmuş hüquqların bərpası sahəsində həyata keçirilən fəaliyyət, əhalinin həssas qruplarının problemlərinin həllinə yönəlmiş tədbirlər, həmçinin elmi-analitik və hüquqi maarifləndirmə fəaliyyəti, beynəlxalq əlaqələr, habelə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq, eyni zamanda insan hüquqlarının səmərəli təmininə yönəlmiş təklif və tövsiyələr öz əksini tapmışdır.

Beləliklə, Ombudsmana müraciət edən hər bir insana, habelə insan hüquqlarının müdafiəsi sahəsində Ombudsmanla səmərəli əməkdaşlıq edən dövlət qurumlarına və vətəndaş cəmiyyəti institutlarına öz təşəkkürümü bildirirəm.

**Səbinə Əliyeva**

Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

# I fəsil.

# İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ

## 1.1. Mülki və siyasi hüquqların müdafiəsi

***Azadlıq hüququ.*** Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, hər kəsin azadlıq hüququ vardır. Bu hüquq qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəsin sərbəst hərəkət edə bilmək, özünə yaşayış yeri seçə bilmək və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilmək, həmçinin Azərbaycan Respublikası vətəndaşlarının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququnu özündə ehtiva edir.

Vətəndaşın şəxsiyyət vəsiqəsinə malik olması onun maneəsiz hərəkətini, dövlət qurumlarına, müəssisə, idarə və təşkilatlara, yerli özünüidarə orqanlarına sərbəst və məhdudiyyət olmadan müraciət etməsini və hüquqlarının həyata keçirilməsini təmin edir.

Qanunvericiliyin tələblərinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Burada əsas məqsəd Azərbaycan Respublikasında yaşayan şəxslərin uçota alınması, onların başqa şəxslər, habelə dövlət və cəmiyyət qarşısında vəzifələrini icra etməsinə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə, o cümlədən sosial müdafiə, pensiya təminatı, hərbi xidmətə çağırış, məhkəmə qərarlarının icrası və bu kimi digər məsələlərə zəruri şərait yaratmaqdır.

Şəxsiyyət vəsiqəsi və ümumvətəndaş pasportu, habelə yaşayış yeri və olduğu yer üzrə qeydiyyatla bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması zamanı bir çox şikayətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 aprel tarixli, 55s nömrəli Sərəncamına əsasən, polis orqanlarının inzibati binalarının ünvanı üzrə qeydiyyatda olan şəxslərin qeydiyyatdan çıxarılması ilə bağlı olduğu müəyyən edilmişdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 aprel tarixli, 55s nömrəli Sərəncamının 1-ci bəndində yaşayış yeri olmayan Azərbaycan Respublikası vətəndaşlarının Daxili İşlər Nazirliyinin şəxsiyyət vəsiqəsi verən müvafiq orqanının ünvanı üzrə qeydiyyatdan keçirilməsi və onlara şəxsiyyət vəsiqəsi fərdiləşdirilərkən şəxsiyyət vəsiqəsinin “yaşayış yeri” bölməsində həmin ünvanın şərti olaraq göstərilməsi nəzərdə tutulmuşdur.

“Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində şəxsin yaşayış yeri üzrə qeydiyyatdan çıxarılmasının əsasları göstərilmişdir. Buna baxmayaraq, Ombudsmanın ünvanına daxil olmuş şikayətlərdən görünür ki, bir sıra hallarda vətəndaşlar qanunla müəyyən edilmiş əsaslar olmadan qeydiyyatdan çıxarılmış, şəxsiyyət vəsiqələri deaktiv edilmişdir.

Ərizəçi A. (3467-23) Ombudsmana müraciət edərək, 2019-cu ildə yaşayış yeri olmayan şəxslər kimi övladı ilə birlikdə Şəki Şəhər-Rayon Polis Şöbəsinin inzibati binasına qeydiyyata alındıqlarını, lakin onlara məlumat verilmədən və əsasız olaraq qeydiyyatdan çıxarıldıqlarını bildirmiş, məsələnin araşdırılmasında və qeydiyyatlarının bərpa olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçi övladı ilə birlikdə Şəki rayonunun Böyük Dəhnə kəndinə yaşayış yeri üzrə qeydiyyata alınmışdır.

Ərizəçi Ə. (3360-23) Ombudsmana müraciət edərək, 2012-ci ildə Binəqədi Rayon Məhkəməsinin qərarına əsasən, ailəsinə məxsus evin hərrac yolu ilə satıldığını, ailə üzvləri ilə birlikdə yaşayış yeri üzrə qeydiyyatdan çıxarıldığını, həmin vaxtdan

yaşayış yeri olmayan şəxs kimi Binəqədi Rayon Polis İdarəsinin inzibati binasına qeydiyyata alındığını, lakin hazırda əsassız olaraq qeydiyyatdan çıxarıldığını, həmçinin ikinci dərəcə əlilliyi olduğunu, onkoloji xəstəlikdən əziyyət çəkdiyini, şəxsiyyət vəsiqəsinin aktiv statusda olmaması səbəbindən sağlamlığının qorunması hüququndan, o cümlədən icbari tibbi sığortanın imkanlarından və təyin edilmiş müalicə tədbirlərindən yetərincə istifadə edə bilmədiyini qeyd etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçi Binəqədi Rayon Polis İdarəsinin inzibati binasının ünvanı üzrə qeydiyyata alınmışdır.

Bir sıra hallarda qeydiyyatdan çıxarılmış şəxslərin şəxsiyyət vəsiqələrinin etibarsız olması səbəbindən əmək müqavilələrinin bağlanması, icbari tibbi sığorta çərçivəsində xidmətlərdən yararlanması mümkün olmur, habelə həmin şəxslərin sosial təminat, təhsil və digər hüquqları məhdudlaşdırılır.

Ərizəçi B. (13759-23) Ombudsmana müraciət edərək, polis orqanının inzibati binasından qeydiyyatdan çıxarıldığını, bu səbəbdən 25 yaşı tamam olması ilə bağlı şəxsiyyət vəsiqəsinin dəyişdirilmədiyini, həmçinin istifadəsində yaşayış sahəsi olmadığından kirayədə yaşadığını, 2017-ci ildən valideyn himayəsindən məhrum olduğunu, şəxsiyyət vəsiqəsinin etibarsız olması səbəbindən onunla əmək müqaviləsinin bağlanmadığını, habelə icbari tibbi sığorta çərçivəsində xidmətlərdən yararlana bilmədiyini qeyd etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçiyə sənədləşmə ilə bağlı zəruri köməklik göstərilərək qeydiyyata alınması təmin edilmişdir.

Müraciətlərdə polis orqanının inzibati binasına qeydiyyatın bərpa olunmasına dair məhkəmə qərarlarının bəzən müvafiq polis orqanları tərəfindən icra olunmaması halları da öz əksini tapmışdır.

Ərizəçi Ə. (15419-23) Ombudsmana müraciət edərək, Sabunçu Rayon Polis İdarəsinin inzibati binasına qeydiyyatının bərpa edilməsinə dair Bakı İnzibati Məhkəməsinin müvafiq qərarının həmin polis idarəsi tərəfindən icra edilmədiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış müraciətdən sonra qərar icra edilmiş, ərizəçiyə sənədləşmə ilə bağlı zəruri köməklik göstərilərək qeydiyyata alınması təmin olunmuşdur.

Yaşayış yeri olmayan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsiyyət vəsiqəsi verən müvafiq orqanının ünvanı üzrə qeydiyyatdan keçirilməsi və onlara şəxsiyyət vəsiqəsi fərdiləşdirilərkən şəxsiyyət vəsiqəsinin "yaşayış yeri" bölməsində həmin ünvanın şərti olaraq göstərilməsindən sonra yaranan riskli hallar nəzərə alınmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 aprel tarixli, 55s nömrəli Sərəncamına əlavə və dəyişikliklərin edilməsi və nəticədə vətəndaşların qeydiyyat probleminin həlli çox mühümdür.

Ümumiyyətlə, istifadələrində qanunla müəyyən edilmiş qaydada sənədləşdirilməmiş yaşayış sahəsi olan şəxslərin həmin yaşayış yerləri üzrə qeydiyyata alınmaları ilə bağlı problemlərin aradan qaldırılması məqsədilə qanunvericiliklə müvafiq mexanizmin hazırlanması məqsədəmüvafiqdir.

Yeri gəlmişkən, Ombudsman əvvəlki illik məruzələrində ötən əsrin ortalarından etibarən Bakı şəhərində, onun ətrafındakı qəsəbə və kəndlərdə, o cümlədən birgə təsərrüfatlara (sovxozlara) məxsus ərazilərdə müxtəlif şəxslər tərəfindən zəbt edilmiş torpaq sahələrində qanunsuz tikilmiş evlərin, habelə bələdiyyələr tərəfindən fərdi ev tikintisi üçün verilmiş torpaq sahələrində inşa olunmuş evlərin inventarlaşdırılması və dövlət qeydiyyatına alınması, eyni zamanda həmin ərazilərdə və yeni yaşayış massivlərində daşınmaz əmlak və nəqliyyat infrastrukturu obyektlərinə ünvanların verilməsini təklif etmişdir.

Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs, eyni zamanda Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər. Bu, azadlıq hüququnun mühüm elementlərindən biridir.

Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 9.3-cü maddəsində vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasının əsasları göstərilmişdir.

Azərbaycan Respublikası ərazisindən çıxışa qoyulmuş məhdudiyyətin aradan qaldırılması, ölkə ərazisindən kənara gedə bilmək azadlığının təmin edilməsinə dair Ombudsmanın ünvanına bir sıra müraciətlər daxil olmuşdur. Bu müraciətlər üzrə səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş, hüquqların bərpası istiqamətində zəruri tədbir görülmüşdür.

Ərizəçi A. (9284-23) Ombudsmana müraciət edərək, barəsində olan cinayət işinə xitam verilməsinə baxmayaraq, ölkədən getməsinə qoyulmuş məhdudiyyətin aradan qaldırılmadığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğuna ünvanlanmış müraciətdən sonra ərizəçinin ölkədən çıxışına qoyulmuş məhdudiyyət götürülmüşdür.

Şikayətlərin təhlilindən görünür ki, ölkədən çıxışa müvəqqəti məhdudiyyətin qoyulmasına yönəlmiş hərəkətlərin qanunsuz hesab edilməsinə dair məhkəmə qərarları da bəzən icra olunmur.

Ərizəçi H. (4830-23) Ombudsmana müraciət edərək, 2021-ci ilin noyabr ayından ölkədən çıxışına tətbiq edilmiş məhdudiyyətin Binəqədi Rayon Məhkəməsinin qərarı ilə qanunsuz hesab edildiyini, qərarın icra olunması üçün Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərildiyini, lakin məhdudiyyətin götürülmədiyini bildirmişdir. Şikayətlə bağlı həmin baş idarəyə ünvanlanmış müraciətdən sonra ərizəçinin ölkə hüdudlarını tərk etməyi ilə bağlı tətbiq edilmiş qadağa götürülmüşdür.

Şəxsin ölkədən çıxışına qoyulmuş məhdudiyyət barədə həmin şəxsin məlumatlandırılmaması, bununla bağlı məlumatın yalnız şəxsiyyət vəsiqəsinin (ümumvətəndaş pasportunun) dəyişdirilməsi zamanı və ya sərhədi keçərkən bildirilməsi onların digər hüquqlarının da məhdudlaşdırılmasına səbəb olur. Bu baxımdan, ölkədən getmək və ölkəyə gəlmək hüququ məhdudlaşdırılan vətəndaşlar barədə məlumatların “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edildiyi andan həmin vətəndaşlara bildirişin göndərilməsinin məcburiliyi ilə bağlı müddəaların qanunvericiliyə daxil edilməsi bir daha təklif edilir.

Son illərdə bir sıra şəxslər Ombudsmana müraciətlər edərək, İraq Respublikası və Suriya Ərəb Respublikasında döyüşən silahlı dəstələrin girovluğunda olan yaxın qohumlarının, xüsusilə qadın və uşaqların ölkəmizə qaytarılmasında köməklik göstərilməsini xahiş etmişlər.

Müxtəlif vaxtlarda həmin ərizəçiləri qəbul edən Ombudsman mövcud problemin araşdırılması, həlli və vətəndaşlarımızın ölkəyə qaytarılması istiqamətində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və digər səlahiyyətli dövlət qurumları ilə əməkdaşlığını davam etdirmişdir. Bu fəaliyyət çərçivəsində 2023-cü il ərzində 13-ü qadın, 47-i uşaq olmaqla, 60 Azərbaycan Respublikası vətəndaşı Suriyadan ölkəmizə repatriasiya olunmuşdur.

Azərbaycan hökuməti tərəfindən görülmüş tədbirlər nəticəsində İraq və Suriyadan ümumilikdə 469 uşaq və qadının repatriasiyası həyata keçirilmişdir.

Repatriasiya üzrə fəaliyyətin gücləndirilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 oktyabr tarixli Fərmanı ilə “Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları” təsdiq edilmişdir. Bu Qaydalar valideyninin və ya digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası ilə bağlı təşkilati və hüquqi məsələləri tənzimləməklə yanaşı, aidiyyəti

dövlət orqanlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, baxımsız və sosial təhlükəli vəziyyətdə olan şəxslərin hüquqlarının müdafiəsi məqsədini daşıyır.

***“İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə” Konvensiyanın Fakültativ Protokolunda nəzərdə tutulmuş Milli Preventiv Mexanizm (MPM) funksiyalarının həyata keçirilməsi.*** Ombudsmanın MPM mandatı çərçivəsində polis orqanları, müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri, qanunsuz miqrantların saxlanılması mərkəzləri, psixiatriya müəssisələri, dövlət uşaq müəssisələri də daxil olmaqla ümumilikdə ölkə üzrə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə 347 başçəkmə həyata keçirilmişdir.

2023-cü ildə Ombudsman və onun Milli Preventiv Qrupu (MPQ) tərəfindən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanma şəraiti, rəftar məsələləri və daxil olmuş müraciətlərin, habelə sənədləşmənin araşdırılması məqsədilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müəssisələrinə 51, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrinə 169, Elm və Təhsil Nazirliyinin müəssisələrinə 45, Səhiyyə Nazirliyinin müəssisələrinə 25, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə 9, Müdafiə Nazirliyinin müəssisələrinə 1, Dövlət Miqrasiya Xidmətinin müəssisələrinə 2, Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələrinə 6, uşaq evlərinə 39 başçəkmə həyata keçirilmişdir. Bunlardan 104-ü plandankənar olmuşdur.

Başçəkmələr zamanı əvvəllər verilmiş tövsiyələrin icra vəziyyəti yoxlanılmış, Ombudsmana ünvanlanmış müraciətlər, saxlanılan şəxslərlə bağlı mətbuatda və sosial şəbəkələrdə yayılmış məlumatlar, habelə həmin şəxslərin hüquqlarının təmini vəziyyəti araşdırılmışdır.

Tutulmuş və həbs edilmiş şəxslər, eləcə də şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslər saxlanıldıqları müəssisələrdə fərdi qaydada qəbul edilmiş, saxlanma şəraiti, rəftar, tibbi xidmətin təmini məsələləri araşdırılmış, hüquqları izah edilmiş, zəruri hallarda aidiyyəti dövlət qurumlarına müraciətlər ünvanlanmışdır.

Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müxtəlif vaxtlarda törətdikləri cinayət əməllərinə görə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, hərbi əməliyyatların dayandırılmasından, habelə 2023-cü ilin sentyabr ayında keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən sonra müəyyən edilərək saxlanılan, məhkəmə qərarı əsasında barələrində həbs qətimkan tədbiri seçilmiş erməni əsilli təqsirləndirilən şəxslər də saxlanıldıqları müəssisələrdə qəbul edilmişdir. Onların saxlanma şəraiti, rəftar, tibbi xidmətin təmini məsələləri, müraciətləri araşdırılmış, Ombudsmanın səlahiyyətləri barədə məlumat verilmiş, öz dillərində hüquqlarının əks olunduğu maarifləndirici materiallar təqdim edilmiş, eyni zamanda ailə üzvləri ilə telefon danışığı hüquqları təmin edilmişdir.

Qeyd etmək lazımdır ki, penitensiar müəssisələrdə müəyyən edilən əsas problemlərdən biri də sıxlıqla bağlı olmuşdur. İstintaq təcridxanalarında və bəzi cəzaçəkmə müəssisələrində mövcud normadan artıq şəxsin saxlanıldığı halları müşahidə edilmişdir. Belə ki, 2.500 nəfər üçün nəzərdə tutulmuş Bakı İstintaq Təcridxanasında başçəkmələr zamanı limitdən daha çox şəxsin saxlanıldığı müəyyən olunmuşdur. Bununla yanaşı, 700 nəfərlik 2 saylı İstintaq Təcridxanasında 800, 1.050 nəfərlik 3 saylı İstintaq Təcridxanasında 1.400 nəfərin saxlandığı, 1.200 nəfər saxlanma limiti olan 2 saylı cəzaçəkmə müəssisəsində isə 1.411 məhkumun cəza çəkdiyi müəyyən edilmişdir.

Penitensiar müəssisələrdə sıxlığın azaldılması istiqamətində kompleks tədbirlər davam etdirilir. Bununla belə, əksər hallarda həbs qətimkan tədbirinin seçilməsinə dair, habelə həbs müddətinin uzadılması ilə bağlı istintaq orqanları tərəfindən verilən təqdimatların çoxluğu və bir qayda olaraq, həmin təqdimatların məhkəmələr tərəfindən təmin edilməsi istintaq təcridxanalarında sıxlığın yaranmasına səbəb olur.

Təhlillər göstərir ki, il ərzində barəsində həbs qətimkan tədbiri seçilmiş 100-dən çox şəxs sonradan məhkəmənin qərarı ilə bəraət alır. Bəzi illərdə 200-dək təqsirləndirilən şəxsin bəraət almasına baxmayaraq, cinayət prosesi gedişində həmin şəxslər barəsində həbs qətimkan tədbiri nəinki tətbiq edilmiş, bir sıra hallarda həm də uzadılmışdır.

Qeyd edilənlər, eyni zamanda Ombudsmana ünvanlanmış ərizələrin təhlili, istintaq təcridxanalarında həyata keçirilən başçəkmələrin nəticələri nəzərə alınaraq, həbsə alternativ qətimkan tədbirlərinin seçilməsinin əhəmiyyəti bir daha diqqətə çatdırılır. Bu baxımdan, həbslə bağlı olmayan qətimkan tədbirlərinin daha çox tətbiqi, habelə cəza müəyyən edilərkən azadlıqdan məhrumetməyə alternativ cəzalara üstünlük verilməsi istiqamətində tədbirlərin genişləndirilməsi zəruridir.

Statistik məlumata əsasən, "cinayət törətmiş, habelə əvvəllər cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər"in sayı getdikcə artmaqdadır. Belə ki, bu rəqəm 2020-ci ildə 2.859, 2021-ci ildə 4.374 olmuş, 2022-ci ildə isə 5.127 nəfərədək artmışdır. Odur ki, aidiyyəti dövlət qurumları tərəfindən təhlillər aparılmalı, eyni şəxsin təkrar cinayət törətməsinə gətirib çıxaran səbəb və şərtlərin aradan qaldırılması istiqamətində addımlar atılmalıdır.

Məhkəmələr tərəfindən təyin olunan cəzanın qarşısına qoyulan vəzifələrin təmini məqsədilə cəza icra orqanları tərəfindən həyata keçirilən tədbirlər təhlil edilməli, onların effektivliyi məsələsi qiymətləndirilməlidir.

Məhkumların cəmiyyətə inteqrasiyasında və şəxsi inkişafının stimullaşdırılmasında təhsilin mühüm rolu vardır.

Təhsildən yararlana bilən, xüsusilə yetkinlik yaşına çatmayan və gənc məhkumların bu hüququnun təmin edilməsi və belə şəxslər üçün fərqli yanaşmaların tətbiqi vacibdir.

BMT Baş Assambleyasının 45/111 saylı qətnaməsi ilə qəbul edilən "Məhkumlarla rəftara dair əsas prinsiplər"in müddəalarına əsasən, bütün məhkumlar insan şəxsiyyətini tam inkişaf etdirməyə yönələn mədəni fəaliyyətdə və təhsildə iştirak etmək hüququna malikdir. Bu baxımdan, cəza-icra qanunvericiliyində və digər qanunvericilik aktlarında xüsusi ictimai təhlükə törətməyən və az ağır cinayət törətmiş yetkinlik yaşına çatmayan və gənc məhkumların fərqli rejimdə cəza çəkməsinə imkan verən dəyişikliklərin edilməsi, belə məhkumların cəzasını çəkməsi üçün xüsusi pilot müəssisənin yaradılması məqsədəmüvafiqdir.

Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin, 916 Çağrı Mərkəzinə edilmiş zənglərin, MPQ tərəfindən penitensiar müəssisələrdə keçirilən başçəkmələrin, mediada və sosial şəbəkələrdə dərc olunmuş məlumatların təhlili göstərmişdir ki, 2023-cü ildə Penitensiar Xidmətin fəaliyyətində məhkumların islah olunmasında müsbət nəticələrin əldə edilməsinə imkan verən bir sıra yeni yanaşmalar tətbiq olunmuşdur. Məhkumların cəza çəkdikləri müəssisələrin hüdudlarından kənara çıxma təcrübəsinin genişləndirilməsini buna misal göstərmək olar. Əvvəllər bu təcrübə olsa da, bu imtiyazdan əsasən yetkinlik yaşına çatmayan məhkumlar istifadə etmişlər. 2023-cü ildən artıq ilk dəfə böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə məhkum olunmuş şəxslərin ailə üzvlərinin yaşadığı ünvana 7 günədək qısamüddətli səfərlərə buraxılmasına başlanılmışdır.

Penitensiar Xidmətin Çağrı Mərkəzinin fəaliyyətə başlaması, sosial şəbəkə hesablarının fəaliyyəti, saxlanma şəraiti, xüsusilə qidalanma və ərzaq məsələləri ilə bağlı yeniliklər Ombudsman tərəfindən müsbət qiymətləndirilir. Çağrı Mərkəzi vətəndaş müraciətlərinə daha çevik qaydada baxılmasının təmin edilməsinə mühüm töhfə verməklə yanaşı, müraciət edən şəxslərin penitensiar müəssisələrdə saxlanılan və ya cəza çəkən şəxslərin yaxınları barədə operativ məlumat alınmasına kömək edəcəkdir.

Saxlanılan şəxslərin saxlanıldıqları müəssisə dəyişdirilərkən ailə üzvlərinin məlumatlandırılması əhəmiyyət kəsb edir. Odur ki, qanunvericilikdə təsbit edilmiş

telefon danışığı hüququ ilə yanaşı, müəssisənin dəyişdirilməsi, Müalicə Müəssisəsinə köçürülmə ilə bağlı məlumatı vermək hüququnun, saxlanılan şəxslərin şəhərlərarası zənglərinin dövlət hesabına ödənilməsinin qanunvericilikdə öz əksini tapması məqsədəmüvafiqdir.

Saxlanılan şəxslərin hüquqi yardım almaq və vəkillə görüşmək hüququ həmin şəxslərin pis rəftardan müdafiəsinin əsas təminatlarındandır. Təcrübə göstərir ki, azadlığın məhdudlaşdırıldığı andan pis rəftar ehtimalı daha yüksək olur. Müvafiq olaraq, polis tərəfindən saxlanılan şəxslərin bu müddət ərzində vəkilə çatımlılığının təmin edilməsi pis rəftara qarşı əsas təsir mexanizmlərindən biridir.

Əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də Ombudsmanın 916 Çağrı Mərkəzi vəkillərin hüquqlarını müdafiə etdikləri şəxslərlə görüşmək hüququnun həyata keçirilməsində yarana biləcək çətinliklərin qarşısının alınmasında effektiv mexanizm kimi fəaliyyət göstərmişdir. Ombudsmanın müdaxiləsindən sonra bu görüşlər təmin edilsə də, problem aktual olaraq qalmaqdadır.

Tutulmuş, həbs edilmiş şəxslərin polis orqanlarında vəkilləri ilə müvafiq order təqdim edilməsinə baxmayaraq, görüşlərinə maneə yaradılması ilə bağlı müraciətlər Bakı şəhərinin Xətai, Nəsimi, Nizami, Binəqədi Rayon Polis idarələrindən, habelə Abşeron Rayon Polis İdarəsindən, eyni zamanda Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsindən olmuşdur.

Bəzi hallarda polis orqanlarındakı sənədləşmədə olan nöqsan və çatışmazlıqlar qeydiyyat işinin düzgün təşkil edilməməsini, şəxslərin saxlanılması ilə bağlı prosessual müddətlərə riayət edilib-edilməməsini müəyyənləşdirməkdə çətinliklərə səbəb olur və bir çox hallarda belə pozuntuların aşkarlanmamasına xidmət edir.

Qanunvericiliyin tələbləri nəzərə alınaraq, hər bir saxlanılan şəxslə bağlı əhatəli və dolğun qeydiyyat aparılmalı, saxlanılan şəxsin adı, saxlanma səbəbi, saxlanmanın vaxtı, dindirmə, başqa yerə köçürülmə, onlar barədə bütün prosessual hərəkətlər və digər məlumatlar müfəssəl şəkildə təsvir olunmalıdır.

Saxlanılan şəxslərin tibbi müayinəsi pis rəftara qarşı əsas təminatlardandır. Bununla yanaşı, qanunvericilik öz növbəsində, həbs edilmiş şəxslərin həbs yerlərinə qəbul edildiyi andan 24 saat ərzində həbs yerinin tibb işçiləri tərəfindən tibbi müayinədən keçirilməsini nəzərdə tutur. Tutulmuş və ya həbs edilmiş şəxsin, yaxud onun müdafiəçisinin vəsatəti ilə, cinayət prosesini həyata keçirən orqanın qərarı əsasında tibbi müayinə həmin şəxsin özünün seçdiyi digər tibb müəssisələrinin mütəxəssisləri tərəfindən də həyata keçirilə bilər. Qanunla bu halda tibbi müayinənin xərcləri tutulmuş və ya həbs edilmiş şəxsin öz vəsaiti hesabına ödənilir.

Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə həyata keçirilən başçəkmələrdə diqqət edilən məsələlərdən biri də şəxslərin tibbi yardımla təminatı ilə bağlıdır.

Başçəkmə keçirilmiş bəzi polis orqanlarının, məsələn, Qaradağ və Yasamal Rayon Polis idarələrinin, Göyçay Rayon Polis Şöbəsinin müvəqqəti saxlama yerlərinin (MSY) tibb otaqlarında istifadə müddəti bitmiş dərman vasitələrinə rast gəlinmiş, eyni zamanda tibbi qeydlərin bəzi hallarda həkim tərəfindən deyil, polis əməkdaşları tərəfindən aparıldığı müəyyən edilmişdir.

Qanunvericilikdə saxlanılan şəxsin hüquqları barədə məlumatlandırılması hüququ və bu cür məlumatı vermə vəzifəsi təsbit edilmişdir. Buna görə də polis tərəfindən saxlanılmış şəxslərə onların hüquqları barədə gecikdirilmədən və anlaya bildikləri dildə məlumat verilməlidir. Bunun təmin olunması üçün polis tərəfindən saxlanılmış şəxslərə həbsə alınmalarının başlanğıcında hər bir halda hüquqlarının dəqiq əks olunduğu yazılı formalar verilməli, eyni zamanda həmin şəxslərə hüquqları barədə məlumatlandırıldıqlarını təsdiq edən ərizəni imzalamaları təklif edilməlidir.

Polis qanunvericiliyə uyğun olaraq, mümkün olan dərəcədə azadlıqdan məhrum edilmiş şəxslərə azadlıqdan məhrum edilmələrinin səbəbləri və onlara qarşı irəli sürülən hər hansı ittiham barədə məlumat verməli, azadlıqdan məhrum edilmiş şəxsləri konkret

halda onlara tətbiq edilən prosedur barədə yubanmadan məlumatlandırmalıdır. Bu baxımdan, Ombudsmanın MPM fəaliyyəti çərçivəsində aparılan monitorinqlər zamanı saxlanılmış şəxslərin hüquqları və barələrində olan işlə bağlı məlumatlandırılmalarının yoxlanılması əsas araşdırma predmeti olmuşdur.

Bütün müəssisələr üzrə saxlanılan şəxslərin rahatlıqla oxuya biləcəyi yerdən onların hüquq və vəzifələrinin əks olunduğu yazılı lövhələrin asılması zəruridir.

MSY-lərdə aşkar edilən nöqsanlardan biri də tutulmuş və ya həbs edilmiş şəxslərin kameralara onların əvvəlki məhkumluğu, səhhəti nəzərə alınmadan yerləşdirilməsi ilə bağlı olmuşdur. Belə ki, Nizami RPİ-yə başçəkmə zamanı daxili intizam qaydalarına zidd olaraq, ilk dəfə tutulan şəxslərin əvvəllər məhkumluğu olan şəxslərlə bir kamerada saxlanıldığı müşahidə edilmişdir. MPQ üzvləri eyni hala Xətai RPİ, Səbail RPİ, Şəmkir RPŞ və Ağstafa RPŞ-nin müvəqqəti saxlama yerlərində də rast gəlmişlər. Göründüyü kimi, MSY-lərdə saxlanma şəraiti ilə bağlı bəzi çatışmazlıqlar hələ də qalmaqdadır.

Kameralarda işıqlandırmaya, istiliyin verilməsinə, saxlanılan şəxslərin sayına görə oturacaqların olmasına, gəzinti yerinin beynəlxalq standartlara uyğun təşkil edilməsinə, açıq havada fiziki hərəkətlərin icrası üçün zəruri şəraitin yaradılmasına diqqət artırılmalıdır.

2023-cü il ərzində Milli Preventiv Qrup üzvləri tərəfindən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki psixiatriya müəssisələrinə və narkoloji müalicə mərkəzlərinə başçəkmələr keçirilmiş, pasiyentlərin hüquqlarının təminatı vəziyyəti, saxlanma şəraiti və rəftar məsələləri araşdırılmışdır.

Paytaxtda və regionlarda yerləşən psixiatriya xəstəxanalarında sıxlıq probleminin olduğu, pasiyentlərin yaşayış sahəsinin mövcud standartlara uyğun olmadığı, çarpayıların bir-birinə yaxın, bəzən bitişik yerləşdirildiyi müşahidə edilmişdir. Ölkə üzrə əksər psixiatriya müəssisələrinin əsaslı təmir edilməsi, yenidənqurma zamanı müasir standartların nəzərə alınması zəruridir.

Başçəkmə keçirilmiş həmin müəssisələrdə həkim və orta tibb heyəti üzrə vakansiyaların mövcud olmasına baxmayaraq, kadr çatışmazlığı keyfiyyətli və effektiv tibbi yardımın göstərilməsinə imkan vermir. Belə ki, Respublika Narkoloji Mərkəzinə həyata keçirilmiş başçəkmə zamanı müalicəyə cəlb edilməli kifayət qədər şəxsin gözləmə növbəsində olduğu müəyyən edilmişdir. Bu səbəbdən, respublika üzrə narkoloji müəssisələrin sayının artırılmasına ehtiyac vardır.

Narkoloji müalicə müəssisələrində aşkar edilən problemlər, həmin müəssisələrdəki sıxlıq və müalicə gözləyən şəxslərin sayının çoxluğunu nəzərə alaraq, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir üsulların tətbiq edilməsi, narkoloq və klinik psixoloqların, narkoloji müalicə müəssisələrinin sayının artırılması, reabilitasiya mərkəzlərinin yaradılması bu sahədə qarşıya qoyulmuş məqsədlərə nail olunması üçün vacibdir. Narkotik asılılığından əziyyət çəkən yetkinlik yaşına çatmayan şəxslərin müalicə alması məqsədilə ixtisaslaşmış tibb müəssisələrində ayrıca şöbələrin yaradılması da məqsədəuyğundur.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan və Bakıda yerləşən Körpələr evinə və Uşaq Psixonevroloji Mərkəzinə keçirilən başçəkmələr zamanı uşaqların qidalanmasına aid davamlı xarakter daşıyan çatışmazlıqlar müəyyən edilmişdir. Belə ki, menyuların müasir standartlara cavab vermədiyi, qida məhsullarının azyaşlıların tələbatını ödəmədiyi, meyvə çeşidliliyinin olmadığı, uşaqların təbii süd məhsulları ilə təmin olunmadığı aşkar edilmişdir. Hər bir uşağın sağlam olmaq və sağlam inkişaf etmək hüququnu əsas götürərək "Körpələr evində, bağça-körpələr evində və uşaq evlərində uşaqlar üçün qida normaları"nın dəyişdirilərək müasir standartlara uyğunlaşdırılması da zəruridir.

Körpələr evində uşaqlarla psixoloji işin aparılmaması, psixoloq ştatının mövcud olmaması hələ də aktualdır. Ombudsman Azərbaycan Respublikası Nazirlər Kabinetinin

1996-cı il 29 may tarixli, 61 nömrəli "Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında" Qərarında "uşaq psixoloqu" və "erkən inkişaf üzrə mütəxəssis" ştat vahidlərinin müəyyən olunması məqsədilə müvafiq dəyişikliklər edilməsini vacib hesab edir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki müəssisələrdə keçirilmiş başçəkmələr zamanı əvvəlki monitorinqlərdə verilmiş təklif və tövsiyələrin icra edildiyi müşahidə olunsa da, bəzi nöqsanlar hələ də qalmaqdadır. Nazirliyin tabeliyindəki əsaslı təmirə ehtiyac olan müəssisələrdə, xüsusilə də inteqrasiya təlimli internat tipli gimnaziyalarda saxlanma şəraitinin təkmilləşdirilməsi vacibdir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsil aldığı internat məktəblərində, xüsusi təhsilə cəlb olunmuş orta və yuxarı sinif şagirdləri üçün müvafiq dərslik və dərs vəsaitlərinin təminatında çatışmazlıqların olduğu aşkar edilmişdir. Bundan başqa, belə məktəblərdə azyaşlıların psixi sağlamlığına göstərilən diqqətin artırılması, uşaqlarla psixoloji işin aparılmasında müvafiq standartlaşdırılmış sənədlərin, fərdi iş planlarının formalarının işlənib hazırlanması, bu istiqamətdə məşğələlərin aparılması üçün kabinetlərin əyani vəsaitlərlə təmin olunması zəruridir.

Başçəkmələr zamanı uşaqların asudə vaxtının səmərəli təşkilinə, maraqlarının və qabiliyyətlərinin, o cümlədən peşə maraqlarının öyrənilməsinə ehtiyacın olduğu müəyyən edilmişdir. Əksər məktəblərdə əmək təlimi, peşə hazırlığı işlərinin aparılması üçün maddi-texniki bazanın, emalatxanaların olmadığı müşahidə edilmişdir.

Ombudsman haqqında Konstitusiya Qanununa edilən 2023-cü il 9 iyun tarixli dəyişikliklərlə milli preventiv mexanizmə başçəkmələr zamanı texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyat aparmaq və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələrini (o cümlədən prokurorluğun nümayəndəsini) dəvət etməklə tədbirlər görmək səlahiyyəti verilmişdir. Bu dəyişikliklər işgəncə və pis rəftar hallarının qarşısının alınması istiqamətində preventiv tədbirlərin effektivliyinə töhfə verməklə Ombudsmanın MPM kimi mandatını genişləndirir və öz iradəsi ilə tərk edə bilmədikləri yerlərdə olan şəxslərin hüquqlarının səmərəli müdafiəsinə imkanlar yaradır.

Qeyd edilməlidir ki, saxlanılma yerlərinin əməkdaşları üçün maarifləndirmə tədbirləri çərçivəsində Polis Akademiyası və Ədliyyə Akademiyası ilə əməkdaşlıq davam etdirilmişdir. Polis Akademiyasında rayon, şəhər polis idarələri rəislərinin müavinləri və müdavimlər, Ədliyyə Akademiyasında hakimliyə namizədlər, məhkəmə ekspertləri və ədliyyə orqanlarına qulluğa qəbul olunanlar üçün mühazirələrdə Ombudsmanın MPM sahəsində fəaliyyəti, habelə keçirilmiş başçəkmələr barədə ətraflı məlumat verilmişdir.

Penitensiar Xidmətin müəssisələrində Ombudsman təsisatının interaktiv qaydada təşkil etdiyi maarifləndirmə tədbirlərində dövlət tərəfindən təyin edilən yardım və sosial adaptasiyaya dəstək mexanizmləri barədə məlumat verilmiş, məhkumların sualları ətraflı cavablandırılmış, həmçinin Ombudsmanın tövsiyələri çatdırılmış, məhkumların müraciətləri qəbul edilmişdir.

***İnformasiya əldə etmək hüququnun müdafiəsi.*** İnformasiya əldə etmək hüququnun müdafiəsi söz azadlığının təmin edilməsinin, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, korrupsiyaya qarşı mübarizənin və ictimai səmərəliliyin artırılmasının əsas vasitələri kimi çıxış edir, eyni zamanda digər hüquqların müdafiəsində əhəmiyyətli rol oynayır.

Ombudsman qanunvericiliklə nəzərdə tutulmuş nəzarət mexanizmi çərçivəsində informasiya əldə etmək hüququnun təmin edilməsi, bu hüququn pozulması ilə bağlı daxil olan şikayətlərə baxılması və cavablandırılması, habelə informasiya əldə etmək hüququnun təbliği, monitorinq və təhlillərin aparılması istiqamətində fəaliyyətini davam etdirmişdir.

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, informasiya sahibi qanunla müəyyən edilmiş qaydada hər kəsin öz informasiya ehtiyatlarından məlumatı azad, maneəsiz və hamı üçün bərabər şərtlərlə əldə etmək hüququnu təmin etməyə, ictimai informasiyanı internet informasiya ehtiyatlarında açıqlamağa borcludur, eyni zamanda informasiyanın əldə olunmasının təşkilinə görə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır.

Monitorinq və araşdırmalar nəticəsində əksər dövlət qurumları tərəfindən internet informasiya ehtiyatlarının yaradılması sahəsində ciddi irəliləyişlərin əldə edildiyi müəyyən olunmuşdur. Bununla belə, hələ də bəzi qurumların yaratdıqları informasiya ehtiyatları qanunvericiliyin tələblərinə cavab vermir.

İnformasiya sahibinin tələb edilən məlumatı internet informasiya ehtiyatlarında açıqlamaması, informasiya sorğularına qanunvericiliklə müəyyən olunmuş müddətdə baxmaması, natamam məlumat verməsi və ya cavablandırılmasından əsassız imtina etməsi, bununla da informasiya əldə etmək hüququnun kobud şəkildə pozulması barədə Ombudsmana ünvanlanmış şikayətlərə operativ şəkildə baxılmış, müvafiq səlahiyyətli qurumlara sorğular ünvanlanmış, müraciətlər təmin olunmuşdur.

Ərizəçi N. (15368-23) Ombudsmana müraciət edərək, "Azərsu" ASC-nin 7 nömrəli Regional Sukanal İdarəsinə ünvanladığı iki informasiya sorğusunun təmin olunmadığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı həmin ASC-yə ünvanlanmış müraciətdən sonra informasiya sorğusu təmin edilmişdir.

Ərizəçi A. (15581-23) Ombudsmana müraciət edərək, doktoranturada təhsil aldığı dissertasiya mövzusu ilə bağlı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə ünvanladığı informasiya sorğusunun təmin edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Müraciət araşdırılmış, məsələ qurum qarşısında qaldırılmaqla informasiya sorğusu təmin edilmişdir.

Məlum olduğu kimi, "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli, 1361 nömrəli Fərmanına uyğun olaraq, Ombudsman, onun aparatının rəhbəri və aparat rəhbərinin müavini Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 371–374, 381.2, 381.3 və 554-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyətinə malikdirlər.

İnformasiya əldə etmək hüququnun pozulması barədə şikayətlər üzrə araşdırmalar aparılmış, müvafiq informasiya sahiblərindən məlumatlar tələb edilmişdir.

Qanunvericiliyin tələblərinin pozulması müəyyən edildiyi hallarda Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 374-cü maddəsi ilə inzibati xəta haqqında protokol tərtib olunaraq aidiyyəti məhkəmələrə göndərilmiş, nəticədə informasiya sahibləri barəsində inzibati tənbeh tədbirlərinin tətbiqinə dair qərarlar qəbul edilmişdir.

Ərizəçi A. (10130/2-23) Ombudsmana müraciət edərək, "Şəki Rayon Mərkəzi Xəstəxanası" PHŞ-nin direktoruna göndərdiyi yazılı informasiya sorğusuna cavab verilmədiyini və hüquqlarının pozulduğunu bildirmişdir.

İcraat zaman müəyyən olunmuşdur ki, sorğuya qanunla müəyyən edilmiş müddətdə cavab verilməməklə, o cümlədən Ombudsman Aparatına qeyri-dəqiq cavab göndərilməklə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 10.4.1, 10.4.4, 10.4.5 və 24.1-ci maddələrinin tələbləri pozulmuş, bununla da Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 374.1-ci maddəsinin təsiri altına düşən inzibati xəta törədilmişdir. Müəyyən edilmiş pozuntu halı ilə bağlı inzibati xəta haqqında tərtib edilmiş protokol və ona əlavə edilmiş sənədlər baxılması üçün Şəki Rayon Məhkəməsinə göndərilmiş, informasiya sahibinə inzibati tənbeh tədbiri kimi cərimə tətbiq olunmasına dair qərar qəbul edilmişdir. Məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən sonra informasiya sahibi tərəfindən öhdəliklər yerinə yetirilərək, informasiya sorğusu təmin edilmişdir.

Göstərilənlərlə yanaşı, informasiya sahibi kimi Ombudsmana ünvanlanmış informasiya sorğuları Ombudsman haqqında Konstitusiya Qanunu və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə tam və ətraflı cavablandırılmışdır.

Ərizəçi M. (15980-23) Ombudsmana informasiya sorğusu ilə müraciət edərək, 2021-2022-ci illər ərzində məişət zorakılığı ilə bağlı daxil olan müraciətlər barədə məlumat verilməsini xahiş etmişdir. Ərizəçinin informasiya sorğusu qanunla müəyyən edilmiş müddətdə təmin edilmişdir.

Ərizəçi T. (17334/2-23) Ombudsmana informasiya sorğusu ilə müraciət edərək, 2019-cu ildən etibarən dövlət qurumlarına neçə təklif təqdim edilməsi və təkliflərin icra vəziyyəti barədə məlumat verilməsini xahiş etmişdir. İnformasiya sorğusunun cavablandırılması qanunla müəyyən edilmiş müddətdə təmin edilmiş, ərizəçi sorğunun icra olunmasına görə öz təşəkkürünü bildirmişdir.

Ombudsman tərəfindən neqativ halların baş verməsinə şərait yaradan vəziyyətin aradan qaldırılması və vətəndaşlara informasiya əldə etmələri üçün bərabər imkanların yaradılması məqsədilə mütəmadi olaraq informasiya sahibləri üçün paytaxt və regionlarda geniş maarifləndirmə işləri aparılmış, əhalinin müxtəlif qruplarına ünvanlanmış maarifləndirici nəşrlər hazırlanmışdır.

Ombudsman informasiya əldə etmək hüququ sahəsində dövlət qurumları, bir sıra regional və beynəlxalq qeyri-hökumət təşkilatları, xarici ölkələrin milli insan hüquqları təsisatları ilə səmərəli əməkdaşlıq əlaqələri qurmuş və hal-hazırda da bu əməkdaşlığı davam etdirməkdədir. Belə ki, Ombudsman təsisatı informasiya əldə etmək hüququnun təmin edilməsi sahəsində böyük nüfuza sahib olan və ictimai məlumata çıxışın müdafiəsini və təşviqini həyata keçirmək məqsədilə özündə informasiya ombudsmanlarını, habelə bu sahələrdə fəaliyyət göstərən digər qurumları birləşdirən İnformasiya Komissarlarının Beynəlxalq Konfransının (International Conference of Information Commissioners - ICIC) institusional üzvü seçilmişdir.

İnformasiya əldə etmək hüququnun müdafiəsi sahəsində həyata keçirilən işlərin təbliği və müsbət iş təcrübəsinin mübadiləsi, beynəlxalq arenada ölkənin mövqeyinin dəstəklənməsi baxımından bu quruma üzvlük mühüm önəm kəsb edir.

İnformasiya əldə etmək hüququnun səmərəli müdafiəsində beynəlxalq tədbirlərdə əldə edilmiş təcrübələr də əhəmiyyətli olmuşdur.

Filippinin paytaxtı Manilada ICIC və Filippin hökuməti tərəfindən informasiya əldə etmək hüququnun müdafiəsi və təşviqində informasiya komissarlarının rolunun gücləndirilməsi, müsbət təcrübənin öyrənilməsi istiqamətində fikir mübadiləsinin aparılması məqsədilə təşkil olunan 14-cü illik konfransda təsisatın əməkdaşları Azərbaycan Ombudsmanının bu sahədə həyata keçirdiyi fəaliyyət barədə məlumat vermişlər. Konfransın yekununda ICIC rəsmiləri tərəfindən Azərbaycan Ombudsmanının mövqeyi səsləndirilmiş, işğaldan azad edilmiş ərazilərimizdəki mövcud mina probleminin həlli istiqamətində görülən işlərin ICIC üzvləri tərəfindən dəstəklənməsinin zəruriliyi qeyd olunmuşdur.

Qeyd edilənlərin davamı kimi Azərbaycan Ombudsmanının ICIC-yə müraciətindən sonra həmin qurumun İcraiyyə Komitəsinin üzvləri tərəfindən tərəfləri sülh yaratmağa təşviq edən effektiv mexanizmlərin təmin edilməsinə yönəlmiş dialoq və danışıqlar aparmağa, məlumatların etibarlı şəkildə və vaxtında açıqlanmasına, habelə dezinformasiyaya, nifrət nitqinə və insan hüquqlarının pozulmasına qarşı mübarizə aparmağa çağıran bəyanat qəbul edilmişdir.

Ombudsman Aparatının əməkdaşları peşəkar biliklərinin artırılması məqsədilə UNESCO-nun, Oksford Universitetinin Hüquq fakültəsinin Bonavero İnsan Hüquqları İnstitutunun, habelə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik və İnkişaf İdarəsinin birgə təşkilatçılığı ilə 28 Sentyabr - Ümumdünya İnformasiya

Əldə Etmək Azadlığı Gününə həsr olunmuş “İnformasiya əldə etmək üçün onlayn məkanın əhəmiyyəti” mövzusunda keçirilmiş qlobal konfransda onlayn iştirak etmişlər.

İnformasiya əldə etmək hüququnun təbliği istiqamətində həyata keçirilən geniş fəaliyyət ölkəmizdə bu hüququn daha səmərəli təmininə, informasiya cəmiyyətinin inkişafına və açıq hökumətin təşviqinə yönəlmiş islahatlara dəstək verməkdədir.

***Hüquq və azadlıqların məhkəmə təminatı.*** Demokratik cəmiyyətlərdə məhkəmə sisteminin rolu dövlətin konstitusiya quruluşunun əsasları, qanunun aliliyinin və insan hüquq və azadlıqlarının təmin edilməsi ilə şərtlənir.

Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verir. Ölkəmizdə bu hüququn səmərəli tətbiqinə və məhkəmə sisteminin təkmilləşdirilməsinə yönəlmiş tədbirlər davam etdirilir.

Ombudsman haqqında Konstitusiya Qanunu ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Ombudsman insan hüquq və azadlıqlarının təmin edilməsi və daha etibarlı müdafiəsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və onun qurumları, Məhkəmə-Hüquq Şurası, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və digər məhkəmə orqanları ilə səmərəli əməkdaşlıq əlaqələri qurmuşdur. Bu əməkdaşlıq, eləcə də şikayətlərin araşdırılması praktikası aidiyyəti sahələrdə, o cümlədən məhkəmələrin fəaliyyətində mövcud problemlərin və boşluqların müəyyən edilməsi və operativ həllində əhəmiyyətli rol oynayır.

Həmin Konstitusiya Qanununun 1.9-cu maddəsində Ombudsmanın məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq, 13.2.7-ci maddəsində isə dövlət və ya yerli özünüidarə orqanının, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək hüquqları təsbit edilir. Bununla yanaşı, həmin Konstitusiya Qanununun 13.2.8-ci maddəsi şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduğu hallarda Ombudsmanın Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququnu müəyyən edir.

Ombudsman mütəmadi olaraq qanunvericiliyin təhlili və təkmilləşdirilməsi, o cümlədən normativ-hüquqi akt layihələrinin hazırlanması prosesində yaxından iştirak edir, rəy və təkliflərini təqdim edir, eləcə də müvafiq sahə üzrə şikayətlərin ümumiləşdirilmiş təhlilini aparır. Bu təhlillər məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi və mövcud boşluqların aradan qaldırılması nöqteyi-nəzərindən əhəmiyyətlidir. Bununla yanaşı, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə əməkdaşlıq çərçivəsində Ombudsman və Aparatın nümayəndələri tərəfindən hakimlərə, habelə uzunmüddətli kurslara cəlb edilən hakimliyə namizədlər üçün insan hüquqlarına dair müvafiq mövzular üzrə mühazirələr oxunur.

2023-cü ildə hüquq və azadlıqların məhkəmə təminatı ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə iddia ərizələrinin əsassız olaraq qəbul edilməməsi, vəsatətlərə baxılmaması, hakimin hərəkətlərindən (və ya hərəkətsizliyindən) narazılıq, məhkəmə baxışı zamanı prosessual hüquq normalarının pozulması, bəzi hallarda işə baxılması müddətlərinin süni şəkildə uzadılması, məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılmasında köməklik göstərilməsi, işə obyektiv baxılmasında köməklik göstərilməsi, məhkəmə qərarının surətinin işdə iştirak edən şəxslərə vaxtında göndərilməməsi, məhkəmə aktlarından narazılıq, məhkəmə qərarlarının icraya yönəldilməməsi və ya icra olunmaması, şikayətlərə kassasiya və əlavə kassasiya qaydasında baxılması üçün vəkillə təmin olunmaqda köməklik göstərilməsi və digər hallar öz əksini tapmışdır. Şikayətlər Ombudsmanın səlahiyyətləri çərçivəsində araşdırılmış, səlahiyyətlərə aid olmayan müraciətlər üzrə qanunvericiliyin tələbləri izah edilməklə ərizəçilərə cavablar verilmişdir.

Bəzi şikayətlərdə vətəndaşların müraciət hüququnun pozulması, qanunvericiliklə müəyyən edilmiş prosessual müddətlərə riayət olunmaması, məhkəmə proseslərinin dəfələrlə təxirə salınmaqla süründürməçiliyə yol verilməsi, eləcə də təyin edilmiş məhkəmə ekspertizalarının keçirilməsi müddətlərinə əməl olunmaması kimi hallar öz əksini tapmışdır.

Ərizəçi Ə. (7023-23) Ombudsmana müraciət edərək, Ağcabədi Rayon Məhkəməsinə müraciətinin nəticəsi barədə ona məlumat verilmədiyini bildirmiş, məsələnin araşdırılmasını və müvafiq tədbir görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ağcabədi Rayon Məhkəməsinə ünvanlanmış müraciətdən sonra ərizəçi məhkəmədə qəbul edilmiş, müraciəti dinlənilmiş və sualları cavablandırılmış, hüquq və vəzifələri izah olunmuşdur.

Ərizəçi R. (2854-23) Ombudsmana müraciət edərək, Gəncə Ağır Cinayətlər Məhkəməsinin icraatındakı barəsində olan cinayət işinin bir il altı ay müddətində yekunlaşdırılmadığını, süründürməçiliyə yol verildiyini bildirmişdir. Şikayətlə bağlı Məhkəmə-Hüquq Şurasına ünvanlanmış sorğuya verilmiş cavabda cinayət işinin təqsirləndirilən şəxslərin çoxluğu ilə əlaqədar hələ də məhkəmə baxışı mərhələsində olduğu bildirilmiş, bununla belə, cinayət işinin uzun müddət məhkəmənin icraatında qalmaqla nəticə verməməsinin müvafiq məhkəmənin diqqətinə çatdırıldığı, yekun məhkəmə aktının çıxarılması üçün zəruri prosessual hərəkətlərin təxirə salınmadan həyata keçirilməsinin təmin olunmasının tövsiyə edildiyi bildirilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 97-ci maddəsinə əsasən, işə baxılarkən xüsusi bilik tələb olunan sualları izah etmək üçün məhkəmə işdə iştirak edən şəxsin yazılı qaydada verilən əsaslandırılmış vəsatəti və ya öz təşəbbüsü ilə ekspertiza təyin edə bilər. Həmin Məcəllənin 101-ci maddəsində ekspertin ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu gündən 1 ay, Məcəllədə nəzərdə tutulmuş istisna hallar üzrə isə 3 və 10 günədək müddətlərdə yazılı formada rəy verilməsi və dərhal məhkəməyə göndərilməsi nəzərdə tutulur. Bununla yanaşı, Məcəllənin 97.5-ci maddəsinə əsasən, tərəf ekspertizanın keçirilməsində iştirak etməkdən imtina edirsə və ya onun keçirilməsinə mane olursa və işin hallarına görə bu tərəfin iştirakı olmadan ekspertizanı keçirmək mümkün deyilsə, məhkəmə hansı tərəfin iştirak etməkdən imtina etməsindən, habelə bunun onun üçün hansı əhəmiyyət kəsb etməsindən asılı olaraq, ekspertiza təyin edilən faktı, onun hüquqi nəticələrini əsaslandırmaqla təsdiq olunmuş və yaxud rədd edilmiş hesab edə bilər.

Ərizəçi M. (12605-23) Ombudsmana müraciət edərək, "payın bölünməsi, bu mümkün olmadıqda paya münasibətdə kompensasiyanın ödənilməsi və hərracda satılması" tələbinə dair iddia ərizəsi üzrə mülki işin üç ilə yaxın müddətdir ki, Səbail Rayon Məhkəməsinin icraatında olmasına baxmayaraq, iş üzrə müvafiq qərarın qəbul edilmədiyini, süründürməçiliyə yol verildiyini bildirmişdir.

Şikayətlə əlaqədar Səbail Rayon Məhkəməsinə ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, qeyd olunan mülki iş 30.12.2021-ci il tarixdə məhkəmənin icraatına daxil olmuş, iş üzrə hazırlıq iclası 03.02.2022-ci il tarixdə keçirilmişdir. Səbail Rayon Məhkəməsinin 28.03.2022-ci il tarixli qərardadı ilə qeyd olunan mülki iş üzrə məhkəmə tikinti-texniki ekspertizası təyin edilmiş və 13.04.2022-ci il tarixdə icra olunması üçün mülki işlə birlikdə Məhkəmə Ekspertiza Mərkəzinə göndərilmişdir. Təyin edilmiş məhkəmə tikinti-texniki ekspertizasının aparılmasından təkrarən imtina edilərək, mülki iş 14.06.2023-cü il tarixdə məhkəməyə qaytarılmışdır. Məlumat məktubunda göstərilmişdir ki, tədqiqat obyekti cavabdeh tərəfindən təqdim olunmadığından baxış keçirilməsi və qərardadla ekspertlər qarşısında qoyulmuş sualın cavablandırılması mümkün olmamışdır.

Məhkəmənin müvafiq qərardadı ilə mülki iş üzrə mübahisə predmetləri olan əmlakların naturada bölünməsinin mümkünlüyü yoxlanılmadan qeyd edilən iddialara

hüquqi qiymət verilməsi və iş üzrə yekun məhkəmə aktı qəbul edilməsi mümkün olmadığından təkrar məhkəmə tikinti-texniki ekspertizası təyin edilmiş və icra olunması üçün mülki işlə birlikdə Mərkəzə göndərilmişdir. Müvafiq ekspert rəyi məhkəməyə daxil olduqdan sonra iş üzrə icraat təzələnərək məhkəmə iclası təyin edilmişdir.

Beləliklə, qeyd olunanlardan, xüsusən də şikayətlərin araşdırılması təcrübəsindən göründüyü kimi, Ombudsman qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında, Ombudsman haqqında Konstitusiya Qanunu ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində həyata keçirdiyi müstəqil fəaliyyət zamanı məhkəmələrin və hakimlərin fəaliyyəti ilə bağlı kifayət qədər əhəmiyyətli faktlarla üzləşir. Qeyd olunan əhatəli fəaliyyət və əldə edilmiş təcrübədən irəli gələrək, Ombudsmanın Məhkəmə-Hüquq Şurasında təmsilçiliyi Şuranın fəaliyyətinə əhəmiyyətli dərəcədə yardımçı olmaqla yanaşı, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsinə, bu sahədə insan hüquq və azadlıqlarının daha çevik və səmərəli müdafiəsinə öz töhfəsini verə bilər.

Göstərilənlərlə yanaşı, Ombudsman təsisatı ilə məhkəmələr arasında əlaqələr xarici ölkələrin təcrübəsi nəzərə alınmaqla daha da genişləndirilə bilər. Belə ki, bir çox ölkələrdə ombudsmanların məhkəmələrlə, xüsusi ilə də Ali Məhkəmə, Konstitusiya Məhkəməsi ilə daha sıx əməkdaşlığı mövcuddur. Bəzi ölkələrdə ombudsmanın səlahiyyətləri daxilində Amicus Curiae – yəni məhkəmənin dostu (işdə tərəf olmamasına və prosesin bilavasitə iştirakçıları tərəfindən işə cəlb edilməməsinə baxmayaraq, iş üçün əhəmiyyət kəsb edən məlumatları məhkəmənin diqqətinə çatdırmaqla ona kömək etməsi) funksiyasını yerinə yetirmək səlahiyyəti vardır. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının daha etibarlı təmin olunması üçün mühüm əhəmiyyət kəsb edə biləcək bu və digər müsbət təcrübələrin tətbiqi, eyni zamanda qurumlar arasında əməkdaşlıq əlaqələrinin yeni istiqamətlər üzrə inkişafına da öz töhfələrini verə bilər.

*Məhkəmə qərarlarının icrası məhkəmə müdafiəsi hüququnun və ümumiyyətlə ədalət mühakiməsinin ayrılmaz tərkib hissəsini təşkil edir.* Məhkəmə qərarının icra olunmaması məhkəmə müdafiəsi hüququnu məhdudlaşdırmaqla yanaşı, məhkəmələrin nüfuzuna da xələl gətirmiş olur.

Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinə əsasən məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir. Məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Məhkəmə qərarlarının icra olunmaması ilə bağlı şikayətlər əsas etibarilə icra tədbirlərinin gecikdirilməsi, borclu barəsində axtarış işinin nəticə verməməsi səbəbindən icra sənədi üzrə icraatın uzun müddət dayandırılması, qərarın könüllü şəkildə, həm də uzun müddət ərzində icra edilməməsinə baxmayaraq məcburi icra tədbirlərinin tətbiq olunmaması (xüsusi ilə də dövlət qurumlarına münasibətdə), icra məmurları tərəfindən qeyri-etik davranış, kobud rəftar və s. ilə bağlı olmuşdur. Şikayətlər üzrə Ədliyyə Nazirliyinə, habelə aidiyyəti (borclu) dövlət qurumlarına ünvanlanmış sorğular əsasında aparılmış araşdırmalar və əldə olunmuş nəticələr barədə ərizəçilərə məlumat verilmişdir. Bir sıra hallarda görülmüş tədbirlər nəticəsində məhkəmə qərarlarının icrası tam təmin edilmişdir.

Ərizəçi T. (2690-23) Ombudsmana müraciət edərək, tərəf olduğu mülki iş üzrə Salyan Rayon Məhkəməsinin qərarının həmin rayon icra və probasiya şöbəsi tərəfindən icra olunmadığını, məcburi icra tədbirlərinin həyata keçirilmədiyini bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ədliyyə Nazirliyinə ünvanlanmış müraciətə verilmiş cavabda 08.09.2021-ci il tarixli icra sənədinə əsasən borcludan müəyyən məbləğdə vəsaitin alınaraq şikayətçiyə ödənilməli olduğu, Salyan rayon icra və probasiya şöbəsində başlanılmış icraat zamanı tələbin borclu tərəfindən könüllü icra müddətində icra edilmədiyi, onda tələbin yönəldilə bilinəcəyi əmlakın aşkar olunmadığı bildirilmişdir. Cavabda həmçinin qeyd olunmuşdur ki, hazırkı müraciətə

baxılması zamanı yerli qurum tərəfindən görülmüş tədbirlər nəticəsində tələb tam şəkildə təmin edilmişdir.

İcra tədbirlərinin həyata keçirilməsində mövcud çətinliklər bəzən borclunun olduğu yerin müəyyən edilməməsi ilə bağlı olur. Bu zaman yerli icra qurumu tərəfindən borclunun axtarılması barədə qərar qəbul edilərək daxili işlər orqanlarına göndərilsə də, bəzən axtarış tədbirləri həyata keçirilmir və ya bu tədbirlər gecikdirilir. Həmin şikayətlərlə əlaqədar Ombudsman tərəfindən aidiyyəti üzrə ünvanlanmış sorğular əsasında borclunun yeri müəyyən olunaraq, yerli icra qurumuna təhvil verilmiş, icra tədbirləri davam etdirilmiş və bir sıra hallarda tələb təmin olunmuşdur. Qeyd olunmalıdır ki, bu kimi süründürməçilik hallarının əsas səbəblərindən biri aidiyyəti qurumlar arasında funksional əlaqələndirmənin qənaətbəxş səviyyədə olmaması ilə bağlıdır.

Ərizəçi Q. (4394-23) Ombudsmana müraciət edərək, tərəf olduğu mülki iş üzrə Gəncə Apellyasiya Məhkəməsinin müvafiq qətnaməsinin icra edilmədiyini bildirmişdir. Araşdırma zamanı məlum olmuşdur ki, Gəncə Apellyasiya Məhkəməsinin 19.02.2021-ci il tarixli icra vərəqəsinə əsasən ərizəçinin uşaqla ünsiyyətinə maneə yaradılması qadağan edilmiş, həmin məhkəmənin 18.11.2021-ci il tarixli digər icra vərəqəsinə əsasən uşağın borcludan alınaraq ərizəçiyə verilməsi, habelə uşağın yetkinlik yaşına çatanadək saxlanılması üçün hər ay 130 manat sabit pul məbləğində alimentin ərizəçiyə ödənilməsi qət edilmişdir. Şikayətlə bağlı Ədliyyə Nazirliyinə ünvanlanmış sorğuya verilmiş cavabda icradan yayındığına və azyaşlı övladı ilə birlikdə yaşayış ünvanını dəyişdiyinə görə borclunun barəsində 25.02.2022-ci il tarixdə axtarış işinin açıldığı bildirilmişdir. Lakin axtarış tədbirlərinin nəticəsi barədə məlumat olmadığından Sumqayıt Şəhər Polis İdarəsinə sorğu ünvanlanmış, görülmüş tədbirlər nəticəsində borclu 16.05.2023-cü il tarixdə saxlanılaraq yerli quruma təhvil verilmiş, uşağın atadan alınaraq ərizəçiyə verilməsi təmin olunmuşdur. Araşdırma zamanı Ədliyyə Nazirliyindən verilmiş əlavə məlumatda aliment tələbinin təmin olunması istiqamətində də tədbirlərin görüldüyü bildirilmişdir.

Borclu dövlət qurumlarına münasibətdə məhkəmə qərarlarının icrası mexanizminin, zəruri təsir vasitələrinin qənaətbəxş olmaması, icra qurumları ilə aidiyyəti dövlət orqanları arasında əlaqələndirmənin lazımi səviyyədə təşkil edilməməsi, bəzən isə məhkəmə qərarlarının icrasına nəzarətin effektiv olmaması səbəbindən məhkəmə qərarlarının cavabdeh dövlət qurumları tərəfindən icra edilməməsi ilə bağlı çətinliklər hələ də qalmaqdadır. Bu cür hallarla bağlı daxil olmuş şikayətlər üzrə aparılmış araşdırmalar nəticəsində müsbət nəticələr əldə etmək mümkün olsa da, süründürməçilik halları səbəbindən bəzən bu proses bir neçə il davam etmiş, digər işlər üzrə isə araşdırma dövründə müsbət nəticə əldə etmək mümkün olmamışdır.

Ərizəçi Ə. (1437-23) Ombudsmana təkrar müraciət edərək, tərəf olduğu iş üzrə Bakı İnzibati Məhkəməsinin müvafiq qərarının borclu Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən icra olunmadığını, süründürməçiliyə yol verildiyini bildirmişdir.

Həmin Agentliyə ünvanlanmış sorğulara verilmiş cavablarda məhkəmə qərarının icrasının təmin edilməsi məqsədilə kompensasiyanın dövlət büdcəsindən dövlət əsaslı vəsait hesabına maliyyələşdirilməsinin Maliyyə Nazirliyinin səlahiyyətinə aid olduğu, ödənilməsi nəzərdə tutulan kompensasiyanın ayrıldığı təqdirdə qərarın icrasının təmin ediləcəyi qeyd olunmuşdur. Maliyyə Nazirliyi tərəfindən verilmiş cavabda həmin məhkəmə qərarına əsasən iddia tələbi ilə bağlı üzərinə hər hansı öhdəlik qoyulmadığı, Agentliyin müstəqil təsərrüfat subyekti olduğu və həmin nizamnamə ilə müəyyən olunmuş qaydada fəaliyyətindən gəlir əldə etdiyi, bu baxımdan məhkəmə qərarının icrasının cavabdeh qurumun müstəqil fəaliyyətindən əldə etdiyi gəlirlər hesabına təmin oluna biləcəyi qeyd edilmişdir. Ombudsmanın yenidən müraciətindən sonra müvafiq məhkəmə qərarına əsasən, 172451,48 manat vəsaitin Agentlik tərəfindən ərizəçiyə ödənilməsinin təmin edildiyi bildirilmişdir.

Ərizəçi Q. (5762-23) Ombudsmana müraciət edərək, Qobustan şəhərində yerləşən köşkün sökülməsinin qanunsuz hesab edilməsi və həmin köşkün cavabdeh Qobustan Rayon İcra Hakimiyyəti hesabına əvvəlki vəziyyətdə bərpa edilməsinə dair Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin 12.11.2019-cu il tarixli müvafiq qərarı üzrə icra sənədinin icra olunmadığını bildirmişdir. Şikayətlə bağlı Sumqayıt İnzibati Məhkəməsinə ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, qərar icra edilməsi üçün 27.01.2021-ci il tarixdə borclu Qobustan RİH-ə göndərilmiş, icra hakimiyyətinin 10.02.2021-ci il tarixli məktubunda sözügedən qərarın icrası ilə bağlı işlərin davam etdirildiyi göstərilmişdir. Bundan sonra məhkəmə tərəfindən dəfələrlə qərarın icra olunması üçün borclu Qobustan RİH-ə xatırlatma məktubları göndərilmiş və qərar icra olunmadığı halda Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin 120-ci maddəsinin tələblərinə uyğun olaraq, 50.000 manatadək məbləğdə cərimə oluna biləcəyi barədə məlumat verilmişdir. Sonradan məhkəmə tərəfindən Qobustan RİH-ə təkrar xəbərdarlıq məktubları göndərilsə də, məhkəmə qərarının icrası təmin edilməmişdir.

Göründüyü kimi, bir sıra hallarda borclu qurumların məhkəmə qərarlarının icrası üzrə öhdəliklərini öz üzərindən ataraq icra prosesinə digər qurumu cəlb etmək cəhdləri, icra prosesinə etinasız münasibət göstərmələri məhkəmə qərarlarının icra müddətlərinin süni şəkildə uzadılmasına və tələbkarın hüquqlarının kobud şəkildə pozulmasına səbəb olur. Bununla yanaşı, məhkəmələr tərəfindən dövlət qurumlarına münasibətdə məcburi icra tədbirlərinin və qanunvericiliklə nəzərdə tutulmuş inzibati tənbeh tədbirlərinin məhdud şəkildə tətbiqi bu pozuntu hallarının davam etməsinə şərait yaratmış olur. Bu baxımdan, borclu dövlət orqanlarına münasibətdə məhkəmə qərarlarının icrası təcrübəsinin təkmilləşdirilməsi zəruridir.

Mühüm məsələlərdən biri də məhkəmə qərarlarının icrasına qanunvericiliklə müəyyən olunmuş məhkəmə nəzarətinin qənaətbəxş olmaması ilə bağlıdır. Bu, xüsusi ilə borclu dövlət qurumlarına münasibətdə məhkəmə qərarlarının icrası prosesində özünü büruzə verir. Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının 11.05.2023-cü il tarixli (iş № 2-1(102)-623/2023) Qərarındakı mövqeyinə əsasən, borclunun icranı təmin etməyə yönəlmiş hərəkətləri qərarın hədəfləndiyi yekun faktiki və hüquqi nəticələri təmin etməlidir. Məhkəmələr, ilk növbədə, borclu inzibati orqan tərəfindən məhkəmə qərarının icrasının “formal icra” olub-olmadığına qiymət verməli, müəyyən edilmiş müddət ərzində icra ilə bağlı qərarın qəbul edilməməsinin səbəblərini araşdırmalı, icranın həyata keçirilməsi ilə bağlı hər iki tərəfin davranışlarına işin hallarını və yerinə yetirilməli olan icra hərəkətlərinin məzmununu nəzərə almaqla qiymət verməlidir.

Ərizəçi B. (13848-23) Ombudsmana müraciət edərək, Abşeron rayonundakı tam orta məktəblərdən birinə direktor vəzifəsinə bərpa olunmasına və işburaxmaya görə ona kompensasiyanın ödənilməsinə dair Nərimanov Rayon Məhkəməsinin 29.07.2022-ci il tarixli müvafiq qətnaməsinin qəbul olunduğunu, qərarın yuxarı instansiya məhkəmələri tərəfindən qüvvədə saxlanıldığını, lakin qətnamə üzrə icra sənədinin hazırkı vaxtadək qərəzli olaraq icra olunmadığını bildirmişdir.

Şikayətlə əlaqədar Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, 07.09.2023-cü il tarixli əmrə əsasən ərizəçi B. əvvəlki vəzifəsinə məcburi iş buraxmaya görə əməkhaqqı 22.09.2023-cü il tarixdə ödənilməklə bərpa edilmişdir.

Cavabda, eyni zamanda bildirilmişdir ki, ərizəçi B. müəssisəyə rəhbərlik və nəzarətdə ciddi nöqsanlara yol verdiyinə, əmək funksiyası və əmək müqaviləsi üzrə öhdəlikləri yerinə yetirmədiyinə görə Elm və Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən Azərbaycan Respublikası Əmək Məcəlləsinin 70-ci maddəsinin “ç” bəndinə uyğun olaraq 25.09.2023-cü il tarixdən məktəb direktoru vəzifəsindən təkrarən azad edilmişdir.

Qeyd olunmalıdır ki, ərizəçi B. müraciətində həmin məhkəmə qərarının icrası məqsədilə 08.09.2023-cü il tarixdə Abşeron-Xızı Regional Təhsil İdarəsinin əməkdaşları tərəfindən məktəbə aparıldığını, təhvil-təslim aktı imzalanan zaman məktəbin sabiq direktoru və digər işçilər tərəfindən təzyiq və təhqirlərə məruz qaldığını və mühafizə polisi vasitəsilə ondan məktəbin möhür və ştampının alınaraq həmin vaxtdan işə buraxılmadığını, və beləliklə də məhkəmə qərarının formal icra olunduğunu qeyd etmişdir.

Göründüyü kimi, ərizəçinin hüquqi baxımdan 07.09.2023-cü il tarixdə əvvəlki vəzifəsinə bərpa edilməsinə və 08.09.2023-cü il tarixdə iş yerinə dəvət olunmasına baxmayaraq, elə həmin tarixdən də mühafizə polisi vasitəsilə iş yerindən uzaqlaşdırılmış, faktiki olaraq vəzifələrinin icrasına başlaya bilməmiş, bununla da məhkəmə qərarının icrası təmin olunmamışdır.

Ümumiyyətlə, məhkəmə qərarlarının icrasının təmin edilməsi məqsədilə icra məmurlarının fəaliyyətinə nəzarətin artırılması, icra intizamına qanunla müəyyən edilmiş qaydada əməl olunması və məsuliyyət hissinin artırılması, süründürməçiliyə yol verilməsi hallarının qarşısının alınması istiqamətində işlər daha da gücləndirilməlidir.

Qeyd edilənlərlə yanaşı, istər 2023-cü ildə, istərsə də əvvəlki illərdə Ombudsmanın ünvanına daxil olan müraciətlərin təhlili onu deməyə əsas verir ki, məhkəmə qərarlarının icrası sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac vardır.

*Mübahisələrin qərəzsiz və işdə marağı olmayan üçüncü şəxslər tərəfindən məhkəməyədək alternativ həllində, bununla da insan hüquq və azadlıqlarının təmin edilməsində mediasiyanın xüsusi rolu vardır.* Bu baxımdan, mediasiya fəaliyyəti ilə əlaqədar şikayətlərin araşdırılması, bu sahədə problemlərin müəyyən edilərək aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və maarifləndirmə işinin təşkili istiqamətində Ombudsman Aparatı ilə Mediasiya Şurası arasında əməkdaşlıq çərçivəsində mediasiya sahəsində qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədar 2023-cü ilin əvvəlində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin və Mediasiya Şurasının təşəbbüsü ilə aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət tərkibdə yaradılmış İşçi Qrupun ilk iclası Ombudsman Aparatında təşkil olunmuşdur. İşçi Qrupun fəaliyyəti çərçivəsində təqdim olunmuş “Mediasiya haqqında” Azərbaycan Respublikası Qanununa dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanunu” layihəsinə, habelə bu layihə ilə əlaqədar Azərbaycan Respublikasının bəzi normativ hüquqi aktlarında dəyişiklik edilməsi haqqında qanun layihələrinə dair Ombudsmanın rəy və təklifləri aidiyyəti üzrə təqdim edilmişdir.

Ombudsmana ünvanlanmış müraciətlərin təhlili onu göstərir ki, “Mediasiya haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq kommersiya, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin mediasiya sessiyasında iştirak etməli olan tərəflər mediasiya institutu və mediasiya prosesi barədə məlumatsız olurlar. Bu qəbildən olan müraciətlər cavablandırılarkən ərizəçilərə Azərbaycan Respublikasının Əmək, Ailə və Mülki Prosessual məcəllələrinin, “Mediasiya haqqında” Qanunun tələbləri izah edilmişdir.

Qeyd olunanlar nəzərə alınaraq, mediasiya sahəsində məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Bakı şəhərində və regionlarda maarifləndirmə, məlumatlandırma və təbliğat işinin genişləndirilməsi məqsədəmüvafiq hesab edilir.

***Hüquqi yardım almaq hüququ.*** Bu hüquq insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinin vacib təminatıdır. Bu hüquq şəxslərin öz hüquq və azadlıqlarını həyata keçirmələrinə və müdafiəsinə imkan verməklə yanaşı, hüquq və azadlıqların qeyri-qanuni məhdudlaşdırılmasına yönəlmiş hərəkətlərin qarşısının alınmasına da zəmanət verir. Məhz bu baxımdan Azərbaycan Respublikası

Konstitusiyasının 61-ci maddəsinə əsasən hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ təsbit olunur.

Ombudsman peşəkar hüquqi yardım almaq hüququnun təmin edilməsi, bu sahədə məlumatlılıq səviyyəsinin artırılması və qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində məhkəmələr və Azərbaycan Respublikasının Vəkillər Kollegiyası ilə əməkdaşlığını davam etdirir. Qeyd olunmalıdır ki, 2023-cü ildə Ombudsman "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Qanununun layihəsinə dair əlavə rəy və təkliflərini aidiyyəti üzrə təqdim etmişdir.

Peşəkar hüquqi yardım almaq hüququnun təmin edilməsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlər əsas etibarilə ərizəçilərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadığından dövlət hesabına hüquqi yardımın göstərilməsində köməklik edilməsi, dövlət hesabına vəkillə təmin olunma barədə müraciətlərin nəticəsiz qalması, bir sıra hallarda dövlət hesabına hüquqi yardım göstərən vəkillərin fəaliyyətindən narazılıq, vəkil tərəfindən etibarından sui-istifadə edilməklə aldadılma, vəkillər tərəfindən qeyri-etik hərəkətlərə yol verilməsi halları ilə bağlı olmuşdur. Şikayətlərlə bağlı müvafiq araşdırmanın aparılması və zəruri tədbirlərin görülməsi üçün məhkəmələrə və Vəkillər Kollegiyasına sorğular göndərilmiş, müraciətlər Ombudsmanın səlahiyyətinə aid olmadıqda qanunvericiliyin tələbləri izah edilməklə ərizəçilərə cavab verilmişdir.

***Məhkəməyədək icraat mərhələsində cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının müdafiəsi.*** Hüquq mühafizə orqanları ilə əməkdaşlıqda cinayət prosesi iştirakçılarının hüquqlarının təmini üzrə fəaliyyət davam etdirilmişdir.

Məhkəməyədək icraat mərhələsində cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının müdafiəsi sahəsində Ombudsmana ünvanlanmış şikayətlər bir qayda olaraq, ibtidai araşdırmanın və ya istintaqın qeyri-obyektiv aparılması, araşdırmanın gedişatı barədə vətəndaşa məlumat verilməməsi, cinayət işinin başlanmasının əsassız olaraq rədd edilməsi, faktla bağlı cinayət işinin başlanılmaması, əsassız olaraq cinayət işinə xitam verilməsi və ya cinayət işi üzrə icraatın dayandırılması, şikayətlər üzrə prosessual qərarın qəbul edilməməsi və ya müvafiq qərarın surətinin verilməməsi, kobud rəftar, habelə bu kimi digər məsələlərlə bağlı olmuşdur.

Ombudsmanın sorğuları əsasında prosessual nəzarət qaydasında prokurorluq orqanlarına göndərilən sorğular əsasında bir sıra hallarda cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarların qanuniliyi yoxlanılmış, tam və hərtərəfli araşdırma aparılmadığı müəyyən edildiyi hallarda həmin qərarlar ləğv edilərək, material üzrə əlavə araşdırmanın aparılması üçün müvafiq təhqiqat və istintaq orqanlarına qaytarılmış, bəzi hallarda isə cinayət işi başlanılmış, habelə cinayət işi üzrə icraata xitam verilməsi barədə qərarlar ləğv olunaraq iş təkrar istintaqa qaytarılmışdır.

Müraciətlərdən, eyni zamanda həmin müraciətlərlə bağlı prokurorluq orqanlarına ünvanlanmış sorğulara verilmiş cavablardan məlum olmuşdur ki, cinayət işləri üzrə bəzi hallarda Cinayət-Prosessual Məcəlləsinin 39.1.1 və 39.1.2-ci maddələrinə əsasən cinayət işinin başlanmasının rədd edilməsi, həmçinin Cinayət-Prosessual Məcəlləsinin 53.1-ci maddəsi ilə cinayət təqibi üzrə icraatın dayandırılması barədə qəbul edilmiş qərarlar qanunsuz, əsassız olması səbəbindən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror, yuxarı prokuror, yaxud məhkəmə tərəfindən dəfələrlə ləğv edilməklə əlavə araşdırmanın aparılması üçün qaytarılmış, lakin hər dəfə səthi araşdırma aparılmaqla, müvafiq istintaq tapşırıqları yerinə yetirilmədən, bəzi hallarda isə cinayət işi hərəkətsiz saxlanılmaqla eyniməzmunlu qərarlar qəbul edilmişdir.

Ərizəçi A. (6391-23) Ombudsmana müraciət edərək, Nizami Rayon Polis İdarəsinin İstintaq şöbəsində onun barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 188.4.1-ci maddəsi ilə cinayət işinin başlanıldığını və istintaqın qeyri-

obyektiv aparıldığını bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Nizami Rayon Prokurorluğuna ünvanlanmış müraciətdən sonra cinayət işi rayon prokurorluğunda öyrənilmiş, həmin şəxsin əməlində müvafiq maddə ilə nəzərdə tutulmuş cinayət tərkibinin əlamətləri olmadığından rayon prokuroru tərəfindən cinayət işi üzrə icraata Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 39.1.2-ci maddəsinə əsasən xitam verilmişdir.

Ərizəçi H. (245-23) Ombudsmana müraciət edərək, dələduzluq faktı ilə bağlı şikayəti üzrə Binəqədi Rayon Polis İdarəsinin 6-cı Polis bölməsində başlanmış araşdırmanın qeyri-obyektiv aparıldığını, nəticədə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edildiyini, bununla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğuna şikayətinin araşdırılması üçün Binəqədi Rayon Prokurorluğuna göndərildiyini, lakin nəticəsi barədə ona heç bir məlumat verilmədiyini bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Binəqədi Rayon Prokurorluğuna ünvanlanmış müraciətdən sonra həmin polis bölməsində təhqiqat araşdırması zamanı toplanmış material üzrə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar rayon prokuroru tərəfindən ləğv edilərək əlavə araşdırma aparılması məqsədilə geri qaytarılmışdır.

Ərizəçi Q. (11709-23) Ombudsmana müraciət edərək, dələduzluq yolu ilə pulunun ələ keçirilməsi ilə bağlı şikayətlərinə səthi və natamam baxıldığını bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Xətai Rayon Prokurorluğuna ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, Xətai Rayon Polis İdarəsinin İstintaq şöbəsinin müstəntiqi Araz Məhərrəmov tərəfindən heç bir araşdırma aparılmamış, prokurorluğun göstərişləri icra edilməmiş və material üzrə cinayət işinin başlanmasının rədd olunmasına dair qərar qəbul edilmişdir. Həmin qərar əsassız olduğundan material əlavə araşdırma aparılması üçün istintaq şöbəsinə göndərilsə də, şöbənin müstəntiqi Orxan Hüseynzadə tərəfindən cinayət prosessual qanunvericiliyin tələbləri pozularaq, əlavə araşdırma aparılmadan yenidən əsassız olaraq cinayət işinin başlanmasının rədd edilməsinə dair qərar qəbul edilmişdir. Odur ki, həmin qərar əsassız hesab olunmaqla ləğv edilmiş, material əlavə araşdırma aparılması üçün Xətai Rayon Polis İdarəsinin İstintaq şöbəsinə göndərilmişdir.

Qeyd olunanları nəzərə alaraq, cinayət işinin başlanmasının rədd edilməsi, cinayət işi üzrə icraatın dayandırılması barədə qərarların əsassız və qanunsuz olması səbəbindən prokuror, yuxarı prokuror və ya məhkəmə (şikayət əsasında) tərəfindən azı iki dəfə ləğv edilməsi hallarında, istintaq edilən həmin cinayət işinin təhqiqatçının və ya müstəntiqin icraatından götürülək digər təhqiqatçının və ya müstəntiqin icraatına verilməsinə dair imperativ normanın Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə daxil edilməsi, bu hallarla bağlı təhqiqatçı və ya müstəntiqin məsuliyyəti məsələsinə diqqətin artırılması məqsədəmüvafiq hesab edilir.

Bəzi şikayətlərdə əks etdirilmiş halların yoxlanılması ilə bağlı Ombudsmanın müvafiq sorğuları əsasında həyata keçirilmiş xidməti araşdırmalar zamanı qanun pozuntularına və polisin nüfuzuna xələl gətirən hərəkətlərə yol verildiyi müəyyən edilmiş və müvafiq intizam tənbehi tədbirlərinin tətbiqi təmin olunmuşdur.

Ərizəçi Ə. (9183-23) Ombudsmana müraciət edərək, Abşeron Rayon Polis İdarəsinin Saray Polis bölməsinin əməkdaşları tərəfindən əsassız olaraq polis bölməsinə aparıldığını və digər qanunazidd hərəkətlərə məruz qaldığını bildirmişdir. Şikayətlə bağlı Abşeron Rayon Prokurorluğuna ünvanlanmış müraciətdən sonra aparılmış araşdırma nəticəsində Azərbaycan Respublikası daxili işlər nazirinin müvafiq əmri ilə həmin əməkdaşlar intizam məsuliyyətinə cəlb olunmuşlar.

Qanunsuz saxlama, müvəqqəti saxlama yerindən istintaq təcridxanasına köçürülmə hallarında gecikmələr, saxlanılan şəxsin ailə üzvlərinə saxlama barədə məlumat verilməməsi, vəkillə təminat kimi məsələlərlə bağlı Ombudsmanın 916 Çağrı Mərkəzinə daxil olan müraciətlər operativ qaydada araşdırılmış və təmin edilmişdir.

Vəkil S. (ÇM-8812-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Abşeron Rayon Polis İdarəsində saxlanılan hüquqlarını müdafiə etdiyi Q. ilə görüş hüququnun reallaşdırılmasında problemlər yaradıldığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı aparılan araşdırma nəticəsində vəkilin hüquqlarını müdafiə etdiyi şəxslə görüşü baş tutmuşdur.

Vəkil N. (ÇM-8461-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Binəqədi Rayon Polis İdarəsinin 6-cı Polis bölməsində saxlanılan hüquqlarını müdafiə etdiyi şəxslə görüşməsinə şərait yaradılmadığını bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı aparılan araşdırma nəticəsində görüş təmin edilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, vəkillərin hüquqlarını müdafiə etdikləri saxlanılan şəxslərlə görüş və hər hansı məhdudiyyət qoyulmadan konfidensial ünsiyyət saxlaması üçün təcrübədə yaranan çətinliklərin aradan qaldırılması ilə bağlı tədbirlər görülməlidir.

## 1.2. İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi

***Əmək hüququ.*** Hər bir insanın əmək hüququ öz yaşayışını təmin etmək məqsədilə qazanc əldə etmək, sərf edəcəyi əməyin formasını və ya növünü azad surətdə seçmək, habelə əsassız olaraq işdən azad edilmədən müdafiə imkanlarını özündə birləşdirir. Bu hüququn təmin edilməsi insanların fərdi və ictimai rifahının inkişafına, həmçinin mövcud neqativ halların aradan qaldırılmasına xidmət edir.

Əmək hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə əməkhaqqının ödənilməməsi və ya ödənilməsinin gecikdirilməsi, istehsalat xəsarətinə görə ödəncin, sığorta haqqının, habelə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müvafiq müavinətlərin verilməməsi, son haqq-hesabın düzgün hesablanmaması və ya ödənilməməsi, bununla yanaşı, əmək müqaviləsinin ləğv edilməsinin qarşısının alınmasında, əmək müqaviləsi müddətinin uzadılmasında, işlə təmin olunmaqda köməklik göstərilməsi və bu kimi digər məsələlər öz əksini tapmışdır. Həmin müraciətlər üzrə aidiyyəti dövlət qurumlarına, o cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, həmin Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə sorğular göndərilmiş, aparılmış araşdırmalar nəticəsində müəyyən edilmiş hüquq pozuntularının aradan qaldırılması istiqamətində qanunamüvafiq tədbirlər görülmüşdür.

Müraciətlərin araşdırılması prosesində bir sıra hallarda əmək qanunvericiliyinin tələblərini pozan işəgötürənlər barəsində inzibati tənbeh tədbirlərinin tətbiqi, əmək haqlarının və son haqq-hesabların ödənilməsi, işdən azad olunma barədə əmrdə (əmək kitabçasında) Azərbaycan Respublikası Əmək Məcəlləsinin maddələrinin düzgün tətbiqinə dair məcburi göstərişlərin verilməsi təmin edilmiş, habelə zərurət yarandığı hallarda Azərbaycan Respublikasının Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinə müraciətlər olunmuşdur.

Ərizəçi H. (12988-23) “Milan A” MMC tərəfindən ona son haqq-hesabın ödənilmədiyini və digər qanun pozuntularına yol verildiyini bildirmişdir. Şikayətlə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanlanmış sorğuya verilmiş cavabda qeyd edilmişdir ki, cəmiyyətin rəhbərliyi tərəfindən təqdim edilmiş sənədlərə əsasən, ərizəçi 08.05.2019-cu il tarixli müddətli əmək müqaviləsinə əsasən işə qəbul olunmuş və cəmiyyətin rəhbərliyi tərəfindən 09.02.2022-cı il tarixində Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin “b” bəndinə (əmək müqaviləsinin müddətinin qurtarması) əsasən işdən azad edilmişdir. Lakin araşdırma zamanı əmək müqaviləsinə müddəti bitmədən xitam verildiyi və bununla da əmək qanunvericiliyinin tələblərinin pozulduğu müəyyən edildiyi üçün cəmiyyətin icraçı direktoru inzibati

məsuliyyətə cəlb olunmuş, ərizəçiyə son haqq-hesabın (əmək haqqı və istifadə olunmamış məzuniyyətə görə pul əvəzi) ödənilməsi təmin edilmişdir.

Ərizəçi M. (388-23) “T-Finans LTD” MMC tərəfindən ona əmək haqqının ödənilmədiyini və işdən çıxarılmaqla hədələndiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminə baxış keçirilərkən ərizəçi ilə cəmiyyət arasında 08.09.2022-ci il tarixdə bağlanmış əmək müqaviləsinə 16.09.2022-ci il tarixdə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin “a" bəndinə (tərəflərdən birinin təşəbbüsü) əsasən xitam verildiyi, həmçinin sistemdəki məlumatlara əsasən onunla MMC arasında 24.10.2022-ci il tarixdən əlavə iş yeri üzrə əmək müqaviləsi bildirişinin qeydiyyata alındığı və həmin bildirişin qüvvədə olduğu müəyyən edilmişdir. Bununla yanaşı, MMC tərəfindən əmək müqaviləsinə xitam verilərkən son haqq-hesab və əmək haqqı hesablanaraq ərizəçiyə ödənilmədiyi, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 83-cü maddəsinin 2-ci hissəsinin və 172-ci maddəsinin tələblərinin pozulduğu üçün MMC-nin direktoru barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 192.4-cü maddəsinə əsasən inzibati tənbeh vermə haqqında qərar qəbul edilmiş və ərizəçiyə son haqq-hesabın ödənilməsi ilə bağlı göstəriş xarakterli məktub müəssisəyə göndərilmişdir. Tələb olunan sənədlərin Xidmətə təqdim olunması təmin edilmədiyinə görə, həmin sənədlərin təqdim edilməsi üzrə tədbir görülməsi məqsədilə Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinə müraciət olunmuşdur.

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 2015-ci il 26 oktyabr tarixli Qanunu ilə aidiyyəti qurumun əmək hüquqlarının pozulması halları ilə bağlı şikayətlərin araşdırılması və hüquq pozuntularının aradan qaldırılması imkanları məhdudlaşdırılmışdır. Digər tərəfdən, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli Qanununda sahibkarlıq sahəsində aparılan yoxlama - yoxlayıcı orqanların sahibkarların sahibkarlıq fəaliyyətinə dair məcburi tələbləri yerinə yetirmələrini qiymətləndirməsi üzrə tədbirlərin məcmusu kimi müəyyən edilmişdir. Qeyd olunan hər iki qanunda “araşdırma” və “yoxlama” anlayışları fərqləndirilməmişdir. Bu səbəbdən də, bir çox hallarda əmək hüquqlarının pozulması ilə bağlı şikayətlərin araşdırılması zamanı aidiyyəti dövlət qurumu tərəfindən “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası Qanununun 2.1-ci maddəsinin tələbləri əsas gətirilməklə araşdırmanın aparılmasının imkanlar xaricində olduğu qeyd edilmiş, bununla da işəgötürənin mülahizəsinin öyrənilməsi, müvafiq sənədlərin əldə olunması və vətəndaşların hüquqlarının təmin edilməsi mümkün olmamışdır. Bu halda hüquqları pozulmuş şəxs məhkəməyə müraciət etmək məcburiyyətində qalır ki, bu da hüquq və azadlıqların məhkəməyəqədər müdafiə mexanizmlərinin effektivliyini məhdudlaşdırmaqla yanaşı, məhkəmələrin iş yükünün lüzumsuz artmasına səbəb olur.

Ərizəçi M (11919-23) "Korkmaz Group’’ MMC tərəfindən ona son haqq-hesabın tam ödənilmədiyini bildirmiş, pozulmuş hüquqlarının bərpa edilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanlanmış sorğuya verilmiş cavabda qeyd edilmişdir ki, Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminə baxış keçirilərkən ərizəçi ilə cəmiyyətin rəhbərliyi arasında 25.05.2022-ci il tarixdə bağlanmış əmək müqaviləsinə 01.05.2023-cü il tarixdə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin “a" bəndinə (tərəflərdən birinin təşəbbüsü) əsasən xitam verilməsinə dair bildiriş qeydiyyata alınmışdır. Bildirilmişdir ki, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq sahədə aparılan yoxlamalar 01.01.2024-cü il

tarixinədək dayandırıldığından, məsələnin yerində araşdırılması mümkün olmamışdır. Həmçinin bildirilmişdir ki, ərizəçiyə aid olan sənədlər "Korkmaz Group" MMC-nin rəhbərliyi tərəfindən təqdim edilmədiyindən bununla bağlı tədbir görülməsi məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinə müraciət olunmuşdur.

Göründüyü kimi, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun qeyd olunan tələbi insan hüquqlarının pozulması hallarında hüquq müdafiə vasitələrinə çatım imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Artıq məlum olduğu kimi, Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli, 1084-VIQD nömrəli Qanununa əsasən, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində "2024-cü" sözləri "2025-ci" sözləri ilə əvəz edilmiş, beləliklə, müvafiq müddət uzadılmışdır. Odur ki, həmin Qanunda insan hüquqlarının pozulması halları ilə bağlı araşdırmaların aparılmasının yoxlamalardan fərqləndirilməsi və ya həmin Qanunun 2.1-ci maddəsinin birinci cümləsi ilə müəyyən edilmiş yoxlamalar siyahısına "insan hüquq və azadlıqlarının pozulması halları"nın da əlavə edilməsi zəruridir. Bu, əmək hüquqlarının etibarlı müdafiəsi ilə yanaşı, eyni zamanda biznes və insan hüquqları sahəsində qarşıda duran məqsədlərə nail olmağa da xidmət edəcəkdir.

Əmək qanunvericiliyinin tələblərinə əsasən, əmək müqaviləsinə xitam verilməsi barədə işəgötürənin əmri (sərəncamı, qərarı) onun tərəfindən imzalanmalı və müəssisənin möhürü ilə təsdiqlənməlidir. Bu əmrin surəti, işçinin əmək kitabçası və işəgötürənin son haqq-hesabı (istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əmək haqqı və digər ödəmələr) ilə birlikdə sonuncu iş günü işçiyə verilməlidir. Qeyd olunanlara baxmayaraq, bir sıra hallarda qanunvericiliyin bu tələblərinin işəgötürənlər tərəfindən pozulması faktları müəyyən edilmiş, görülmüş tədbirlər nəticəsində hüquqların bərpası təmin olunmuşdur.

Ərizəçi K. (228-23) Ombudsmana müraciət edərək, İmişli Rayon Mənzil Kommunal Təsərrüfat Birliyindən işdən azad olunduğunu, lakin son haqq-hesabının, o cümlədən istifadə etmədiyi əmək məzuniyyətlərinə görə ödənişlərin verilmədiyini bildirmişdir. Şikayətlə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, ərizəçi ilə 12.08.2020-ci il tarixdə bağlanmış əmək müqaviləsinə 01.11.2022-ci il tarixdə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin "e" bəndi (dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatdıqda) ilə xitam verilmiş, lakin qanunvericiliyin tələbləri pozularaq son haqq-hesabı (istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əmək haqqı və digər ödəmələr) ödənilməmişdir. Bu səbəbdən, birliyin işəgötürəni barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 192.4-cü maddəsinin tələblərinə uyğun olaraq inzibati tənbeh vermə haqqında Qərar qəbul edilmiş, əmək və məzuniyyət haqlarının hesablanmasında və ödənilməsində yol verilmiş nöqsanlar aradan qaldırılaraq son haqq-hesabın ödənilməsi təmin edilmişdir.

Müəssisənin yenidən təşkili zamanı, habelə struktur dəyişikliyi edildikdə işçilərlə olan əmək münasibətləri qanunvericiliklə tam tənzimlənmədiyindən bir sıra işəgötürənlər tərəfindən bu vəziyyətdən sui-istifadə hallarına yol verilir. Belə ki, işəgötürən tərəfindən işçilərə işdən azad olunma barədə ərizə ilə yanaşı yenidən işə qəbul ərizəsinin yazılması tələb olunur. Bundan sonra işəgötürən tərəfindən seçim edilir, həmin işçilərin bir hissəsi yenidən işə qəbul edilir, digərləri isə işdən azad olunma barədə ərizələri əsasında işdən azad edilirlər. Beləliklə, həmin şəxslər ixtisardan kənarda qalır, onlara işdənçıxarma müavinəti ödənilmir, həmçinin işsizlikdən sığorta haqqı almaq hüququndan məhrum edilirlər.

Bir sıra ölkələrin qanunvericiliyində müəssisələr yenidən təşkil edildikdə və ya struktur dəyişikliyi baş verdikdə işçilərin işdən azad olunması və yenidən işə qəbul

edilməsi halları qanun pozuntusu hesab olunur. Belə ki, həmin ölkələrin qanunvericiliyinə əsasən müəssisə yenidən təşkil edildikdə (struktur dəyişikliyi edildikdə) işçilərlə əmək münasibətləri davam etdirilir.

Göstərilənləri nəzərə alaraq, əmək qanunvericiliyində müəssisənin yenidən təşkil edilməsi (struktur dəyişikliyinin edilməsi) halları və işçilərlə olan əmək münasibətlərinin tənzimlənməsi qaydalarının öz əksini tapması zəruridir.

***Sosial təminat hüququ.*** Hər bir şəxs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, habelə ailə başçısını, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

Əhalinin məşğulluğunun təmin olunması, yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması, vətəndaşların ünvanlı dövlət sosial yardımından asılılığının aradan qaldırılması ölkəmizdə sosial siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Sosial sahədə həyata keçirilən əhəmiyyətli layihələr əhalinin, xüsusilə həssas qrupların rifah halının getdikcə yaxşılaşmasına, yoxsulluğun səviyyəsinin azalmasına xidmət etməkdədir.

Sosial təminat hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olan müraciətlər pensiyaların hesablanması, sosial müavinətlərin, o cümlədən ünvanlı dövlət sosial yardımının təyin olunması, özünüməşğulluq proqramına cəlb edilmə, əlilliyin müəyyən olunması kimi məsələlərlə bağlı olmuşdur.

Əmək pensiyası almaq hüququna malik olan şəxslərə pensiyanın təyin edilməsi, habelə ödənişlərin vaxtında aparılması onların sosial rifahında olduqca vacib amildir.

Pensiyanın düzgün hesablanmaması, müvafiq dövrlər üzrə iş stajının nəzərə alınmaması, pensiyaya əlavələrin hesablanmaması halları ilə bağlı zəruri araşdırmalar aparılmışdır.

Ərizəçi T. (110-23) Ombudsmana müraciət edərək, əmək stajının və pensiyasının düzgün hesablanmadığını, ali təhsil müəssisəsində təhsil aldığı müddətin əmək stajına daxil edilmədiyini bildirmiş, məsələnin araşdırılmasını və pensiyasının yenidən hesablanmasını xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, ərizəçinin təqdim etdiyi sənədlərə əsasən pensiyası sığorta stajı (əyani təhsil aldığı müddət nəzərə alınmaqla) və fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əsasında yenidən hesablanaraq müəyyən edilmiş, sonradan işləməyən əmək pensiyaçısı kateqoriyasına keçməsi səbəbindən pensiyanın məbləği yenidən hesablanmışdır.

Ərizəçi K. (11969-23) Ombudsmana müraciət edərək, əmək pensiyasının yenidən hesablanması ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fonduna ünvanlanmış müraciətə verilmiş cavabdan məlum olmuşdur ki, ərizəçinin pensiyası onun əmək fəaliyyəti dövrü, o cümlədən əyani təhsil və hərbi xidmətdə olduğu müddətlər nəzərə alınmaqla sığorta stajı və fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalı, işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdiyi üçün sığorta stajına uyğun olaraq fərdi hesabının sığorta hissəsində toplanmış pensiya kapitalı əsasında yenidən hesablanmışdır.

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin təhlili göstərir ki, bu yardımın təyin edilməsi zamanı vətəndaşlar hələ də bəzi çətinlik və süründürməçilik halları ilə üzləşirlər. Bəzi belə müraciətlər görülmüş tədbirlərdən sonra öz müsbət həllini tapmışdır.

Ərizəçi Ş. (11542-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, aztəminatlı ailə kimi ünvanlı dövlət sosial yardımının verilməsi ilə bağlı müraciətlərinin

nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna ünvanlanmış müraciətdən sonra vətəndaşın “Ünvanlı yardım" (VEMTAS) altsisteminə daxil etdiyi müvafiq müraciəti əsasında onun ailəsinə aylıq 506,08 manat məbləğində sosial yardım təyin edilmişdir.

Ərizəçi M. (666/2-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, ailəsinə təyin edilmiş ünvanlı dövlət sosial yardımının verilməsinin əsassız olaraq dayandırıldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna ünvanlanmış müraciətdən sonra ərizəçinin “Ünvanlı yardım” (VEMTAS) altsisteminə daxil etdiyi müvafiq müraciəti əsasında onun ailəsinə aylıq 765,32 manat məbləğində sosial yardım təyin edilmişdir.

Qeyd edilənlərlə yanaşı, ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət edən bir sıra vətəndaşların şikayətlərində müraciətdən uzun müddət keçməsinə baxmayaraq, onların maddi-məişət şəraitinə baxışın (ailənin maddi-məişət şəraitinin müayinəsinin) keçirilmədiyini bildirmişlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq olunmuş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”na əsasən, müraciətin qəbul olunduğu gün VEMTAS tərəfindən seçilmiş nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun struktur bölmələrinin və ya “DOST” mərkəzlərinin sosial yardım üzrə işçisinə bu Qaydalara uyğun ailənin maddi-məişət şəraitinin müayinəsinin aparılması barədə tapşırıq göndərilir. Həmin işçi müvafiq proqram təminatı ilə təchiz edilmiş xüsusi texniki avadanlıqlar vasitəsilə ailəni təmsil edən şəxsin iştirakı ilə video və foto çəkilişi əsasında ailənin maddi-məişət şəraitinin müayinəsini həyata keçirməli və nəticələrini gücləndirilmiş elektron imza ilə təsdiqləyərək real vaxt rejimində VEMTAS-a ötürməlidir.

Göründüyü kimi, müvafiq Qaydalarda ailənin maddi-məişət şəraitinin müayinəsinin aparılması ilə bağlı müddət müəyyən edilməmişdir ki, bu da süründürməçiliyə və şikayətlərə səbəb olmaqdadır. Odur ki, həmin Qaydalarda müddətin müəyyən edilməsi məqsədəmüvafiqdir.

Tibbi-sosial ekspert komissiyalarının (TSEK) əlillik dərəcəsinin qiymətləndirilməsindən imtina edilməsinə dair qərarlarında (cavablarında) imtinanın səbəbləri əksər hallarda tam dəqiqliklə deyil, ümumi qaydada göstərildiyi üçün müvafiq tibb müəssisələrinin həkim məsləhət komissiyaları tərəfindən çatışmazlıqların aradan qaldırılaraq göndərişin növbəti rəsmiləşdirilməsində ciddi çətinliklər yaranmışdır ki, bu da çoxsaylı şikayətlərə səbəb olmuşdur. Odur ki, əlillik vəziyyətinin qiymətləndirilməsi ilə bağlı müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş göndərişlərə dair qərarların qəbul edilməsinə yanaşma dəyişməli, həkim məsləhət komissiyaları ilə əlaqələndirmə işi təkmilləşməli, əlçatanlıq və operativlik təmin olunmalı, süründürməçilik halları aradan qaldırılmalıdır.

İcra və təhlil prosesində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə “Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”nın bir sıra bəndləri ilə “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanunu arasında uyğunsuzluqlar müəyyən edilmişdir.

Müvafiq qanunda “ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əmək haqqının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdirilir” müddəası yer almışdır. Həmin Qaydanın 6.1.3-cü maddəsinə görə, əmək pensiyalarının yenidən hesablanmasının digər bir halı Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş şəxslərə

münasibətdə əməkhaqqının, dövlət məvacibinin və təminat xərcliyinin artması ilə bağlıdır.

Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 627-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 dekabr tarixli Fərmanı ilə "Əmək pensiyaları haqqında" Qanunun 29.2. maddəsi və eyni zamanda, "2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 iyun tarixli 142 nömrəli Fərmanı da qüvvədən düşmüş hesab edilmişdir.

"Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 10 fevral tarixli Sərəncamında pensiyaların yalnız indeksləşdirilməsi nəzərdə tutulmuş, təminat xərclərinə görə artım isə öz əksini tapmamışdır. Ona görə ki, qeyd edildiyi kimi, təminat xərclərinə görə artımla bağlı müddəa artıq qüvvədən düşmüşdür.

Qaydanın 6.1.5-ci maddəsinə əsasən, əmək pensiyalarının yenidən hesablanmasının digər halları Qanunun 29.2-ci maddəsində göstərilmişdir. Artıq qeyd edildiyi kimi, Qanunun həmin maddəsi də qüvvədə deyildir.

Qaydanın 6.2-ci bəndində göstərilmişdir ki, "Qanunun 20-ci maddəsinə əsasən təyin edilmiş əmək pensiyasının məbləği pensiyaçının fərdi hesabının sığorta hissəsində qeydə alınmış pensiya kapitalına əsasən yenidən hesablanarkən əmək pensiyasına qulluq stajına görə əlavənin məbləği sığorta hissəsinin artan məbləği qədər, Qanunun 37.3.4-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş hallarda həmin əlavənin ödənilən hissəsi isə əmək pensiyasının sığorta hissəsinin artan məbləğinin 50 faizi qədər azalır." "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda həmin müddəa nəzərdə tutulmamışdır.

Qeyd edilənləri nəzərə alaraq, Ombudsman Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 6.1.1, 6.1.3, 6.1.5, 6.2-ci bəndlərinin müvafiq dəyişikliklər edilməklə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 20, 29.1 və 37.3.1-ci maddələrinin tələblərinə uyğunlaşdırılması təklifi ilə Nazirlər Kabinetinə müraciət etmişdir.

Ombudsmanın müraciətindən sonra həmin Qərara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 1 avqust tarixli, 257 nömrəli Qərarı ilə müvafiq dəyişikliklər edilmiş, 6.1.1-ci yarımbəndə "sığorta hissəsi" sözlərindən sonra ", Qanunun 20-ci maddəsinə əsasən qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçılarına münasibətdə həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləği" sözləri əlavə edilmiş, 6.1.3 və 6.1.5-ci yarımbəndlər, habelə 6.2-ci bənd ləğv edilmişdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli qərarı ilə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası" təsdiq edilmişdir.

Həmin Qaydanın 2022-ci il iyulun 1-dək qüvvədə olan redaksiyasında göstərilmişdir ki, "vəsaitin 60 (altmış) faizi Komitənin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə edilir". Bu tələbdən irəli gələrək, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən (gömrük sisteminin büdcədənkənar inkişaf fonduna daxil olan) vəsaitin 60 (altmış) faizi Komitənin aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə edilmişdir. Odur ki, həmin xüsusi rütbəsi olan əməkdaşlar və mülki işçilər əmək pensiyasına çıxarkən qeyd olunan əlavələrin də nəzərə alınması ödənilən pensiyanın məbləğinin artırılmasına imkan vermişdir. Başqa sözlə, həmin şəxslərin əmək pensiyalarına qulluq stajına görə əlavə hesablanarkən əməkhaqqına, dövlət məvacibinə

və vəzifə maaşına büdcədənkənar vəsaitlər hesabına verilən ödənişlər nəzərə alınırdı. Belə bir vəziyyət 2019-cu il 1 yanvar tarixinədək mövcud olmuşdur.

2019-cu il 1 yanvar tarixindən qüvvəyə minmiş "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli, 1362-VQD nömrəli Qanunu ilə həmin Qanuna əlavə edilmiş 20.30-cu maddədə göstərilmişdir ki, "bu maddədə nəzərdə tutulan şəxslərin əmək pensiyalarına qulluq stajına görə əlavə hesablanarkən əməkhaqqına, dövlət məvacibinə və vəzifə maaşına büdcədənkənar vəsaitlər hesabına verilən ödənişlər nəzərə alınmır."

Göründüyü kimi, müvafiq dəyişiklikliyə əsasən, qeyd edilən kateqoriyadan olan şəxslərin əmək pensiyalarına qulluq stajına görə əlavə hesablanarkən əməkhaqqına, dövlət məvacibinə və vəzifə maaşına büdcədənkənar vəsaitlər hesabına verilən ödənişlər nəzərə alınmır. Bu hal 2019-cu il 1 yanvar tarixindən pensiyaya çıxan şəxslərə münasibətdə, yəni əvvəlki illərdə pensiyaya çıxan şəxslərlə müqayisədə əmək pensiyalarının məbləğinin kəskin azalmasına səbəb olmuşdur.

2022-ci il 1 iyul tarixindən qüvvəyə minmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2022-ci il 21 aprel tarixli, 170 nömrəli Qərarına əsasən, həmin Qərarın 1.3-cü bəndinin yeni redaksiyasına görə, "vəsaitin 60 (altmış) faizi dövlət büdcəsinə köçürülür və həmin vəsait tam həcmdə Komitənin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə edilir".

Həmin Qərar 2022-ci il 1 iyul tarixindən etibarən pensiyaya çıxan müvafiq kateqoriyadan olan şəxslərə münasibətdə qulluq stajına görə əlavələrin hesablanması əmək pensiyalarının məbləğinin artmasına səbəb olmuşdur. Başqa sözlə, 2022-ci il 1 iyul tarixindən etibarən pensiyaya çıxan müvafiq kateqoriyadan olan şəxslərin əmək pensiyasının məbləği 2019-cu il 1 yanvar tarixindən 2022-ci il 1 iyul tarixinə kimi olan dövrdə pensiyaya çıxmış şəxslərə ödənilən əmək pensiyasının məbləği ilə müqayisədə artmışdır. Belə ki, vəsaitin 60 (altmış) faizi dövlət büdcəsinə köçürülür və həmin vəsait tam həcmdə Komitənin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə edilir.

Beləliklə, eyni kateqoriyaya aid olan, lakin 2019-cu il 1 yanvar tarixinə kimi və 2022-ci il 1 iyul tarixindən sonra pensiyaya çıxan şəxslərin əmək pensiyalarının hesablanması zamanı əmək pensiyalarına qulluq stajına görə əlavə hesablanarkən əməkhaqqına, dövlət məvacibinə və vəzifə maaşına büdcədənkənar vəsaitlər hesabına verilən ödənişlər nəzərə alınmış, 2019-cu il 1 yanvar tarixindən 2022-ci il 1 iyul tarixinə kimi pensiyaya çıxan şəxslərin əmək pensiyalarının hesablanması zamanı isə əmək pensiyalarına qulluq stajına görə əlavə hesablanarkən əməkhaqqına, dövlət məvacibinə və vəzifə maaşına büdcədənkənar vəsaitlər hesabına verilən ödənişlər nəzərə alınmamışdır.

Eyni kateqoriyaya aid olan, lakin müxtəlif vaxtlarda pensiyaya çıxan şəxslərin əmək pensiyalarının hesablanmasındakı bu fərqli yanaşma, habelə birinə münasibətdə digərinə qanuni üstünlüklərin müəyyən edilməsi Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş bərabərlik və sosial təminat hüquqlarının pozulmasına səbəb olur.

Qeyd edilənləri, habelə vətəndaşların çoxsaylı müraciətlərini nəzərə alaraq, Ombudsman Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müraciət edərək, Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nın 1.3-cü bəndinin 2019-cu il 1 yanvar tarixindən 2022-ci il 1 iyul tarixinə kimi olan dövrdə pensiyaya çıxmış şəxslərə də şamil edilməsini təklif etmişdir.

Şəhid ailəsinin üzvü və qazi atası M. Ombudsmana müraciət edərək, övladı M.M-in Vətən müharibəsi zamanı Laçın rayonu ərazisində gedən döyüşlərdə şəhid olduğunu, ölümündən sonra "Vətən uğrunda" və digər medallarla təltif edildiyini, eyni zamanda ikinci övladı M.N-nin Vətən müharibəsi iştirakçısı olmaqla bir sıra medallarla təltif edildiyini, övladlarının Vətən qarşısında xidmətlərini nəzərə alaraq, mənzil şəraitinin yaxşılaşdırılması ilə əlaqədar Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinə müraciətləri üzrə qanunamüvafiq tədbirlərin görülmədiyini bildirmişdir.

Şikayətlə əlaqədar aparılmış ilkin araşdırma zamanı Sumqayıt Şəhər İcra Hakimiyyətindən verilmiş məlumatda bildirilmişdir ki, Vətən müharibəsi zamanı şəhid olmuş M.M-in və Vətən müharibəsi iştirakçısı olan M.N-nin Vətən qarşısında xidmətləri nəzərə alınaraq, ərizəçi M-in ailəsi şəhid və qazi ailəsi olaraq mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq sərəncamla 21.06.2021-ci il tarixdən yaşayış yeri üzrə mənzil uçotuna alınmışdır.

Araşdırma zamanı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmiş sorğuya verilmiş cavabda Azərbaycan SSR Nazirlər Sovetinin 1983-cü il 14 oktyabr tarixli, 418 nömrəli Qərarının 26-cı bəndinə istinad edilməklə imtina cavabı verilmiş, habelə qüvvəyə minməyən və layihə mərhələsində olan "Dövlət mənzil fondunun yaşayış sahələri ilə təmin edilmə məqsədləri üçün uçot norması"na istinad edilmişdir. Qeyd olunan istinadlara müvafiq əsaslandırma aparılmaqla göndərilmiş təkrar sorğulara eyni məzmunlu cavablar verilməklə qaldırılan məsələlərə aydınlıq gətirilməmiş, şəhid ailəsinin üzvü və qazi atası M-in müraciətinin təmin edilməsi üçün hüquqi əsaslar olduğu halda müraciət təmin olunmamış, verilmiş imtina qanunvericiliyin tələblərinə uyğun olaraq əsaslandırılmamışdır.

Cavabda istinad edilən Azərbaycan SSR Nazirlər Sovetinin 1983-cü il 14 oktyabr tarixli, 418 nömrəli Qərarının 26-cı bəndində göstərilən 8 kvadratmetr minimum hədd müstəqil norma kimi deyil, qüvvədən düşmüş Azərbaycan SSR Mənzil Məcəlləsinin müəyyən etdiyi mənzil sahəsi norması hədlərində müəyyən edilmişdir. Bu baxımdan həmin əlaqəli normalar ayrı-ayrılıqda tətbiq edilə bilməz. Digər tərəfdən qüvvədə olan qanunvericiliklə dövlət mənzil fondunun yaşayış sahələri ilə təmin edilmə məqsədləri üçün yaşayış sahəsinin yeni uçot norması da müəyyən olunmamışdır. Buna baxmayaraq, verilmiş cavabda həmin Qərarın 26-cı bəndi mülahizə əsasında tətbiq edilməklə hazırda ailə üzvlərinin adambaşına 8 kvadratmetrdən az yaşayış sahəsi olan vətəndaşların mənzil və ya fərdi evlə təmin edilə biləcəyi qeyd olunmuş, fərqli yanaşmaların tətbiq edilməsinin mövcud mexanizmə əsaslı şəkildə öz mənfi təsirlərini göstərə biləcəyi bildirilmişdir.

Məlum olduğu kimi, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 65.3-cü maddəsinə əsasən, hüquqi tənzimləmədə boşluqların mövcudluğu hüququn tətbiqi zamanı boşluğun dövlət orqanının mülahizəsinə görə doldurulmasına imkan verməməlidir. Həmin Konstitusiya Qanununun 67.4-cü maddəsinə əsasən normativ hüquqi aktın qəbul edilməsi müddətlərinin müəyyənləşdirilməməsinə, qəbul edilməsi nəzərdə tutulan normativ hüquqi aktın qəbul edilməsi əvəzinə məcburi davranış qaydalarının sərbəst inzibati mülahizə əsasında fərdi hüquq tətbiq etmə aktları ilə əvəzlənməsinə yol verilmir.

Digər tərəfdən, Azərbaycan Respublikası Prezidentinin 25 yanvar 2021-ci il tarixli, 2449 nömrəli Sərəncamının 1-ci bəndinə əsasən bu Sərəncamın tələblərinə müvafiq olaraq yerli icra hakimiyyətləri tərəfindən yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəxslər Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzil və ya fərdi evlə mərhələli şəkildə təmin edilməlidir. Yəni, Nazirliyinin Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının tələblərinə zidd olan mülahizəsi Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən yaşayış sahəsinə ehtiyacı olan qismində artıq uçota alınmış şəhid ailəsinin üzvü və qazi atası M-

in ailəsinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasından imtina edilməsi üçün əsas ola bilməz. Göstərilənlərə baxmayaraq, vətəndaş M.-in hüquqları təmin edilməmişdir.

***Sağlamlığın qorunması hüququ.*** Əhalinin sağlamlığının qorunması sahəsində əsas məqsəd hər bir şəxsin bu sahədə hüquqlarının təmin olunması, sağlamlığın qorunması sahəsində profilaktik tədbirlərin həyata keçirilməsi və tibbi-sosial yardımın hamı üçün əlçatan olmasından ibarətdir.

Sağlamlığın qorunması hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə güzəştli dərman preparatları ilə təminatda mövcud problemlər, müalicə müəssisəsinə göndərişin verilməsindən imtina olunması, əlilliyin qiymətləndirilməsi ilə əlaqədar göndərişin rəsmiləşdirilməsi üçün tibb müəssisəsinə müraciətin nəticəsiz qalması və ya göndərişin müəyyən edilmiş tələblərə uyğun rəsmiləşdirilməməsi, tibbi reabilitasiyanın, habelə icbari tibbi sığortanın imkanlarından yetərincə istifadə etmək üçün zəruri şəraitin yaradılmaması, həmçinin dövlət hesabına müayinə və müalicənin təşkilində, ixtisaslaşmış tibbi xidmətin göstərilməsində köməklik olunması və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Vətəndaşların, xüsusilə aztəminatlı şəxslərin dövlət hesabına müayinə və müalicə olunmasında köməklik göstərilməsi ilə bağlı müraciətləri üzrə Ombudsman tərəfindən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə (TƏBİB), habelə onların tabeliyində olan tibb müəssisələrinə, eyni zamanda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə ünvanlanmış müraciətlərdən sonra həmin şəxslərlə bağlı müvafiq tapşırıqlar üzrə zəruri tədbirlər görülmüşdür.

Ərizəçi N. (5752-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, övladının dövlət hesabına müayinə və müalicə olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra Bakı Baş Səhiyyə Mərkəzinə müvafiq göstərişlər verilmişdir.

Ərizəçi Ə. (2495-23) Ombudsmana müraciət edərək, icbari sığorta üzrə əməliyyat olunması üçün müvafiq poliklinika və Sabunçu Tibb Mərkəzi tərəfindən göndərişin verilməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra Respublika Perinatal Mərkəzində icbari tibbi sığorta hesabına ərizəçinin üzərində cərrahi əməliyyat aparılmışdır.

Sağlamlığında problemlər yaranan şəxslərin diaqnostik müayinəsinin düzgün təşkili, zəruri dərman preparatları ilə təmin olunması, onların sonrakı müalicəsində və sağlamlığının bərpasında böyük əhəmiyyət daşıyır.

Ərizəçi Q. (5694-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, həyat yoldaşının dopler müayinəsindən keçməsi üçün Füzuli Rayon Mərkəzi Xəstəxanası tərəfindən göndərişin verilməsində köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra xəstə Ağdam Rayon Mərkəzi Xəstəxanasında icbari tibbi sığorta hesabına dopler müayinəsindən keçirilmişdir.

Ərizəçi F. (3907-23) Ombudsmana müraciət edərək, onkoloji xəstəlikdən əziyyət çəkdiyini, müalicə olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçi Milli Onkologiya Mərkəzində həkim-mütəxəssislər tərəfindən müayinə edilmiş, müalicəsinin davamı olaraq monokimyaterapiya təyin olunmuş və edilmişdir.

Ərizəçi N. (4988-23) Ombudsmana müraciət edərək, övladının ürək xəstəliyindən əziyyət çəkdiyini, dövlət hesabına təcili əməliyyat olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra Mərkəzi Klinikada ərizəçinin övladı üzərində “Mədəciklərarası çəpər defektinin ləğvi” cərrahi əməliyyatı aparılmışdır.

Ərizəçi P. (1061-23) Ombudsmana müraciət edərək, özünün və həyat yoldaşının xəstəliyi ilə əlaqədar dərman preparatları ilə təmin olunmalarında və müalicələrinin təşkilində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı TƏBİB-ə ünvanlanmış

müraciətdən sonra ərizəçi və onun həyat yoldaşı ərazi üzrə tibb müəssisəsi tərəfindən dərman preparatları ilə təmin olunmuş, eyni zamanda Kliniki Tibbi Mərkəzdə ixtisaslaşmış müalicə ilə təmin olunmuşlar.

Ərizəçi G. (8620-23) Ombudsmana müraciət edərək, övladının dövlət hesabına dərman preparatları ilə təmin olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra xəstə dərman vasitələri ilə təmin edilmişdir.

Ölkədə vahid tibbi elektron məlumat bazasının yaradılmasına böyük ehtiyac vardır. Bir sıra tibb müəssisələrində elektronlaşma ilə bağlı müvafiq işlərin görülməsinə baxmayaraq, "Elektron səhiyyə" ilə bağlı ölkədə vahid platformanın yaradılması tibbi sığortanın tətbiqi sahəsində operativliyin təmin edilməsində və vətəndaşların tibbi xidmətlərə əlçatanlığı sahəsində səmərəliliyin artırılmasında olduqca əhəmiyyətlidir.

Digər tərəfdən, vətəndaşların sağlamlığının qorunması hüququnun, sözün əsl mənasında, effektiv təmin edilməsi məqsədilə bütün tibb xidmətlərinin və xəstəliklərin icbari tibbi sığorta hesabına həyata keçirilməsi məqsədəmüvafiqdir.

Əlilliyin təyin edilməsi üçün rəsmiləşdirilmiş göndərişin natamam doldurulması problemi ilə bağlı daxil olan çoxsaylı şikayətlərdə müvafiq səhiyyə müəssisələri tərəfindən vətəndaşların sonuncu diaqnozlarının, ağırlaşmaları təsdiq edən laborator-instrumental müayinələrin nəticələrinə dair məlumatların, xəstəlik əlamətlərinin düzgün daxil edilməməsi və TSEK-in elektron reyestrinə göndərilən zaman xəstənin vəziyyəti dəqiqləşdirilmədən zəruri qeydlərin ətraflı aparılmaması kimi hallar göstərilmişdir. Bu problemin həlli sosial təminatla bağlı məsələlərin həllində, habelə süründürməçiliyin qarşısının alınmasında əhəmiyyətlidir.

Uşaqların sağlam fiziki və psixi inkişafına, onların sağlamlıq durumuna tibbi-profilaktik nəzarətin gücləndirilməsi, eyni zamanda 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin müntəzəm olaraq müvafiq tibbi-reabilitasiya xidmətlərindən istifadəsinin daha da asanlaşdırılması vacibdir.

Vətəndaşların ölkə xaricində dövlət hesabına müalicəyə göndərilməsi məsələsi problem olaraq qalmaqdadır. Bu sahədə müvafiq komissiyanın fəaliyyət göstərməsinə baxmayaraq, bir sıra məsələlər hələ də öz həllini tapmamışdır.

Nəticə etibarilə qeyd edilməlidir ki, vətəndaşların sağlamlığına təhdid yaradan risklərin və onun doğura biləcəyi mənfi nəticələrin qarşısının alınması səhiyyə sahəsində maarifləndirmə işinin gücləndirilməsindən və sağlam həyat tərzinin təbliğindən əhəmiyyətli dərəcədə asılıdır.

***Təhsil hüququ.*** Təhsil dövlətin siyasi-iqtisadi, sosial və mədəni inkişafının əsas elementlərindən biridir.

Ölkəmizdə təhsil sistemi Azərbaycan Respublikasının Konstitusiyasına, bu sahədə qəbul edilmiş müvafiq normativ-hüquqi aktlara, habelə respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən tənzimlənir.

Təhsil standartlarının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər, respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən təhsil müəssisələrinin infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması təhsil sisteminin inkişafında əhəmiyyətli rol oynamaqdadır.

Təhsil hüququnun təmin edilməsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlər üzrə aparılmış araşdırmalar nəticəsində bir sıra nöqsanlar aşkar edilmiş, problemlərin həlli istiqamətində zəruri addımlar atılmışdır.

Bakı şəhərində, habelə respublikanın digər şəhər və rayonlarında yeni məktəb binalarının və məktəbəqədər təhsil müəssisələrinin inşası, mövcud binaların əsaslı təmir olunması, müasir texniki avadanlıqlarla təmin edilməsi prosesi davam etdirilsə də, bir sıra məktəb binalarının hələ də təmirsiz və şəraitsiz olması, həmçinin qəzalı vəziyyətdə qalması təhsilin keyfiyyətinə mənfi təsir göstərməkdədir.

Təhsilin maddi-texniki təchizatı, müasir təhsil texnologiyalarından istifadə, elmi prinsiplərə əsaslanan təhsil idarəetməsi önəmli olduğu qədər, təhsil prosesində müəllim-şagird münasibətləri də diqqətdə saxlanmalıdır.

Ərizəçi A. (2785-23) Ombudsmana müraciət edərək, Bakı şəhərindəki 1 saylı tam orta məktəbin müəllimi tərəfindən övladının kobud rəftara məruz qaldığını, uşağa lazımi diqqət göstərilmədiyini, sinifdə ona qarşı ayrı-seçkiliyə yol verildiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, müəllimlə müvafiq söhbət aparılaraq mövcud anlaşılmazlıq aradan qaldırılmış, məktəb rəhbərliyinə təlim-tərbiyə işinin təşkilinə dair göstəriş və tövsiyələr verilmişdir.

Ərizəçi V. (5835-23) Ombudsmana müraciət edərək, nəvəsinin 7-ci sinifdə təhsil aldığı Cəbrayıl rayonunun müvafiq kəndindəki orta məktəbin tarix müəllimi tərəfindən böhtan və təhqirlərə məruz qaldığını, hədələndiyini, bununla bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, pedaqoji şuranın növbədənkənar iclasında məsələ müzakirə edilmiş, şagirdə qarşı etik davranış qaydalarını pozduğuna görə müəllimə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 186-cı maddəsinin 2-ci hissəsinin “b" bəndinə əsasən sonuncu xəbərdarlıqla şiddətli töhmət verilmişdir.

Əvəzçilik qaydasında və müddətli əmək müqaviləsi ilə ixtisaslı müəllimlərin cəlb olunmasına baxmayaraq, ölkənin bəzi ucqar kənd və qəsəbələrində yerləşən orta ümumtəhsil məktəblərində kadr çatışmazlığı müşahidə edilməkdədir. Belə ki, ixtisaslı müəllimlər öz fənləri ilə yanaşı, ehtiyac olduğu təqdirdə digər fənləri də tədris edirlər ki, bu da təhsilin keyfiyyətinın aşağı düşməsinə, eyni zamanda şagird və valideynlərin ciddi narazılığına səbəb olur.

Ərizəçi C. (2360-23) Ombudsmana müraciət edərək, Lerik rayonunun Orand kənd tam orta məktəbində dərslərin ixtisaslı kadrlar tərəfindən tədris olunmadığını, bu səbəbdən övladının həmin dərslərin mənimsənilməsində çətinlik çəkdiyini bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, ingilis dili fənni üzrə dərs saatlarının tədris edilməsi üçün ixtisaslı müəllim qonşu məktəbdən dəvət edilmiş və onunla ikinci iş yeri kimi müddətli əmək müqaviləsi bağlanılmışdır. Digər fənlər üzrə dərs saatlarına yaxın məktəblərdən ixtisaslı müəllim dəvət edilməsi mümkün olmadığından “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartlarının” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli qərarının 6.2-ci bəndinə əsasən, zəruri ehtiyac yarandığından həmin fənlərin məzmun və mahiyyət etibarilə yaxın fənlərin müvafiq ixtisas müəllimləri tərəfindən tədrisinə razılıq verilmişdir.

Göründüyü kimi, nazirliyin verdiyi cavabda çıxış yolu kimi həmin normativ-hüquqi akta istinad edilsə də, vətəndaşın əsas şikayəti müvafiq fənnin digər ixtisaslı kadr tərəfindən tədris edilməməsi ilə bağlı olmuşdur. Bir sözlə, istinad edilən qanunvericilik aktının müvafiq müddəası qeyd olunan problemin həlli yolu kimi çıxış edə bilməz. Belə halların davamlı olmasını və təhsil hüququna neqativ təsirini nəzərə alaraq, kənd rayonlarında, xüsusilə ucqar yaşayış məntəqələrində yerləşən ümumi təhsil müəssisələrinin ixtisaslı kadrlarla təmin edilməsinə, bu məqsədlə kadrların işə cəlb olunmasının stimullaşdırılması məsələlərinə diqqət artırılmalıdır.

Təhsil müəssisələrinin şagirdlərin yaşadığı ərazidən uzaq olması səbəbindən bir sıra çətinliklərin yaranması, məktəbə gediş-gəliş zamanı onların təhlükəsizliyinin yetərincə təmin olunmaması, habelə digər səbəblərdən valideynlərin istəyinə uyğun olaraq şagirdlərin təhsil aldığı müəssisənin dəyişdirilməsi elektron sistemlə növbəlilik əsasında həyata keçirilir. Bununla bağlı Ombudsmanın ünvanına daxil olmuş şikayətlər araşdırılmış, məsələnin həllinə nail olunmuşdur.

Ərizəçi A. (4337-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, yaşayış yerinin dəyişməsi ilə əlaqədar 76 saylı tam orta məktəbin 10-cu sinfində təhsil alan övladlarının təhsillərini 292 saylı orta məktəbdə davam etdirmələri ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin "Şagird yerdəyişməsi" alt sistemi vasitəsilə şagirdlər üçün sorğu yaradılmış və ərizəçinin övladları Bakı şəhərindəki 121 saylı tam orta məktəbin müvafiq sinfinə qəbul olunmuşlar.

Uşaqların əqli və fiziki baxımdan sağlam böyüməsi üçün onların erkən inkişaf dövründə qayğı ilə əhatələnməsi zəruridir. Həmin dövrdə uşaqlara göstərilən sosial xidmətlərin səmərəliliyinin artırılması, onların fiziki və idraki inkişafının düzgün təşkili uşağın gələcək inkişafında önəmli rol oynayır. Odur ki, məktəbəqədər təhsil müəssisələrində uşaqlarla işləyən müəllim və digər mütəxəssislərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə onların davamlı olaraq uşaqlara fərdi yanaşmanı, davranış qaydalarını, təlim-tərbiyənin düzgün təşkilini, erkən dövrdə təhsilin uşaqların anlaya biləcək tərzdə təqdim olunmasını özündə ehtiva edən təlimlərə cəlb edilməsi məqsədəmüvafiqdir.

Məlum olduğu kimi məktəbəqədər təhsil müəssisələri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyinə qaytarıldıqdan sonra məktəbəqədər yaşda olan uşaqların həmin müəssisələrə yerləşdirilməsi elektron formada aparılır. Övladlarını belə müəssisələrə yerləşdirməkdə müəyyən problemlərlə üzləşən valideynlər tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər üzrə də tədbirlər görülmüşdür.

Ərizəçi M. (12989-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, övladlarının Nizami rayonunda müvafiq körpələr evi-uşaq bağçasında ayrı-ayrı qruplarda təhsil aldıqlarını, onların eyni qrupda olması məqsədilə həmin bağçanın rəhbərliyinə müraciətinin nəticəsiz qaldığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin hər iki övladının eyni qrupa yerləşdirilməsi təmin edilmişdir.

Hər hansı səbəbdən təhsildən yayınan uşaqlara münasibətdə vaxtında tərbiyəvi tədbirlərin tətbiq edilməməsi, həmçinin istər valideynlər, istərsə də təhsil müəssisələri tərəfindən uşaqların nəzarətsiz qalması bəzən xoşagəlməz nəticələrə səbəb olur.

Ərizəçi N. (11359-23) Ombudsmana müraciət edərək, Şamaxı rayonundakı Quşçu kənd sakininin öz nəvələrini təhsildən yayındırdığını, qız olduqları üçün məktəbə göndərilmədiklərini bildirmiş, məsələnin araşdırılmasını və uşaqların hüquqlarının müdafiəsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə və Şamaxı Rayon İcra Hakimiyyətinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, araşdırma zamanı vətəndaşın nəvəsinin fərdi təhsilə cəlb olunmasına baxmayaraq, iki tədris ili üzrə uzun müddət dərsə gəlmədiyi üçün məktəbin şagird kontingentindən xaric olunduğu, digər nəvəsinin isə həmin məktəbin 2-ci fərdi təhsil sinfində oxuduğu məlum olmuşdur. Dağlıq Şirvan Regional Təhsil İdarəsində keçirilmiş görüş zamanı azyaşlının icbari təhsildən yayınmasının qanuna zidd olduğu atasına bildirilsə də, o yenə də qızını məktəbə göndərməkdən qəti imtina edərək, bunun səbəbini öz izahatında qeyd etmişdir. Görüşdə iştirak edən məktəb direktoru şagirdin dərsə davam etməsi üçün dəfələrlə valideynlə şəxsən görüşdüyünü, izahat işi apardığını qeyd etmiş, lakin hər dəfə valideyn tərəfindən ciddi müqavimətə rast gəldiyini bildirmişdir. Bununla belə, şagirdin valideyn tərəfindən təhsildən yayındırılması halları barədə həmin vaxt məktəbin direktoru qanunvericiliyə uyğun olaraq müvafiq dövlət qurumlarına müraciət etməmişdir.

Göründüyü kimi, istər Dağlıq Şirvan Regional Təhsil İdarəsi, istərsə də məktəb direktoru tərəfindən həmin qızın məktəbə göndərilməsindən qəti imtina edilməsi

səbəbləri araşdırılmamış və ya həmin səbəblərə aydınlıq gətirilməmiş, eyni zamanda bu səbəblərin aradan qaldırılması üçün zəruri tədbirlər görülməmişdir.

Digər tərəfdən, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-ci maddəsinə əsasən, təhsil haqqında qanunvericiliyin pozulmasına, yəni təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından şəxsin məhrum edilməsinə görə fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər üç yüz manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.

Qeyd edilən halların aradan qaldırılması üçün aidiyyəti qurumlar tərəfindən monitorinqlər keçirilməklə təhsildən yayınan şagirdlərin müəyyən edilməsi və zəruri tərbiyəvi-profilaktik işin aparılması məqsədəmüvafiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsasən, hər bir vətəndaşın təhsil almaq hüququ vardır və dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.

Tədris prosesində istifadə edilən dərsliklər şagirdlərə dövlət hesabına verilir. Bununla belə, tədris proqramının tam qavranılması üçün zəruri köməkçi vəsaitlərin, habelə iş dəftərlərinin şəxsi vəsait hesabına alınması narazılıqlara səbəb olur. Bu baxımdan, şagirdlərə dərsliklərin digər çalışma və köməkçi vəsaitlərlə birlikdə məhz dövlət hesabına verilməsi məqsədəmüvafiqdir.

İnsan həyatı və ya sağlamlığı üçün xüsusi əhəmiyyətini nəzərə alaraq, məktəbəqədər, orta və ali təhsil müəssisələrində qidanın təhlükəsizliyinə və rasionuna diqqətin artırılması, yetkinlik yaşına çatmayanlar üçün qəbul edilməsi qadağan olunan və ya məqsədəmüvafiq hesab edilməyən qida məhsullarının satışına nəzarətin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə birgə müntəzəm planlı və plandankənar monitorinqlərin keçirilməsinə də böyük ehtiyac vardır.

Ümumiyyətlə, təhsil sisteminin qarşısında dayanan vəzifələri düzgün müəyyənləşdirmək, təhsil sahəsində zamanın tələblərinə uyğun islahat apara bilmək üçün ilk öncə, ümumilikdə təhsillə bağlı nəzəri və praktiki biliklərin sistemləşdirilməsi, təhsilin təşkilati, sosial və iqtisadi müstəvilərdə nəzərdən keçirilməsi olduqca vacibdir. Təhsilalanları artıq informasiya ilə yükləməmək, onlara düşüncə müstəqilliyi vermək və hərtərəfli inkişafını təmin etmək tələblərini ön plana çəkmək zəruridir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Konstitusiyasının 51-ci maddəsində təsbit edilmişdir ki, hər kəsin yaradıcılıq azadlığı vardır və dövlət ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir.

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində göstərilmişdir ki, dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Həmin Qanunun 22.8-ci maddəsinə əsasən, doktorantura ali təhsilin ən yüksək səviyyəsi olmaqla, elmi və elmi-pedaqoji kadrların hazırlanmasını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir. Bu Qanunun 22.9-cu maddəsində isə göstərilmişdir ki, doktorantura təhsili ali təhsil müəssisələrində, elmi müəssisə və təşkilatlarda yaradılan doktoranturalarda (hərbi təhsil müəssisələrində adyunkturalarda) həyata keçirilir və müvafiq elmi dərəcənin verilməsi ilə başa çatır. Elmi dərəcələr ali təhsil müəssisələrində, elmi müəssisə və təşkilatlarda fəaliyyət göstərən dissertasiya şuralarının vəsatəti əsasında “Elm haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilir.

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə müvafiq olaraq, dövlət qulluqçusu elmi və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi ilə pedaqoji fəaliyyətlə məşğul olmaq hüququna malikdir.

Ərizəçi B. (6523-23) Ombudsmana müraciət edərək, 2008-ci ildə elmi-tədqiqat işinə başladığını, beş il bundan əvvəl dissertasiya işini müdafiə etdiyini, həmin ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) Ekspert Şurasının iclasının nəticəsinə əsasən işə müsbət rəy verildiyini, on ildən artıqdır dövlət orqanında çalışdığını, hazırda həmin qurumun tədris mərkəzində müəllim vəzifəsində işlədiyini, elmi işin müdafiəsindən və ekspert şurası tərəfindən müsbət rəyin verilməsindən beş ildən artıq müddət keçməsinə baxmayaraq, dövlət qurumunda çalışdığı əsas gətirilərək müvafiq diplomun verilməsindən imtina olunduğunu, bununla bağlı müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, hüquqlarının müdafiəsində köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətlə bağlı AAK-a ünvanlanan sorğuya verilmiş cavabda AAK Rəyasət Heyətinin 2000-ci il 19 may tarixli qərarına müvafiq olaraq, dövlət qulluğu və dövlət qulluğunun xüsusi növlərində çalışan şəxslərə elmi dərəcələr verilməsinin məqsədəuyğun sayılmadığı bildirilmişdir.

Müvafiq qərarın Azərbaycan Respublikası Konstitusiyasının 51-ci maddəsinə və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə uyğun olmadığı nəzərə alınaraq, həmin şikayətlə bağlı AAK-a ünvanlanmış təkrar sorğuya verilmiş cavabda bildirilmişdir ki, AAK-ın Rəyasət Heyətinin müvafiq qərarı Azərbaycan Respublikası Konstitusiyasının 51-ci bəndində təsbit edilmiş, hər kəsin yaradıcılıq azadlığının olması və dövlətin ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verməsinə zidd deyildir, həmçinin AAK-ın Rəyasət Heyətinin həmin qərarı “Dövlət qulluğu haqqında” Qanunun 19.0.5-ci yarımbəndinə əsasən elmi və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi ilə pedaqoji fəaliyyətlə məşğul olmaq kimi dövlət qulluqçusunun hüququnun həyata keçirilməsinə mane olmur, eyni zamanda AAK-ın Rəyasət Heyətinin müvafiq qərarı dövlət qulluğu və dövlət qulluğunun xüsusi növlərində çalışan şəxslərə elmi dərəcələr verilməsini məqsədəuyğun hesab etmir.

Qeyd edilənləri nəzərə alaraq, Ombudsman Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş, habelə “Dövlət qulluğu haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş təhsil almaq hüququnun və yaradıcılıq azadlığının, həmçinin elmi və yaradıcılıq fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin dövlət qulluğu və dövlət qulluğunun xüsusi növlərində çalışan şəxslərə elmi dərəcələr verilməsinin məqsədəuyğun hesab edilməməsi barədə 2000-ci il 19 may tarixli qərarının ləğv edilməsini məqsədəmüvafiq hesab edir.

***Mənzil hüququ.*** Mənzil sosial və iqtisadi həyatın əsas amili olmaqla yanaşı, fərdin təhlükəsizliyinin və ailənin sabitliyinin əsasıdır. Bu hüquqa Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları ilə təminat verilir.

Mənzil hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olan müraciətlər imtiyazlı şəxslərin dövlət hesabına mənzillə təmin edilməsi, yaşayış sahəsinə ehtiyacı olan şəxslərin mənzil növbəsinə qeydiyyata alınması və ya mənzil-məişət şəraitinin yaxşılaşdırılması, təbii fəlakətlər zamanı zərər çəkmiş evlərin (mənzillərin) dövlət hesabına təmir edilməsi, kommunal problemlərin həlli, habelə bu kimi digər məsələlərlə bağlı olmuşdur.

Müraciətlərin araşdırılması zamanı pozulmuş mənzil hüququnun bərpası məqsədilə Ombudsman tərəfindən səlahiyyətləri daxilində müvafiq tədbirlər görülmüşdür.

Ölkəmizdə baş vermiş təbii fəlakətlər, o cümlədən güclü leysan yağışları nəticəsində çaylarda suyun səviyyəsinin artması ilə kənd yerlərində fərdi yaşayış evlərinə və təsərrüfatlara, habelə əkin sahələrinə ziyan dəymişdir.

Ərizəçi H. (9068-23) Ombudsmana müraciət edərək, 30.04.2023-cü il tarixində Goranboy rayonunda baş vermiş təbii fəlakət zamanı evinin qəzalı və yaşayış üçün yararsız vəziyyətə düşdüyünü, məsələ ilə bağlı aidiyyəti üzrə müraciətinin nəticəsiz qaldığını bildirmiş, dəymiş ziyanın ödənilməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə və Goranboy Rayon İcra Hakimiyyətinə ünvanlanmış müraciətlər edilmiş, ərizəçiyə müvafiq pul vəsaiti ödənilmişdir.

Məlum olduğu kimi, 44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən döyüş bölgəsindən kənarda yerləşən şəhər və kəndlərimizin raket atəşinə tutulması nəticəsində mülki əhaliyə, yaşayış məntəqələrinə və həmin rayonlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə ciddi zərər dəymiş, onların normal fəaliyyəti pozulmuşdur.

“2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası Silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanla bağlı maddi yardımın ödənilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 14 dekabr tarixli Sərəncamına uyğun olaraq, dağılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500, digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 manat məbləğində vəsaitin ödənilməsi nəzərdə tutulmuşdur. Buna baxmayaraq, mövcud sahədə problemlər hələ də qalmaqdadır.

Ərizəçi Y. (7816-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması nəticəsində yaşadığı evin yaşayış üçün yararsız hala düşdüyünü, təmir-bərpa işlərinin keyfiyyətsiz aparılması və tamamlanmaması səbəbindən evinə yağış sularının dolduğunu, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən baxış keçirilməsinə baxmayaraq, heç bir tədbir görülmədiyini, bununla bağlı adıçəkilən quruma müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı komitəyə ünvanlanmış müraciətə verilmiş cavabda həmin fərdi yaşayış evi üçün tərtib edilmiş ilkin və texniki baxış aktlarına əsasən təmir işlərinin yekunlaşdırıldığı bildirilmişdir.

Son dövrlərdə Bakı şəhərində pilot layihələr üzərindən çox sayda köhnə çoxmənzilli yaşayış binaları və fərdi yaşayış evləri sökülərək yeni binalarla əvəzlənməkdədir. Söküntülər zamanı sakinlərə uyğun kompensasiya məbləğinin hesablanmaması, eyni zamanda mənzil sahiblərinə kirayə haqqının ödənilməməsi yaxud ödənişin vaxtında həyata keçirilməməsi vətəndaşların haqlı narazılığına səbəb olmuşdur.

Ərizəçi Ə. (3133-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, “Ağ şəhər” layihəsi çərçivəsində yaşadıqları ərazidə söküntü işlərinin aparıldığını, ona məxsus əmlakın müqabilində təklif edilən məbləğin az olması səbəbindən təklif edilən kompensasiyadan imtina etdiyini, buna baxmayaraq, Xətai Rayon İcra Hakimiyyəti tərəfindən ona məxsus torpaq sahəsinin zəbt olunaraq hasarının söküldüyünü bildirmiş, müvafiq tədbir görülməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə ünvanlanmış müraciətdən sonra fərdi yaşayış evi "Privat Co” MMC (Əmlakın qiymətləndirilməsi üçün lisenziya əsasında fəaliyyət göstərən müstəqil təşkilat) tərəfindən üç yüz yetmiş min iyirmi beş manat dəyərində qiymətləndirilmiş və

bununla əlaqədar ərizəçi ilə razılaşma aktı tərtib edilərək, həmin vəsaitin ərizəçinin şəxsi hesabına köçürülməsi təmin edilmişdir.

Əhalinin yaşayış sahəsi ilə təminatı mexanizmlərinin təkmilləşdirilməsi, şəxsi vəsaiti yetərli olmayan vətəndaşların yaşayış sahələrinə tələbatının ödənilməsi və kirayə hüquq münasibətlərinin inkişafı məqsədilə əhəmiyyətli tədbirlər görülməkdədir. Bununla belə, mövcud mexanizmlərin təmini sahəsində bəzi çətinliklər qalmaqdadır.

Ərizəçi B. (10561-23) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondundan kirayə üsulu ilə aldığı mənzilin təmiri ilə bağlı problemlər olduğunu, fondun əməkdaşı tərəfindən mənzilə baxış keçirilsə də, heç bir tədbir görülmədiyini, süründürməçiliyə məruz qaldığını bildirmiş, hüquqlarının müdafiəsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı aparılmış araşdırma zamanı problemin yaşayış binasının ümumi kanalizasiya xəttindən qaynaqlandığı aşkar edilmiş, bununla bağlı müvafiq mənzil-tikinti kooperativinə məlumat verilmiş və problem aradan qaldırılmışdır.

Ombudsmanın ünvanına kommunal xidmət sahələri ilə bağlı daxil olan bir çox müraciətlər üzrə araşdırmalar aparılmış və təmin edilmişdir.

Ərizəçi X. (13238-23) Ombudsmana müraciət edərək, əsassız hesablanmış borcun silinməsinə dair tərəf olduğu mülki iş üzrə Xəzər Rayon Məhkəməsinin müvafiq qətnaməsinin "Azəriqaz" İstehsalat Birliyi tərəfindən icra edilmədiyini bildirmiş, müvafiq tədbir görülməsini xahiş etmişdir. Şikayətlə bağlı həmin birliyə ünvanlanmış müraciətdən sonra məhkəmənin qətnaməsi icra olunmuş və ərizəçinin (abonentin) hesabında düzəliş edilmişdir.

***Biznes və insan hüquqları.*** Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsi, pozulmuş hüquqların bərpası, habelə bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi məqsədilə aidiyyəti dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq davam etdirilmişdir.

BMT-nin İnsan Hüquqları Şurasının 17/4 və 26/22 saylı qətnamələrinin tələblərindən irəli gələrək, BMT-nin Biznes və İnsan Hüquqları üzrə İşçi Qrupunun ekspertlərinin əvvəlki illərdə müvafiq dəvət əsasında Azərbaycan Respublikasına rəsmi səfərinin nəticələrinə dair 2015-ci il 3 iyun tarixli hesabatında (A/HRC/29/28/Add.1) Azərbaycan hökumətinin "Biznes və insan hüquqları sahəsində rəhbər prinsiplər"ə siyasi öhdəliyi və bu prinsiplərin implementasiyası məqsədilə milli fəaliyyət planının hazırlanmasına dair vədi xüsusi vurğulanmışdır.

Sənəddə, həmçinin Ombudsmanın koordinasiya fəaliyyətinə əsaslanaraq biznes və insan hüquqları məsələləri üzrə çoxtərəfli dialoq mexanizminin gücləndirilməsinə, BMT-nin "Biznes və İnsan Hüquqlarına dair Milli Fəaliyyət Planları barədə Nümunəvi Təlimat"ına uyğun olaraq, bu sahədə milli fəaliyyət planının hazırlanmasına dair tövsiyələr də öz əksini tapmışdır.

BMT-nin təşəbbüsü ilə qəbul edilmiş "Edinburq Bəyannaməsi"nin (bu sənəd Ombudsmanların biznes və insan hüquqlarını öz strategiyalarına və fəaliyyətinə inteqrasiyasını, bu sahədə mandatlarını müəyyən edir) müddəalarından irəli gələrək, 2023-cü ilin əvvəlindən etibarən BMT-nin Azərbaycan Ofisi ilə Ombudsman təsisatı arasında biznes və insan hüquqları sahəsində birgə fəaliyyətə dair tədbirlər planı təsdiq edilmiş və qeyd olunan istiqamətdə işlərə başlanılmışdır.

Müvafiq sahədə əsas hədəf insan hüquqlarının təmin olunması sahəsində dövlət qurumları, ictimai təşkilatlar və biznes strukturlarının işinin əlaqələndirilməsi, Rəhbər Prinsiplərin ölkə qanunvericiliyinə implementasiyası və milli fəaliyyət planının hazırlanması təşkil edir. Bununla əlaqədar olaraq, Ombudsman tərəfindən aidiyyəti qurumlara müvafiq sorğular göndərilməklə biznes və insan hüquqları sahəsi ilə bağlı mövcud vəziyyətin ilkin qiymətləndirilməsi üzrə işlər aparılmaqdadır.

Göstərilənlərlə yanaşı, Ombudsman biznes və insan hüquqları sahəsində maarifləndirməyə də xüsusi diqqət yetirir. Belə ki, Ombudsman Aparatının və Azərbaycan Respublikası Baş Prokurorluğunun birgə təşkilatçılığı ilə dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və beynəlxalq ekspertlərin iştirakı ilə təşkil olunmuş “Biznes və insan hüquqları kontekstində şəffaflığın təmin olunması” mövzusunda hibrid formatda beynəlxalq konfrans xüsusi əhəmiyyət kəsb etmişdir. Həmin tədbirdə Ombudsmanın təşəbbüsü və BMT-nin maliyyə dəstəyi ilə Ombudsman Aparatı tərəfindən “BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinə ümumi baxış” adlı maarifləndirici çap materialının təqdimatı da baş tutmuşdur.

Qeyd edilməlidir ki, biznes və insan hüquqları sahəsi ilə bağlı şikayətlərin araşdırılmasında müəyyən çətinliklər hələ də qalmaqdadır. Məlum olduğu kimi, Ombudsman haqqında Konstitusiya Qanununu ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Ombudsman paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər barəsində insan hüquqlarının pozuntusu halları ilə bağlı şikayətləri qəbul etmək və araşdırmaq səlahiyyətinə malik olsa da, digər sahibkarlıq subyektlərinə münasibətdə bu səlahiyyət məhduddur. Bu baxımdan, həmin sahibkarlıq subyektlərindən olan insan hüquq pozuntuları ilə bağlı şikayətlər baxılması üçün Ombudsman tərəfindən aidiyyəti dövlət qurumlarına göndərilsə də, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası Qanunu ilə təsbit olunmuş məhdudiyyət səbəblərindən Ombudsmanın sorğuları üzrə araşdırmaların tam və hərtərəfli aparılması mümkün olmur.

Qeyd olunanlar nəzərə alınaraq, sahibkarlar tərəfindən insan hüquqlarının pozulması hallarında zərərçəkən şəxslərin məhkəməyədək hüquq müdafiə mexanizmlərinə çıxışını təmin etmək məqsədi ilə “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası qanunlarında, habelə “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı”na sahibkarlıq subyektləri tərəfindən insan hüquqlarının pozulması hallarında şikayətlərin araşdırılmasını birbaşa nəzərdə tutan dəyişikliklərin edilməsi məqsədəmüvafiqdir.

## 1.3. Əhali qruplarının hüquqlarının müdafiəsi

***Qaçqınların, məcburi köçkünlərin və miqrantların hüquqlarının müdafiəsi.*** On illərlə öz dədə-baba torpaqlarının həsrətində olmuş və məcburi köçkünlük həyatı yaşamaq məcburiyyətində qalmış soydaşlarımızın doğma yurdlarına təhlükəsiz şəkildə qayıtması, onların yaşayış şəraitinin yaxşılaşdırılması, sağlamlıq, təhsil, mədəni inkişaf məsələlərinin həlli daim diqqətdə saxlanılır, dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilir. Belə ki, 2026-cı ilədək olan dövrü əhatə edən “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası uğurla davam etdirilməkdədir.

Qaçqınlar, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin hüquqlarının təmin edilməsi məsələləri Ombudsmanın diqqət mərkəzində olmuşdur.

Mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət, məşğulluq, işğaldan azad olunmuş ərazilərə qayıdış və digər məsələlərlə əlaqədar Ombudsmanın ünvanına daxil olmuş müraciətlər araşdırılmış, bu kateqoriyadan olan şəxslərin hüquq və azadlıqlarının daha səmərəli təmini məqsədilə səlahiyyətli dövlət orqanları ilə əməkdaşlıqda müvafiq tədbirlər həyata keçirilmiş, aidiyyəti dövlət qurumlarına tövsiyələr verilmişdir.

Ombudsmanın təşəbbüsünə əsasən, Qərbi Azərbaycan İcması və Quba Rayon İcra Hakimiyyəti ilə birgə əməkdaşlıqda Quba şəhərində 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş "Etnik təmizləmə və soyqırımı cinayətlərinin hüquqi aspektləri: tarixi faktlar kontekstində" mövzusunda hibrid formatda konfrans təşkil edilmişdir.

Məcburi köçkünlərin hüquqlarının müdafiəsi istiqamətində tədbirlər davam etdirilmişdir. Belə ki, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyi, Ombudsman Aparatı və Vəkillər Kollegiyası ilə birgə ödənişsiz hüquqi yardım kampaniyası çərçivəsində məcburi köçkünlərə mülki, sosial, iqtisadi, inzibati, ailə-nikah və digər məsələlərlə bağlı hüquqi yardım göstərilmişdir.

Ombudsman hazırda yataqxana və qəzalı binalarda yaşayan məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə onların işğaldan azad edilmiş ərazilərə köçürülən keçmiş məcburi köçkünlər tərəfindən təhvil verilmiş xidməti mənzillərə müvəqqəti olaraq köçürülməsini məqsədəmüvafiq hesab edir.

Miqrasiya proseslərinin iştirakçısı olan şəxslərin hüquq və mənafelərinin səmərəli qorunması, qanuni miqrasiyanın təşviqi sahəsində aidiyyəti dövlət orqanları ilə əməkdaşlıqda Ombudsman tərəfindən tədbirlər həyata keçirilmişdir. Bu əməkdaşlığın çoxtərəfli platformalarda inkişafı və beynəlxalq öhdəliklərin implementasiyası, beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli müstəvidə konstruktiv dialoqun möhkəmlənməsi, monitorinq, əlaqələndirmə, miqrasiya qanunvericiliyi, o cümlədən vətəndaşsızlıq halları və qanunsuz miqrasiya ilə mübarizə sahəsində əhalinin məlumatlılığının artırılması və digər istiqamətlərdə yeni yanaşmalara əsaslanan təşəbbüslər irəli sürülmüşdür.

Ölkəyə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlətdaxili və beynəlxalq hüquq normaları ilə müəyyən edilmiş hüquq və vəzifələri barədə çevik məlumatlandırılması istiqamətində tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərdə miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə qanunla nəzərdə tutulmuş inzibati məsuliyyət, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınma proseduru barədə müfəssəl məlumatlar diqqətə çatdırılmışdır. Belə şəxslərin hüquqi statusunun tənzimlənməsi, onların miqrasiya, iqtisadi, sosial və digər sahələrdə dövlət xidmətlərindən operativ yararlanması və əlçatanlığın təmin edilməsi kimi məsələlər qaldırılmış, həssas vəziyyətdə olan miqrantlara və onların ailələrinə dəstək göstərilməsi diqqətdə saxlanılmışdır.

Sənədsiz vəziyyətdə olan və yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin identifikasiyası, onların qeydiyyata alınması və aşkar edilmiş bu kimi başqa problemlərin həlli ilə bağlı müxtəlif vaxtlarda Ombudsman tərəfindən Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə və digər səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş, miqrantların sərbəst hərəkət etmək, təhsil, pensiya təminatı, məşğulluq və digər sahələrdə üzləşdikləri bəzi çətinliklər aradan qaldırılmışdır.

Ölkəmizdə olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə yanaşı, Ombudsman xaricdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının təmin edilməsi və sosial müdafiəsinin gücləndirilməsi sahəsində də fəaliyyətini genişləndirmişdir. Xarici ölkələrdə qeyri-müəyyən vəziyyətdə qalan Azərbaycan Respublikası vətəndaşlarının müəyyən edilməsi və hüquqlarının müdafiəsi, eyni zamanda qarşılaşdıqları çətinliklərin araşdırılması üzrə məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, bərpa və xitam verilməsi məsələləri, habelə vətəndaşlıq hüququnun təmin edilməsi ilə bağlı müraciətlər üzrə tədbirlər görülmüşdür. Müxtəlif vaxtlarda Ombudsmana müraciət etmiş Azərbaycan Respublikasının vətəndaşı kimi tanınan şəxslərə etibarlı sənədlərin verilməsi də təmin edilmişdir.

Ərizəçi N. (14044-23) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikasının vətəndaşı kimi şəxsiyyət vəsiqəsinin dəyişdirilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçi müvafiq "ASAN xidmət" mərkəzi tərəfindən şəxsiyyət vəsiqəsi ilə təmin edilmişdir.

Vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi, repatriasiya, deportasiya, readmissiya və bu kimi digər məsələlər, habelə qayıdış şəhadətnamələrinin rəsmiləşdirilməsi ilə bağlı müraciətlər araşdırılaraq müvafiq tədbirlər görülmüşdür.

Ölkə daxilində və xaricdə yaşayan şəxslərə miqrasiya qanunvericiliyinin müxtəlif aspektləri əhatə edilməklə hüquqi məsləhətlər verilmiş, sərbəst hərəkət etmək hüququnun təmin edilməsi istiqamətində tədbirlər həyata keçirilmiş, o cümlədən şəxsin Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətinin araşdırılması qaydaları izah edilmiş, əlaqələndirmə işi təşkil olunmuşdur.

Xarici həmkarlarla əməkdaşlıqda miqrasiya məsələlərinin effektiv əlaqələndirilməsinə diqqət yetirilmişdir.

Ərizəçi Z. (2105-23) Ombudsmana müraciət edərək, Rusiya Federasiyasına girişinə qoyulmuş qadağa müddətinin bitməsinə baxmayaraq, həmin məhdudiyyətin aradan qaldırılmadığını bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Rusiya Federasiyasının İnsan hüquqları üzrə müvəkkili ilə birgə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində müvafiq məhdudiyyət aradan qaldırılmış və ərizəçinin həmin ölkəyə giriş hüququ təmin edilmişdir.

Azərbaycan Respublikasının vətəndaşı X. (9883-23) Ombudsmana müraciət edərək, Rusiya Federasiyasının Xantı-Mansiysk Muxtar Dairəsində yaşayan və xəstəxanada müalicə alan həyat yoldaşının sağlamlıq vəziyyətinin araşdırılmasını və onun Azərbaycana qayıtmasında köməklik göstərilməsini xahiş etmişdir. Həmin məsələ ilə bağlı müvafiq muxtar dairənin insan hüquqları üzrə müvəkkilinə ünvanlanmış müraciətdən sonra həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində ərizəçinin həyat yoldaşının sağlamlığı ilə bağlı çətinliklərin həlli üzrə köməklik göstərilmiş, həmçinin ona qayıdış şəhadətnaməsinin rəsmiləşdirilməsi məqsədilə lazımi sənədlər aidiyyəti üzrə təqdim edilmişdir.

Müraciətlərdə əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınması, müvəqqəti və daimi yaşayış icazəsinin verilməsi və ya icazə müddətinin uzadılmasında köməklik göstərilməsi kimi hallar da öz əksini tapmışdır ki, həmin məsələlərin həlli üzrə də tədbirlər həyata keçirilmişdir.

Hazırkı qlobal çağırışlar və davamlı proseslər fonunda xarici ölkələrdə hərbi münaqişə, böhran və digər fövqəladə hadisələrdən zərər çəkmiş və ölkəmizə sığınacaq axtarmaq məqsədilə gəlmiş şəxslər də daxil olmaqla, miqrasiya proseslərinin iştirakçısı olan uşaqların sənədləşdirilməsi, sosial və psixoloji vəziyyəti, təhsil və tibbi yardımla təmini məsələləri Ombudsman tərəfindən nəzarətdə saxlanılmış, onların həyat və yaşayış şəraiti yerində araşdırılmış, psixoloqların iştirakı ilə görüşlər keçirilmiş, təhsil aldıqları məktəblərin rəhbərliyi ilə izahedici söhbətlər aparılmış, zəruri tövsiyələr verilmişdir.

Ərizəçi E. (9576-23) Ombudsmana müraciət edərək, Ukraynada yaranmış vəziyyətlə əlaqədar Azərbaycana köçdüklərini bildirmiş, övladının yaşadıqları əraziyə yaxın orta məktəbin birinci sinfinə qəbul olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladı üçün Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən müvafiq tam orta məktəbin Azərbaycan bölməsinin birinci sinfinə sorğusu təmin edilmişdir.

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Bakı, Yevlax və Naxçıvan şəhərlərində yerləşən Qanunsuz Miqrantların Saxlanılması mərkəzlərinə başçəkmələr keçirilmiş,

orada əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə rəftar, onların saxlanma şəraiti, tibbi-sanitariya xidmətlərinin təşkili, qida və maddi-məişət təminatı, habelə hüquqlarının təmini vəziyyətinin monitorinqi aparılmış, saxlanılan şəxslər konfidensial qaydada qəbul olunmuş, müraciətləri araşdırılmış, digər məsələlərlə bağlı əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyəti yerində yoxlanılmışdır. Bu müəssisələrdə saxlanılan bir sıra əcnəbilərin öz ölkələrinə operativ qaydada qayıtmalarına da dəstək göstərilmişdir.

Ombudsman tərəfindən beynəlxalq tərəfdaşlığın genişlənməsi istiqamətində, xüsusilə həm BMT-nin Miqrasiya üzrə Azərbaycan Şəbəkəsi çərçivəsində, həm də Miqrasiya üzrə Qlobal Kompaktın implementasiyası və 2021-2025-ci illər üzrə İnkişaf Planının icrası məqsədilə yaradılmış BMT-nin Miqrasiya üzrə Şəbəkəsinin üzvü kimi intensiv iş aparılmışdır.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, Beynəlxalq Miqrasiya Təşkilatı, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz, Beynəlxalq Qızıl Xaç Komitəsi və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində bir sıra layihələr icra edilmiş, xüsusi kurikulum əsasında dövlət qurumlarının nümayəndələrinin bilik və bacarıqlarının artırılması məqsədilə Bakı və Naxçıvan şəhərlərində silsilə təlim kursları təşkil edilmişdir.

Ombudsman təsisatı Miqrasiya üzrə Regional Təlim Mərkəzinin işinin koordinasiyasında fəal iştirak etmiş, həmin platformada təlimlər təşkil olunmuşdur.

Miqrantların hüquqlarının müdafiəsi mexanizmləri və prosedurları barədə məlumatlılıq səviyyəsinin artırılması məqsədilə qaçqınlar və sığınacaq axtaran şəxslər üçün müntəzəm qaydada təşkil edilmiş maarifləndirmə tədbirləri çərçivəsində sığınacaq axtaran ailələrlə görüşlər keçirilmiş, fərdi qaydada söhbətlər aparılmışdır.

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti yanında Vətəndaşsızlıq məsələləri ilə əlaqədar İşçi qrupda təmsil olunan Ombudsman təsisatı müvafiq sahədə də fəaliyyətini davam etdirmişdir.

***Şəhid ailələrinin və müharibə veteranlarının hüquqlarının müdafiəsi.***

Ölkəmizdə həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindən birini Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər, müharibə veteranları və şəhid ailələrinin sosial müdafiəsi təşkil edir. Əhalinin bu həssas qrupuna aid olan vətəndaşların hüquqlarının səmərəli təmini məqsədilə məşğulluq, sosial təminat, səhiyyə və təhsil kimi sahələrdə müxtəlif sosial dəstək proqramları hazırlanaraq həyata keçirilir.

Ombudsman və onun tapşırığına əsasən, aparatın və regional mərkəzlərin əməkdaşları müharibə iştirakçılarına və şəhid ailələrinə daim xüsusi həssaslıqla yanaşaraq qayğıları ilə maraqlanmış, bu kateqoriyadan olan şəxslərin ailələrinə mütəmadi ziyarətlər təşkil etmiş, onların problemləri ilə yerində tanış olmuş, həlli istiqamətində tədbirlər həyata keçirilmişdir.

Müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, şəhid ailələri və müharibə veteranları tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər əsasən, onların sosial təminat hüququnun həyata keçirilməsi, tibbi və psixoloji yardımların göstərilməsi, reabilitasiya xidmətləri və vasitələri ilə təminat, məşğulluq məsələlərinin həllində köməklik göstərilməsi ilə bağlı olmuş, problemlərin həlli üzrə tədbirlər həyata keçirilmişdir.

Ərizəçi S. (5470/1-23) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, maddi baxımdan çətinliklər çəkdiyini bildirmiş, müvafiq işlə təmin olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə ünvanlanmış müraciətdən sonra ərizəçiyə müvafiq işlər təklif edilmiş və göndərişlə təmin olunmuşdur.

Ərizəçi M. (1886-23) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, medallarla təltif olunduğunu bildirmiş, daxili işlər orqanlarında xidmətə qəbul edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçi Tərtər Rayon Polis Şöbəsində xidmətə qəbul olunmuşdur.

Ərizəçi S. (6573-23) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, medallarla təltif olunduğunu, ailəsinə ünvanlı dövlət sosial yardımının təyin edilməsi ilə bağlı müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin ailəsinə bir il müddətinə aylıq 489.39 manat məbləğində ünvanlı dövlət sosial yardımı təyin edilmişdir.

Ərizəçi V. (5470/2-23) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, döyüşlər zamanı ağır yaralandığını və ayağının amputasiya edildiyini, ayağına quraşdırılmış protezin yeni müasir növ protezlə əvəz edilməsi üçün aidiyyəti müraciətlərinin təmin edilmədiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin ayağına quraşdırılmış protez dəyişdirilmişdir.

“Müharibə veteranı” adı və vəsiqəsinin verilməsi, habelə döyüşlərdə iştiraka görə təltif məsələləri ilə əlaqədar müharibə iştirakçıları tərəfindən Ombudsmanın ünvanına daxil olmuş müraciətlər aidiyyəti qurumlarla əməkdaşlıqda araşdırılaraq tədbirlər görülmüşdür.

Ərizəçi L. (8582-23) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, lakin ona “Müharibə veteranı” adının verilməsi ilə bağlı müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçiyə erməni silahlı birləşmələrinə qarşı əks-hücum əməliyyatının keçirilməsində və işğal olunmuş ərazilərimizin azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı verilmişdir.

Şəhid atası N. (852-23) Ombudsmana müraciət edərək, oğlunun Vətən müharibəsində şəhid olduğunu, ölümündən sonra medallarla təltif edildiyini, lakin döyüşlərdə xüsusi fərqlənməsinə görə hər hansı ordenlə təltif edilməsi məsələsinə baxılmadığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin şəhid oğlunun 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunması barədə yuxarı komandanlıq qarşısında vəsatət qaldırılmışdır.

Şəhid adının əbədiləşdirilməsi ilə bağlı onların ailə üzvləri tərəfindən ünvanlanmış müraciətlər yerli icra hakimiyyəti orqanları ilə birgə araşdırılmış, şəhid adının küçə və məktəblərə verilməsi, abidə və xatirə komplekslərinin yaradılması istiqamətində məqsədyönlü işlər görülmüşdür.

Ərizəçi C. və digərləri (11992-23) Ombudsmana müraciət edərək, şəhidin xatirəsinin əbədiləşdirilməsi məqsədilə onun adının küçəyə verilməsi ilə bağlı köməklik göstərilməsini xahiş etmişlər. Ərizə ilə bağlı Abşeron Rayon İcra Hakimiyyətinə ünvanlanmış müraciətdən sonra Xırdalan şəhərindəki küçələrdən birinə şəhidin adının verildiyi, eyni zamanda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən oğullarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Xırdalan şəhərində şəhidlərin adları qeyd olunmuş abidə kompleksinin də inşa olunduğu bildirilmişdir.

Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə onların yaşayış sahəsinə ehtiyacı olan qismində uçota götürülməsi ilə bağlı müraciətlər yerli icra hakimiyyəti orqanları ilə birgə əməkdaşlıqda araşdırılmış, zəruri tədbirlər görülmüşdür.

Ərizəçi L. (692-23) Ombudsmana müraciət edərək, şəhid ailəsinin üzvü kimi ehtiyacı olan şəxs qismində mənzil növbəsinə qeydiyyata alınması ilə bağlı Nərimanov

Rayon İcra Hakimiyyətinə ünvanlanmış müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı həmin icra hakimiyyətinə ünvanlanmış müraciətdən sonra ərizəçi şəhid ailəsi kimi mənzil növbəsinə götürülmüşdür.

Müharibə iştirakçıları və şəhid ailələrinin müayinə və müalicəsinin təşkili məsələləri ilə bağlı müraciətlər üzrə tədbirlər davam etdirilmişdir.

Ərizəçi E. (1394-23) Ombudsmana müraciət edərək, övladının Vətən müharibəsində iştirak etdiyini, müharibə dövründə böyrəyində yaranmış xəstəlikdən əziyyət çəkdiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladı “Böyrək daşları” (N 20.0) diaqnozu ilə Şəki Rayon Mərkəzi Xəstəxanası tərəfindən 15.03.2023-cü il tarixdə Klinik Tibbi Mərkəzə göndərişlə təmin olunmuş və litotripsiya əməliyyatı icra olunmuşdur.

Müharibə zamanı xəsarət alan şəxslər tərəfindən Ombudsmana ünvanlanmış müraciətlərin əksər hissəsini əlillik təyinatının aparılması zamanı həmin şəxslərin qarşılaşdıqları çətinliklərlə bağlı olmuşdur. Belə ki, müraciətlərdə əlillik vəziyyətinin qiymətləndirilməsi ilə əlaqədar müraciətlər üzrə sənədlərin hazırlanması, sistemə əlavə edilməsi, baxılmasında süründürməçiliyə məruz qalma, eləcə də əlilliyin təyin edilməsi şərtlərinin ağır olması kimi hallar öz əksini tapmışdır. Həmin müraciətlər üzrə aidiyyəti qurumlarla birlikdə müvafiq tədbirlər görülərək bir sıra məsələlər öz müsbət həllini tapsa da, əlillik təyinatı ilə bağlı bəzi problemlər hələ də qalmaqdadır.

Ərizəçi Ə. (6214-23) Ombudsmana müraciət edərək, oğlunun Vətən müharibəsində ağır yaralandığını, əlillik vəziyyətinin qiymətləndirilməsi ilə bağlı aidiyyəti müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin oğluna iki il müddətinə orqanizmin funksiyalarının 40% pozulmasına əsasən əlillik müəyyən edilmiş və həmin tarixdən orqanizmin funksiyalarının 31-60% pozulmasına görə müvafiq məbləğdə aylıq sosial müavinət təyin olunmuşdur.

Qeyd edilməlidir ki, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində şəhid ailələri, müharibə veteranları və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin hüquqlarının etibarlı müdafiəsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi davamlı olaraq genişləndirilməkdədir.

***Hərbi qulluqçuların hüquqlarının müdafiəsi.*** Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, habelə ehtiyatda və istefada olan hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdirilmişdir.

Həqiqi hərbi xidmətdə, habelə ehtiyatda və istefada olan hərbi qulluqçular və onların ailə üzvləri tərəfindən Ombudsmana ünvanlanmış müraciətlərdə sağlamlıq vəziyyətinə görə müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət verilməsi üçün əsasların olması nəzərə alınmadan bir sıra vətəndaşların hərbi xidmətə cəlb edilmələri, həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların sağlamlıq vəziyyətinə görə və ya digər səbəblərdən hərbi xidmətdən tərxis edilmələri ilə əlaqədar müraciətlərinə baxılmasının gecikdirilməsi, hərbi xidmət zamanı istifadə edilməmiş əşya əmlakına və məzuniyyət günlərinə, həmçinin digər əsaslara görə hərbi qulluqçulara pul kompensasiyasının vaxtında verilməməsi və bu kimi bəzi məsələlər öz əksini tapmışdır.

Bir sıra müraciətlərdə müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət verilməsi üçün sağlamlıq və ailə vəziyyətinə görə əsasların olmasına baxmayaraq, çağırışçıların Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumları tərəfindən müddətli həqiqi hərbi xidmətə cəlb edilməsi, digər hallarda isə həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların (müddətli həqiqi hərbi qulluqçular istisna olmaqla) sağlamlıq vəziyyəti ilə əlaqədar hərbi xidmətdən tərxis edilmə ilə bağlı müraciətlərinin nəticəsiz qalması halları qeyd edilmişdir. Bu problemlərlə əlaqədar

aparılmış araşdırmalar nəticəsində belə faktlar əksər hallarda tam və ya qismən öz təsdiqini tapmışdır.

Sağlamlıq problemi ilə əlaqədar bir sıra müraciətlər (2185-23; 4320-23; 6561-23; 9475-23; 13930-23) üzrə aidiyyəti dövlət qurumlarına ünvanlanmış müraciətlərdən sonra çağırışçılara sağlamlıq vəziyyətinə görə müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət verilmiş, həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular əksər hallarda sülh dövründə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı kimi xidmətdən tərxis edilmiş, bəzi hərbi qulluqçuların sağlamlıq vəziyyətinə uyğun olaraq xidmət yeri dəyişdirilmişdir.

Hərbi xidmətdən tərxis edildikdən sonra hərbi biletin və ya digər sənədlərin qaytarılmasının gecikdirilməsi, bununla bağlı digər hüquqlardan səmərəli istifadə etmək imkanının olmaması, məsələ ilə əlaqədar aidiyyəti qurumlara müraciətlərin nəticəsiz qalması ilə bağlı bir sıra müraciətlər (10432-23, 11036-23, 14517-23) də Ombudsmanın müdaxiləsindən sonra öz həllini tapmışdır.

"Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 5-ci bəndinə əsasən, hərbi qulluqçular Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi normalar üzrə dövlət hesabına ərzaq və əşya əmlakı alır, ərzaq və əşya əmlakı üçün pul kompensasiyası hüququna malikdirlər. Həmin Qanunun 11-ci maddəsinin 1-ci bəndinə görə, hərbi qulluqçu (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) təqvim ilində, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illərində bu maddədə nəzərdə tutulmuş növbəti məzuniyyətdən istənilən səbəbdən istifadə etmədikdə, ona həmin təqvim ili, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illəri üçün istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və məbləğdə ödənilir. Bununla yanaşı, müvafiq qanunlarda hərbi qulluqçulara bəzi xüsusi xidmətlərə görə də əlavə ödənişlərin verilməsi nəzərdə tutulmuşdur.

Ödəmələrin gecikdirilməsi ilə bağlı daxil olmuş müraciətlər (498-23, 3864-23, 4261-23, 6686-23, 13202-23) də öz həllini tapmış, ərizəçilərə qanunvericilikdə nəzərdə tutulmuş pul kompensasiyaları və digər ödənişlərin verilməsi təmin edilmişdir.

Hərbi qulluqçular və onların ailə üzvləri xidməti mənzil alanadək xidmət yeri üzrə qeydiyyata alınır, xidmət yerində onlara müvəqqəti mənzilin kirayəsi üçün qanunvericiliklə müəyyən edilmiş məbləğdə pul kompensasiyası ödənilir.

Müvəqqəti mənzil kirayəsinin ödənilməsində olan problemlərlə bağlı müraciətlər (8435-23, 10432-23) də təmin edilməklə pozulmuş hüquqlar bərpa edilmişdir.

Hərbi qulluqçulara ödənilən təminat xərcliyinin, o cümlədən vəzifə maaşının, habelə hərbi rütbəyə və ərzaq təminatına görə ödənilən məbləğin artırılması da məqsədəmüvafiqdir. Bu məzmunlu müraciətlərlə (1396-23, 3425-23, 4619-23, 5204-23, 6464-23, 7900-23, 8185-23, 9776-23, 10334-23, 13993-23, 14345-23) əlaqədar aparılmış araşdırmalar nəticəsində bəzi hərbi qulluqçuların müxtəlif əsaslarla həqiqi hərbi xidmətdən tərxis olunduqları, bəzilərinin isə tərxis olunmalarına dair məsələyə qanunamüvafiq qaydada baxılacağı və qərar qəbul ediləcəyi məlum olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində təsbit edilmişdir ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər. Vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir.

Qeyd edilənləri nəzərə alaraq, Ombudsman "Alternativ xidmət haqqında" qanunun hazırlanmasını və qəbul edilməsini məqsədəmüvafiq hesab edir.

Hərbi qulluqçuların hüquqi maarifləndirilməsi istiqamətində aparılan işlər əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də Ombudsmanın fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Ombudsmanın Azərbaycan Respublikasının müdafiə naziri, habelə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Fövqəladə Hallar Nazirliyinin Mülki

Müdafiə Qoşunlarının komandanları ilə birgə təsdiq etdiyi tədbirlər planına əsasən, il ərzində Ombudsman və aparatın əməkdaşları respublikanın müxtəlif yerlərində, o cümlədən işğaldan azad olunmuş ərazilərdə yeni yaradılmış hərbi hissələrdə olmuş, şəxsi heyətlə hüquqi maarifləndirmə işinin gücləndirilməsi və insan hüquqlarının müdafiəsi vəziyyətini yerində öyrənmək məqsədilə müvafiq tədbirlər həyata keçirmişlər.

Həmin tədbirlərdə Ombudsmanın, habelə aparat əməkdaşlarının müvafiq şəxsi heyətlərlə görüşləri zamanı hərbi qulluqçuların sualları cavablandırılmış, istəklərinə uyğun olaraq, hərbi qulluqçular ayrı-ayrılıqda qəbul edilərək dinlənilmiş, müraciətləri araşdırma üçün qəbul edilmişdir. Tədbirlər çərçivəsində, həmçinin şəxsi heyətin yaşayış yerinə, tibb mərkəzinə, yeməkxanaya, mətbəxə, ərzaq anbarına, hamama, sanitar qovşağa, asudə vaxtın səmərəli keçirilməsi üçün ayrılmış yerə, idman zalına və hərbi sirr təşkil etməyən digər obyektlərə baxışlar keçirilmişdir.

Qeyd edilməlidir ki, baxışların keçirildiyi hərbi hissələrdə hərbi şəxsi heyət üçün yaradılan şərait və hərbi qulluqçularla rəftar müsbət qiymətləndirilmiş, görülən işlərin keyfiyyətinin daha da artırılması ilə bağlı hərbi hissə komandirlərinə müvafiq tövsiyələr verilmişdir.

***Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi.*** Qadın hüquqlarının müdafiəsi, habelə gender bərabərliyinin təmini və təbliği məsələləri Ombudsmanın fəaliyyətində mühüm yer tutur.

Bu sahədə Ombudsmanın ünvanına daxil olan müraciətlərdə məhkəmə qərarlarının icra olunmaması, əmək hüququnun pozulması, məşğulluq, pensiya, əlilliyin təyin edilməsi, tibbi müayinə və müalicə məsələləri, məişət zorakılığı və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Əhalinin həssas qruplarından olan qadınların hüquqlarının müdafiəsi məsələləri, o cümlədən onların müraciət etmək hüququ ilə bağlı Ombudsmana əlçatanlıq təmin edilmişdir. Ombudsman tərəfindən həmin müraciətlərə həssaslıqla yanaşılmış, çoxsaylı araşdırmalar aparılmış, pozulmuş hüquqların bərpası, habelə hüquq pozuntularının qarşısının alınması istiqamətində səmərəli tədbirlər həyata keçirilmişdir.

Müraciətlərin təhlili zamanı bəzi qadınların öz hüquqlarını yetərincə bilməməsi səbəbindən bu hüquqların pozulması halları müşahidə edilmişdir. Odur ki, qadın hüquqları, qadın sahibkarlığı, onların qərar qəbuletmədə rolu, gender bərabərliyi, məişət zorakılığı, narkomaniya və zərərli vərdişlər, insan alveri və erkən evliliklə mübarizə kimi məsələlərlə bağlı məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Ombudsman tərəfindən il ərzində paytaxtda və regionlarda çoxsaylı maarifləndirici tədbirlər, o cümlədən "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası, "İnsan hüquqları aylığı" və "Uşaq hüquqları aylığı" çərçivəsində təlim və seminarlar təşkil olunmuşdur. Bu tədbirlər, eyni zamanda gender bərabərliyinin təbliğinə, qadınların hüquqi biliklərinin artırılmasına, qadın sahibkarlığının inkişaf etdirilməsinə, onların iqtisadi imkanlarının genişləndirilməsinə, həmçinin qız uşaqlarının təhsildən yayındırılmasına və erkən evlilik hallarının qarşısının alınmasına, ümumilikdə qadınların cəmiyyətdə rolunun artırılmasına xidmət etmişdir.

Ölkədə yoxsulluğun azaldılması, dayanıqlı və inklüziv inkişafın, gender bərabərliyinin təmin edilməsi məqsədilə qadın sahibkarlığının inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, qadınların iqtisadi resurslara çıxışının və onlara dəstək mexanizmlərinin genişləndirilməsi, xüsusi biznes təlim proqramlarının təşkil edilməsi, bu sahədə dünya təcrübəsinin öyrənilməsi, informasiya-kommunikasiya texnologiyaları sahəsində qadınların rolunun artırılması zəruridir.

Cinsi və reproduktiv sağlamlıq, ailə planlanması da qadın hüquqlarının təmini baxımından son dərəcə əhəmiyyətlidir. Bu məqsədlə tibbi infrastrukturun və xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, ailə planlanmasına çıxış imkanlarının artırılması məqsədəmüvafiqdir.

Bakı şəhərində və regionlarda Ombudsmanın təşkilatçılığı ilə qadın hüquqları və gender bərabərliyi ilə bağlı orta məktəb şagirdlərinə, kollec və universitetlərin tələbələrinə, həmkarlar təşkilatlarının fəallarına ünvanlanmış təlimlər, habelə müvafiq dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıqda maarifləndirmə tədbirləri təşkil edilmişdir.

Ombudsman tərəfindən Bakı Dövlət Universitetində "Genderə giriş" fənninin tədrisi davam etdirilmiş, "Genderə giriş" mühazirələr toplusu təkmilləşdirilərək ingilis dilinə tərcümə olunmuş, Ombudsmanın ümumi redaktəsi ilə dərc edilərək mütəxəssislərin və tələbələrin istifadəsinə verilmişdir.

Qadın hüquqlarının səmərəli müdafiəsi sahəsində müvafiq dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, həmçinin beynəlxalq təşkilatlarla əməkdaşlıq davam etdirilmiş, qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmini üzrə təcrübə mübadiləsi aparılmış, birgə əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

Ombudsmanın Aparatının və regional mərkəzlərinin əməkdaşları peşəkar biliklərinin artırılması və ayrı-seçkiliklə mübarizə sahəsində fəaliyyətin gücləndirilməsi məqsədilə beynəlxalq təşkilatların dəstəyi ilə həyata keçirilən bir çox layihələrdə iştirak etmiş, müsbət təcrübə mübadilələri aparmışlar.

***Uşaq hüquqlarının müdafiəsi.*** Uşaq hüquqlarının səmərəli təmin edilməsi və təbliği üzrə fəaliyyət davam etdirilmişdir.

Uşaq hüquqları ilə bağlı Ombudsmanın ünvanına daxil olan müraciətlərdə alimentin ödənilməməsi, ünsiyyət hüququnun təmin olunmaması, qəyyumluq və himayə məsələləri ilə bağlı məhkəmə qərarlarının icra edilməməsi, eyni zamanda uşaqların zorakılıqdan müdafiəsi, təhsil, sosial təminat hüququnun təmini, tibbi müayinə və müalicənin təşkili, əlilliyin qiymətləndirilməsi və bu kimi digər məsələlər öz əksini tapmışdır. Həmin müraciətlərlə bağlı araşdırmalar aparılmış və uşaqların hüquqlarının təmini istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ərizəçi A. (39-23) Ombudsmana müraciət edərək, övladının yetkinlik yaşına çatanadək saxlanılması üçün alimentin ödənilməsinə dair tərəf olduğu mülki iş üzrə məhkəmənin müvafiq qərarının icra edilmədiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İcra baş idarəsinə ünvanlanmış müraciətdən sonra İmişli Rayon Məhkəməsinin müvafiq icra sənədi üzrə Qaradağ Rayon İcra Şöbəsində başlanılmış icraat zamanı görülmüş tədbirlər nəticəsində aliment borcu tam ödənilmişdir.

Ərizəçi B. (9204-23) Ombudsmana müraciət edərək, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin icraatında olan iş üzrə zərərçəkmiş şəxs qismində tanınmış yetkinlik yaşına çatmayan qızın məhkəmə baxışı zamanı təqsirləndirilən şəxslərin iştirakı ilə dindirilməsinin onun psixoloji gərginliyinin artmasına səbəb olacağını bildirmiş, zərərçəkmişin məhkəmədə onlayn formatda ifadə verməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Lənkəran Ağır Cinayətlər Məhkəməsinə müraciət edilmiş, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 123-2.3-cü maddəsinin tələbləri nəzərə alınaraq, uşağın məhkəmə zalında iştirak etmədən onlayn formatda ifadə verməsi təmin olunmuşdur.

Ərizəçi C. (13421-23) Ombudsmana müraciət edərək, övladının evdə təhsilə cəlb olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladının sənədləri psixoloji-tibbi-pedaqoji komissiyasına təqdim edilmiş, müayinə olunduqdan sonra onun ev şəraitində təhsilini davam etdirməsinin mövcud qanunvericiliyin tələblərinə uyğun olduğu müəyyən olunmuş və müvafiq qərar qəbul edilmişdir.

Ərizəçi Ç. (13624-23) Ombudsmana müraciət edərək, övladının birinci sinfə qəbul edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Azərbaycan

Respublikasının Elm və Təhsil Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladının 2022-2023-cü tədris ilində müvafiq məktəbin 1-ci sinfinə qəbul olunduğu, lakin dərslərdə iştirak etmədiyi məlum olmuş, bununla belə, onun növbəti tədris ili üzrə yenidən 1-ci sinifdə təhsil alması məqsədəuyğun hesab edilərək, kənd tam orta məktəbinə qəbul edilmişdir.

Ərizəçi D. (11544-23) Ombudsmana müraciət edərək, övladının əlillik vəziyyətinin qiymətləndirilməsi məqsədilə müvafiq göndərişin elektron sistemə daxil edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə əlaqədar TƏBİB-ə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladının müayinə və müalicəsinin təşkili üçün Salyan Rayonlararası Psixiatriya Xəstəxanasına göndəriş verilmişdir.

Ərizəçi E. (3842-23) Ombudsmana müraciət edərək, 16 yaşlı övladına qarşı cinsi zorakılıq əməli törədən şəxsin baş vermiş hadisəni gizlətmək məqsədilə dəfələrlə onu təhdid etdiyini bildirmişdir. Şikayətlə bağlı Salyan Rayon Prokurorluğuna ünvanlanmış müraciətdən sonra faktla bağlı Salyan Rayon Polis Şöbəsinin İstintaq bölməsində aparılmış araşdırmadan sonra toplanmış material üzrə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.2-ci maddəsinə əsasən, cinayət işinin başlanmasının rədd edildiyi məlum olmuş, lakin material rayon prokurorluğunda öyrənilərkən ərizəçinin müraciətində göstərilən xüsusatların və hadisə ilə əlaqədar əhəmiyyət kəsb edən halların tam araşdırılmadığı müəyyən edildiyi üçün cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar ləğv edilərək əlavə araşdırma aparılması üçün həmin polis şöbəsinin istintaq bölməsinə qaytarılmışdır.

Ərizəçi F. (5108-23) Ombudsmana müraciət edərək, övladının təhsil aldığı tam orta məktəbdə sinif yoldaşı tərəfindən mütəmadi olaraq təhqir və təzyiqlərə məruz qaldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizədə qeyd olunanlar öz təsdiqini tapmış, təzyiq göstərən uşağın valideyni məktəbə dəvət olunaraq məlumatlandırılmış, onun davranışlarında müsbətə doğru dəyişikliyin əldə olunması üçün mütəmadi olaraq məktəbin psixoloqu tərəfindən seanslar aparılmış, eyni zamanda həmin uşaq digər məktəbə yerdəyişmə edilmişdir.

Bir sıra müraciətlərlə bağlı zəruri hallarda Ombudsman Aparatının və regional mərkəzlərin əməkdaşları tərəfindən yerində araşdırmalar aparılmış, zəruri tədbirlər həyata keçirilmişdir.

Ərizəçi L. (4024-23) Ombudsmana müraciət edərək, qonşusunun müraciəti üzrə aparılmış araşdırma zamanı polis əməkdaşları tərəfindən azyaşlı övladının yaşının nəzərə alınmadığını, onunla rəftardan narazı qaldığını bildirmişdir. Ombudsman tərəfindən aidiyyəti dövlət orqanları ilə əlaqə saxlanılmış, qeyd olunan hallar diqqətə çatdırılmış, məsələ ilə bağlı müvafiq tədbirlər görülmüşdür.

Müraciətlərlə yanaşı, mətbuatda və sosial şəbəkələrdə uşaq hüquqlarının pozulması ilə bağlı yayılan məlumatlar Ombudsman tərəfindən dərhal nəzarətə götürülmüş, aidiyyəti dövlət orqanlarına müraciətlər ünvanlanmış, müvafiq tədbirlər görülmüşdür.

Bakı şəhərinin Sabunçu rayon sakini olan yetkinlik yaşına çatmayan qızın nikaha daxil olmağa məcbur edilməsinə dair mediada yayılmış məlumatın (7852-23) araşdırılması və azyaşlının hüquqlarının təmin olunması istiqamətində müvafiq tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə, Sabunçu Rayon Polis İdarəsinə və Sabunçu Rayon İcra Hakimiyyətinə müraciətlər edilmiş, zəruri tədbirlər görülmüşdür.

Mediada və sosial şəbəkələrdə yetkinlik yaşına çatmayan şəxsin yeniyetmələr tərəfindən döyülməsini əks etdirən videogörüntülərin yayılması ilə əlaqədar (11706-23) Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə müraciət olunmuş, təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir.

Gəncə şəhərində 4 aylıq və 3 yaşlı uşaqların sosial təhlükəli vəziyyətdə olması ilə bağlı mediada yayılan məlumat Ombudsmanın mandatı çərçivəsində yerində araşdırılaraq nəzarətə götürülmüş, məsələ ilə bağlı müvafiq tədbirlər görülmüşdür.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Psixiatriya Xəstəxanasına yerləşdirilən 3 saylı Uşaq evinin sakininin hüquqlarının təmini vəziyyətinin öyrənilməsi məqsədilə müəssisəyə başçəkmə həyata keçirilmiş, uşaqla fərdi şəkildə söhbət aparılmış, saxlanma şəraiti və rəftar məsələləri, tibbi yardımın və psixoloji işin təşkili, habelə qidalanma ilə bağlı məsələlər yerində araşdırılmış, uşağın hüquqlarının müdafiəsi yönümündə tövsiyələr verilmişdir.

Müraciətlərin və aparılan araşdırmaların təhlili nəticəsində uşaq hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə bir sıra təkliflər irəli sürülmüşdür.

Aliment tələbinə dair məhkəmə qərarlarının icrası ilə bağlı problemlərin aradan qaldırılması məqsədilə Ombudsman bir daha Aliment Fondunun yaradılmasının aktual olduğunu diqqətə çatdırır.

Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin aparılması zamanı təqsirləndirilən, zərərçəkmiş və şahid uşaqlarla rəftar qaydalarının təsdiq olunması, bu sahədə fəaliyyət göstərən əməkdaşlar arasında maarifləndirmə işlərinin aparılması zəruridir.

Ombudsmanın əvvəlki illik məruzələrində uşaqların təhsilə çıxışında bərabərliyin təmin olunması məqsədilə inklüziv təhsilə dair mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi təklif olunmuşdur. Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli Qərarı ilə “İnklüziv təhsilin təşkili Qaydası” təsdiq edilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupu tərəfindən Bakı, Sumqayıt, Gəncə, Goranboy, Tovuz, Quba, Siyəzən, Şəki, Zaqatala, Balakən, Mingəçevir, Salyan, Neftçala, Lənkəran, Lerik və digər şəhər və rayonlarda uşaqların saxlandığı və yaşadığı bir sıra müəssisələrə əvvəlcədən xəbərdarlıq edilmədən çoxsaylı başçəkmələr həyata keçirilmiş, uşaqların saxlanma şəraiti araşdırılmış, onlarla fərdi görüşlər keçirilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ombudsmanın nümayəndələri Suriyadan gətirilmiş və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sosial xidmət müəssisəsinə yerləşdirilmiş repatriantlarla görüşərək, onların psixoloji durumu və hüquqlarının təmini vəziyyəti ilə maraqlanmış, sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində görülmüş tədbirlər barədə məlumat almışlar.

BMT-nin Uşaq Hüquqları Komitəsi Azərbaycan Respublikasının BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyası üzrə beşinci və altıncı birgə dövri məruzəsi ilə bağlı 2023-cü il 3 fevral tarixində qəbul etdiyi Yekun Müşahidələrində 2021-ci ildə Ombudsman Aparatında Uşaq hüquqlarının müdafiəsi sektorunun yaradılmasını alqışlamış, bununla yanaşı, uşaqlar tərəfindən və ya onların adından verilən şikayətlərə uşaqlara uyğun şəkildə baxılması üçün mandatın genişləndirilməsi tövsiyə edilmişdir. Bu baxımdan, Ombudsman haqqında Konstitusiya Qanununa dəyişikliklər edilməsi nəticəsində Ombudsmana “Uşaq hüquqları haqqında” Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi səlahiyyətinin verilməsi bu sahədə mövcud normativ hüquqi bazanın beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində atılan mühüm addımlardandır.

“Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 iyun tarixli 3914 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 24 iyun tarixli, 524s nömrəli Sərəncamına əsasən hazırlanmış “Uşaq hüquqları haqqında” Azərbaycan

Respublikasının yeni qanununun və digər əlaqəli normativ hüquqi aktların layihələrinə Ombudsman tərəfindən təkliflər də hazırlanaraq müvafiq quruma təqdim edilmişdir.

Ombudsman müxtəlif kateqoriyadan olan uşaqlarla görüşərək, onların hüquqlarının müdafiəsini diqqətdə saxlamışdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Ombudsmanın təşəbbüsü ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə əməkdaşlıqda Tərbiyə Müəssisəsində islah olunan, hər dəfə iki nəfər yetkinlik yaşına çatmayan şəxsin paytaxtda yerləşən tarix-mədəniyyət abidələrinə, istirahət və ictimai iaşə obyektlərinə səfərləri, habelə Ombudsman ilə görüşləri təşkil edilmişdir.

2023-cü ildə Ombudsmanın vəsatəti əsasında əfv olunanlar arasında bir nəfər yetkinlik yaşına çatmayan şəxs də olmuşdur.

Ombudsman 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin nəzdində fəaliyyət göstərən qadın və uşaq sığınacağına baş çəkmiş, müəssisə ilə tanış olmuş, orada yaşayan qadın və uşaqlarla söhbət edərək onların hüquqlarının təmini vəziyyəti ilə maraqlanmışdır.

Ombudsman "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi ilə əməkdaşlıqda Vətən müharibəsi şəhidlərinin övladlarının asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə Lənkəran şəhərində tədbir təşkil etmiş, Lənkəran, Masallı, Lerik və Astarada yaşayan şəhid ailələri və övladları ilə görüş keçirmişdir.

Bakı şəhərindəki 239 saylı tam orta məktəbdə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və uşaq hüquqları" mövzusunda təşkil olunan tədbirdə şagirdlər və müəllim heyəti ilə görüşən Ombudsman mövzu üzrə fikir və tövsiyələrini bildirmiş, uşaqlarla müzakirələr aparılmışdır.

Ombudsman tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində maarifləndirmə tədbirləri davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın "Tərbiyə məqsədilə uşaqlara qarşı hər cür zorakılığın mənfi nəticələri haqqında maarifləndirmə tədbirlərinin medianı cəlb etməklə əhatə dairəsinin genişləndirilməsi"nə dair müvafiq yarımbəndinin icrası məqsədilə Ombudsman Aparatı tərəfindən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə əməkdaşlıqda paytaxt və regionlarda yerləşən ümumtəhsil məktəblərində müəllimlərin, psixoloqların və şagirdlərin iştirakı ilə "Uşaqların zorakılıqdan müdafiəsi" mövzusunda silsilə təlimlər keçirilmişdir. Bakı şəhərində yerləşən ümumtəhsil məktəblərində 390, regionlarda isə 1670 nəfər olmaqla, ümumilikdə 2000-dən artıq şəxs həmin təlimlərdən faydalanmışdır.

Hər il olduğu kimi, 2023-cü ildə də "Uşaq hüquqları haqqında" Konvensiyanın qəbul edilməsinin ildönümü ərəfəsində Ombudsman tərəfindən ölkədə 20 oktyabr-20 noyabr tarixləri "Uşaq hüquqları aylığı" elan edilmişdir. Aylıq çərçivəsində tədbirlərin həyata keçirilməsi məqsədilə 26 mərkəzi icra hakimiyyəti orqanı, publik hüquqi şəxs, qeyri-kommersiya qurumları və 77 yerli icra hakimiyyəti orqanı, habelə Naxçıvan Muxtar Respublikasının (Naxçıvan MR) Ombudsmanı da daxil olmaqla, ümumilikdə 104 quruma məktublar ünvanlanmış, eyni zamanda vətəndaş cəmiyyəti institutlarına Ombudsmanın müraciəti göndərilmiş və aylığa qoşulmaqla müxtəlif tədbirlərin keçirilməsinə çağırış edilmişdir. Aylıq çərçivəsində Ombudsman Aparatı və müvafiq qurumlar tərəfindən silsilə tədbirlər həyata keçirilmişdir.

Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən Bakı şəhərini və regionları əhatə etməklə ümumilikdə 1300-dən artıq maarifləndirmə tədbiri təşkil edilmişdir. Bununla yanaşı, sərgilər, müxtəlif müsabiqələr, idman yarışları, ekskursiyalar təşkil edilmiş, ağacəkmə aksiyaları keçirilmiş, qurumların sosial şəbəkə hesablarında maarifləndirici postlar paylaşılmış, televiziya kanallarında verilişlər təşkil edilmişdir.

Dövlət qurumlarında "Açıq qapı" günləri keçirilmiş, aparılan reyd, yoxlama və müşahidələr nəticəsində müxtəlif hüquqazidd əməllər törədən və hüquqpozmalara

məruz qalan, habelə təhsildən yayınan yeniyetmələr müəyyən edilmiş, müayinəyə ehtiyacı olan uşaqlara tibb müəssisələrində müvafiq xidmətlər göstərilmiş, uşaq evlərində və sığınacaqlarda səyyar həkim müayinələri, uşaq və valideynlərlə müvafiq sosial xidmət və reabilitasiya tədbirləri həyata keçirilmiş, yetkinlik yaşına çatmayan məhkumlarla, hüquqpozma törədən və buna məruz qalan yeniyetmələrlə sosial bərpa və reabilitasiya işi aparılmış və digər tədbirlər təşkil edilmişdir.

Yerli icra hakimiyyəti orqanları, vətəndaş cəmiyyəti institutları və digər aidiyyəti qurumlar tərəfindən də aylıq çərçivəsində silsilə tədbirlər həyata keçirilmişdir.

Ombudsman Aparatı tərəfindən aylıq çərçivəsində ümumilikdə 20 şəhər və rayonda, o cümlədən Bakı, Sumqayıt, Gəncə və Mingəçevir şəhərlərini, Quba, Qusar, Siyəzən, Xızı, Xaçmaz, Şabran, Şəki, Qəbələ, Tovuz, Göygöl, Samux, Lənkəran, Masallı, Cəlilabad, Astara və Salyan rayonlarını əhatə etməklə müəssisələrdə, o cümlədən müvafiq təsisatlarda uşaqların, valideynlərin və uşaqlarla işləyən şəxslərin iştirakı ilə 40-dan artıq hüquqi maarifləndirmə tədbiri keçirilmişdir. Təlimlərə Bakı və Sumqayıt şəhərlərində 400-dən artıq, regionlarda 3000-ə yaxın şəxs cəlb olunmuşdur. Bu sahədə məlumatlılığın artırılması məqsədilə Ombudsman Aparatı tərəfindən “Ombudsmanın fəaliyyətində uşaq hüquqlarının müdafiəsi” adlı maarifləndirici vəsait hazırlanmışdır. Vəsaitdə Ombudsmanın uşaq hüquqlarının müdafiəsi sahəsində fəaliyyətinin hüquqi əsasları, mandatı, fəaliyyət istiqamətləri, “Uşaq hüquqları haqqında” Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi səlahiyyəti və digər məlumatlar yer almışdır.

Ombudsman Aparatının əməkdaşları tərəfindən Naxçıvan MR-də yerləşən uşaq müəssisələrində ilk dəfə monitorinqlər aparılmış, maarifləndirici görüşlər keçirilmişdir.

Naxçıvan MR-in Ombudsman Aparatının əməkdaşlarının iştirakı ilə Naxçıvan MR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Uşaq Bərpa Mərkəzində, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində həyata keçirilən monitorinqlər zamanı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün yaradılmış şərait, onların reabilitasiyası və fərdi bacarıqlarının inkişafı istiqamətində göstərilən xidmətlərlə tanış olan Ombudsman Aparatının əməkdaşları müəssisə əməkdaşları, habelə uşaq və valideynlərlə söhbətlər aparmışlar.

Naxçıvan MR Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə və Ordubad şəhərindəki M.Füzuli adına tam orta internat məktəbində də monitorinq və maarifləndirici görüşlər keçirilmişdir.

Səfər çərçivəsində Naxçıvan MR Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin Yetkinlik Yaşına Çatmayanlar üçün Rejim Bölməsinə baxış keçirilmiş, mövcud şərait araşdırılmış, baxış zamanı bu bölmədə saxlanılan şəxs olmamışdır.

Monitorinqlər zamanı müəssisələrdə sənədləşmə işinin aparılması, bəzi qida məhsullarının saxlanması, tibbi xidmətin göstərilməsi, uşaqların peşə bacarıqlarının artırılması, yataq otaqlarının uşaqların yaş bölgüsünə uyğun təşkili, otaqların standartlara uyğun işıqlandırılması, korpuslarda istilik təchizatı, uşaqların geyim, ayaqqabı, yumşaq inventarlarla təmin olunması və digər məsələlərin təkmilləşdirilməsinə dair tövsiyələr verilmiş, müəssisələrə maarifləndirici nəşrlər təqdim olunmuşdur.

“Uşaq hüquqları aylığı” çərçivəsində görülmüş işlərlə yanaşı, Ombudsman Aparatı tərəfindən 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ərəfəsində Ombudsman tərəfindən elan edilmiş “İnsan hüquqları aylığı” çərçivəsində, habelə müntəzəm olaraq, uşaqlar və onlarla təmasda olan şəxslər üçün uşaq hüquqlarının müdafiəsinə həsr olunmuş mövzularda maarifləndirici tədbirlər keçirilmişdir.

10 Dekabr – Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi çərçivəsində "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda insan hüquqları" mövzusunda keçirilmiş uşaq rəsm müsabiqəsində tam orta ümumtəhsil məktəbləri, orta ixtisas, habelə məktəbdənkənar təhsil müəssisələri, uşaq evləri və internat müəssisələrinin nümayəndələri iştirak etmişdir. Bakı şəhəri ilə yanaşı, ölkənin 21 şəhər və rayonundan 227 uşağın iştirak etdiyi müsabiqədə qaliblər diplom və hədiyyələrlə mükafatlandırılmışdır.

Ombudsman uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrini davam etdirmişdir. Ombudsman və BMT-nin Uşaq Fondu (UNICEF) arasında imzalanmış Fəaliyyət Planı çərçivəsində Ombudsmanın Milli Preventiv Mexanizm mandatı çərçivəsində uşaq hüquqlarının təmini vəziyyətinin monitorinqi, miqrant uşaqların hüquqlarının müdafiəsi və digər istiqamətlərdə tədbirlər icra edilmişdir.

***Ahılların hüquqlarının müdafiəsi.*** Ombudsmanın fəaliyyəti çərçivəsində ahılların sosial, iqtisadi, siyasi və mədəni həyatda iştirakına dəstək göstərilməsi, ayrı-seçkilik ehtimalının qarşısının alınması, ehtiyac və maraqlarının nəzərə alınması istiqamətində tədbirlər davam etdirilmişdir.

Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə öz əksini tapmış ahıl şəxslərə evdə (səyyar) sosial xidmətin göstərilməsi, pensiyaların yenidən hesablanması, sanatoriya-kurort yollayışları ilə təmin olunma, sosial xidmət müəssisəsinə yerləşdirilmə, maddi köməklik, habelə ərzaq yardımının göstərilməsi və bu kimi digər məsələlər araşdırılmış, hüquq pozuntuları aşkar edildiyi hallarda onların təmini ilə bağlı zəruri tədbirlər görülmüşdür.

Ərizəçi N. (1935-23) Ombudsmana müraciət edərək, tənha yaşadığını, özünə qulluq etmək iqtidarında olmadığını, sosial xidmətə ehtiyacı olduğunu bildirmiş, evdə (səyyar) sosial xidmətin təşkilində köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı aparılmış araşdırmadan sonra ərizəçinin tənha ahıl, həmçinin məişət şəraitinin baxımsız vəziyyətdə olduğu müəyyən edilmiş, ona evdə (səyyar) sosial xidmətin göstərilməsi təmin edilmişdir.

Ərizəçi B. (4085-23) Ombudsmana müraciət edərək, ahıl yaşda olduğunu, Parkinson xəstəliyindən əziyyət çəkdiyini bildirmiş, müayinə və müalicəsinin ev şəraitində təşkil edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra ona "Aterosklerotik parkinsonizm" diaqnozuna əsasən əlillik dərəcəsinin təyini məqsədilə Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasına göndəriş verilmişdir.

Ahılların mədəni istirahətinin daha səmərəli təmini məqsədilə Ombudsmanın təşəbbüsü və dəstəyi ilə Ahıl şəxslər üçün həmin sosial xidmət müəssisəsinin sakinləri üçün mədəni-kütləvi tədbirlər təşkil olunmuş, o cümlədən teatr mövsümünün açılışı ilə bağlı Şuşa Dövlət Musiqili Dram Teatrında, daha sonra Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında və Azərbaycan Dövlət Musiqili Teatrında tamaşalara ödənişsiz baxmaq imkanı yaradılmışdır ki, bu da ahıllar tərəfindən yüksək dəyərləndirilmişdir.

Ombudsmanın təşəbbüsü ilə aparatın əməkdaşları əlamətdar günlərdə, habelə "İnsan hüquqları aylığı" çərçivəsində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində olmuş, ahıl şəxslərlə görüşmüş, qayğıları ilə maraqlanmış, ahılların hüquqlarının səmərəli təmini ilə bağlı müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

Ahıl şəxslər üçün həmin sosial xidmət müəssisəsinə əvvəlcədən xəbərdarlıq etmədən keçirilmiş monitorinq zamanı ahıllar üçün yaradılmış şəraitin müyəssərliyi, qidalanma, sosial-məişət və tibbi xidmətlərə çıxış imkanları, habelə asudə vaxtlarının səmərəli təşkili məsələləri araşdırılmış, yaşayış yerlərinə baxış keçirilmişdir. Belə ki,

əvvəlki monitorinqlər və başçəkmələrdə müəyyən olunmuş nöqsanların bir çoxunun həll olunması müşahidə edilsə də, müəyyən problemlərin mövcudluğu aktual olaraq qalır. Belə ki, bundan öncə müəssisədə ahıllara xidmət göstərən personalın çatışmaması, ştat cədvəli üzrə sosial xidmətçi vəzifəsində vakant yerlərin olması faktı aşkarlanmışdır. Məsələ müəssisənin rəhbərliyi qarşısında qaldırılmış və bir çox vakant yerə işçi qüvvəsi cəlb olunmuş, ahıllara həm gündüz, həm də gecə saatlarında qulluqla bağlı problem aradan qaldırılmışdır. Bununla belə, müəssisənin ştat cədvəlinə uyğun olaraq, Sosial xidmətin təşkili şöbəsində 9 iş yeri, habelə bir psixoloq və iki həkim-terapevt vəzifələri vakant olaraq qalır. Bu səbəbdən ahılların sosial-psixoloji reabilitasiyasına yönəlmiş tədbirlərin, həmçinin tibbi müayinələrin az hallarda həyata keçirildiyi müşahidə edilmişdir.

Həmin müəssisədə ümumi vəziyyətin qənaətbəxş olduğu, lakin yataq xəstələri olan otaqlarda siqnal düymələrinin olmadığı, otaqların qapılarının bəzilərinin nasaz olduğu, bəzi otaqlarda süni işıqlandırmanın ümumi qəbul olunmuş texniki normalara uyğun gəlmədiyi, avadanlığın yenilənməsinə və müəssisənin əsaslı təmirə ehtiyacı olduğu müəyyən edilmişdir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin Göygöl rayonundakı 3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinə başçəkmə zamanı ümumilikdə qeydə alınan 122 nəfər sakinin 10 nəfərinin ahıl şəxs olduğu, Gəncə şəhərindəki 4 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsində isə ümumilikdə qeydə alınan 103 nəfər sakinin 6 nəfərinin ahıl şəxs olduğu müəyyən olunmuşdur.

Hər iki müəssisədə keçirilən başçəkmələr zamanı bir sıra çatışmazlıqlar aşkar edilmiş, o cümlədən müəssisələrin profilinə uyğun olaraq sakinlərə keyfiyyətli sosial və tibbi xidmətlərin göstərilməsi üçün zəruri olan bir neçə vəzifənin vakant olması nəzərə alınaraq, məsələnin həlli ilə bağlı müvafiq nazirlik qarşında məsələ qaldırılmışdır.

Ümumilikdə, ahılların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısının alınması, ehtiyacı olan ahıllara sosial xidmətin göstərilməsi səviyyəsinin artırılması məqsədilə aidiyyəti dövlət qurumlarına müvafiq müraciətlər edilmişdir.

***Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi.*** BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının müddəalarına uyğun olaraq, eyni zamanda BMT-nin Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitəsinin tövsiyələri nəzərə alınmaqla ölkəmizdə əlilliyi olan şəxslər üçün hüquqi, iqtisadi, sosial şəraitin yaradılması istiqamətində islahatlar genişləndirilmişdir.

Qeyd edilməlidir ki, həmin Konvensiyanın tələblərinə uyğun olaraq yaradılması nəzərdə tutulan müstəqil monitorinq mexanizminin funksiyalarını yerinə yetirən milli insan hüquqları təsisatı qismində Ombudsmanın müəyyən edilməsi ilə bağlı əvvəlki illik məruzələrdə öz əksini tapmış təklif nəzərə alınmışdır. Belə ki, Ombudsman haqqında Konstitusiya Qanununa edilmiş dəyişikliyə əsasən, Ombudsmana "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın ölkədə icrasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizmi funksiyalarını həyata keçirmək səlahiyyətinin verilməsi mövcud fəaliyyətin müasir çağırışlara uyğunlaşdırılması, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsində səmərəliliyin artırılması, mütərəqqi beynəlxalq təcrübənin ölkəmizdə də tətbiq edilməsi baxımından əhəmiyyətli addımdır.

Ombudsman əlilliyə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, əlilliyi olan şəxslərin reabilitasiyasına, ictimai həyatda iştirakına və sosial inteqrasiyasına şərait yaradılmasını, bu sahədə dövlət proqramlarının hazırlanması, habelə icrası prosesinə onların aktiv cəlb olunmasını, əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının tam və bərabər qaydada həyata keçirilməsini diqqətdə saxlamışdır.

Əlilliyi olan şəxslərdən Ombudsmana ünvanlanmış şikayətlər daim diqqətdə saxlanılmış, bu şəxslərin hüquqlarının səmərəli təmini məqsədilə müxtəlif tədbirlər həyata keçirilmişdir. Belə ki, Ombudsmanın aidiyyəti dövlət qurumlarına müraciətlərindən sonra əlilliyin obyektiv qiymətləndirilməsi ilə bağlı tədbirlər görülmüş, eyni zamanda bu şəxslər müvafiq tibb və reabilitasiya müəssisələrinə göndərilməklə onların müayinə və müalicəsi təşkil olunmuş, ehtiyacı olanlar zəruri dərman preparatları, həmçinin köməkçi texniki vasitələrlə təmin olunmuşlar.

Ərizəçi Ə. (5944-23) Ombudsmana müraciət edərək, əlilliyi olan övladının reabilitasiya vasitəsi (təkərli oturacaq) ilə təmin edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin əlilliyi olan övladı qapalı məkanda istifadə üçün təkərli oturacaqla təmin edilmişdir.

Əlilliyin müvafiq qaydada qiymətləndirilməsi üçün tibb müəssisələri nəzdində fəaliyyət göstərən həkim-məsləhət komissiyaları tərəfindən rəsmiləşdirilmiş göndərişlərə verilmiş imtina cavablarının yoxlanılması məqsədilə şikayətlər əsasında müxtəlif vaxtlarda Ombudsman tərəfindən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, habelə bu nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə müraciətlər edilmişdir.

Ərizəçi M. (120-23) Ombudsmana müraciət edərək, övladının əlilliyinin müəyyən edilməsi ilə bağlı müraciətinin nəticəsiz qaldığını bildirmiş, əlillik vəziyyətinin qiymətləndirilməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladının əlillik vəziyyəti yenidən araşdırılmış, Tibbi-sosial ekspert komissiyasının (TSEK) müvafiq qərarı əsasında qiymətləndirilərək, ümumi səbəbdən orqanizmin funksiyalarının 70% pozulması ilə 2 il müddətinə əlillik təyin edilməsi barədə qərar qəbul edilmişdir.

Ərizəçi C. (375-23) Ombudsmana müraciət edərək, tibb müəssisəsi tərəfindən növbəti dəfə göndərişin rəsmiləşdirilərək TSEK-in reyestrinə daxil edildiyini, lakin ona əlliyin təyin olunmasından imtina edilməsinə dair qərarın qəbul olunduğunu bildirmiş, əlilliyinin təkrar qiymətləndirilməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, ərizəçinin əlillik vəziyyəti Şəmkir Rayon Mərkəzi Xəstəxanasının göndərişi əsasında qiymətləndirilmiş, göndərişin natamam doldurulması səbəbindən əlillik təyinatının aparılması mümkün olmamış, obyektiv vəziyyətinin müayinəsi zamanı göndərişdə qeyd edilmiş diaqnoza, təqdim edilmiş tibbi sənədlərə (epikriz, tibbi müayinələr) və obyektiv müayinələrin nəticəsinə əsasən ümumi xəstəlik səbəbindən orqanizmin funksiyalarının 35 faiz pozulması ilə 1 il müddətinə əlilliyin təyin olunması barədə qərar qəbul edilmişdir.

Ərizəçi H (3324-23) Ombudsmana müraciət edərək, övladının əlilliyinin müəyyən edilməsi üçün bir neçə dəfə müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş göndərişə TSEK tərəfindən imtina barədə qərarın qəbul edildiyini bildirmiş, sosial təminat hüququnun müdafiəsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladının əlillik vəziyyəti yenidən araşdırılmış, TSEK-in müvafiq qərarı əsasında qiymətləndirilərək, ümumi səbəbdən 1 il müddətinə orqanizmin funksiyalarının 35% pozulması barədə qərar qəbul edilmişdir.

Ərizəçi A. (4221-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, autizmdən əziyyət çəkən övladına dair rəsmiləşdirilmiş göndərişə baxılmadığını, bununla bağlı müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə ünvanlanmış müraciətə verilmiş cavabdan məlum olmuşdur ki, ərizəçinin övladının əlillik vəziyyəti Psixonevroloji Reabilitasiya Mərkəzinin göndərişi əsasında qiymətləndirilmiş, ümumi səbəbdən müddətsiz orqanizmin funksiyalarının 70 faiz pozulması barədə qərar qəbul edilmişdir.

İnfrastruktur obyektlərinin əlilliyi olan şəxslər üçün əlçatanlığının təmin edilməsi aktual olaraq qalmaqdadır. Qeyd edilən sahədə müəyyən işlərin görülməsinə baxmayaraq, hələ də əlilliyi olan şəxslərin həyat fəaliyyəti üçün müvafiq əlverişli şəraitin yaradılmasında nəzərəçarpan nöqsanlara rast gəlmək mümkündür.

İstər Bakı şəhərində, istərsə də respublikanın regionlarında təkərli kürsülərin yaşayış evlərinə, ictimai nəqliyyat vasitələrinə, zəruri tibb, sosial, təhsil obyektlərinə sərbəst girişi və çıxışı üçün “universal dizayn” meyarlarına uyğun şəraitin yaradılması, o cümlədən yol və səkilərin yenilənməsi, habelə mövcud standartlara uyğun pandusların, xüsusi eskalatorların, liftlərin və digər bu kimi avadanlıqların quraşdırılması zəruridir.

Eşitmə və nitq məhdudiyyəti olan şəxslərin hüquqlarının səmərəli təmini məqsədilə işarət dilinin rəsmi olaraq ünsiyyət dili kimi qəbul olunması, müvafiq tədris proqramlarına daxil edilməsi, surdotərcüməçi ixtisası üzrə kadr hazırlığının həyata keçirilməsinə diqqətin artırılması məqsədəmüvafiqdir.

Autizm spektrli pozuntulardan əziyyət çəkən uşaqların hüquqlarının müdafiəsinə diqqətin artırılması, belə şəxslərə dövlət qayğısı haqqında qanunun qəbul edilməsi, profilaktika və müalicə, o cümlədən reabilitasiya tədbirlərinə dair müvafiq dövlət proqramının hazırlanması və qəbul edilməsinə də ehtiyac vardır.

BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyasının 24-cü maddəsinə görə, iştirakçı dövlətlər əlilliyi olan şəxslərin təhsil almaq hüququnu, bu hüququn ayrı-seçkiliyə yol vermədən və imkanların bərabərliyi əsasında həyata keçirilməsi üçün bütün səviyyələrdə əlilliyi olan şəxsin həyatı boyu inklüziv təhsilini və təlimini təmin etməlidir. Bu baxımdan, “hamı üçün təhsil” hədəfinin davamı kimi əlilliyi olan şəxslərin birgə tədrisə cəlb edilməsi, onların təhsil hüququnun daha effektiv təmininə geniş imkanların yaradılması vacibdir.

Ölkəmizin regionlarında 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin məktəbəqədər və orta təhsil almaları üçün xüsusi və ümumi təyinatlı dövlət reabilitasiya-inkişaf mərkəzlərinin, habelə ixtisaslı və peşəkar kadrların çatışmazlığı təlim-tərbiyə və reabilitasiya işinin təşkilində çətinliklər yaratmaqdadır.

Məlumatlandırmanın gücləndirilməsi, peşəkar kadr hazırlığının aparılması, köməkçi texnologiyaların təhsil sisteminə gətirilməsi, davranış qaydalarının təbliği və reabilitasiyasında beynəlxalq təcrübənin öyrənilməsi əlilliyi olan şəxslərin sosial və psixoloji problemlərinin həllində zəruridir.

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində aparatın və regional mərkəzlərin əməkdaşları tərəfindən il ərzində təhsil, səhiyyə, penitensiar və sosial xidmət müəssisələrində monitorinqlər aparılmış, əlilliyi olan şəxslərin məişət şəraitinin, sosial problemlərinin, sağlamlıq və digər hüquqlarının təmini məsələləri diqqətdə saxlanılmış, aidiyyəti üzrə təklif və tövsiyələr verilmişdir. Bu qəbildən olan şəxslərin maarifləndirilməsi, onlara qarşı yol verilən hər hansı ayrı-seçkilik, qeyri-insani rəftar və digər hüquq pozuntularının aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi və təşviqi məqsədilə Ombudsmanın təşəbbüsü və iştirakı ilə dövlət qurumları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq təşkilatlarla əməkdaşlıqda təşkil olunmuş tədbirlərdə əhalinin həssas qrupları, o cümlədən əlilliyi olan şəxslər üçün müxtəlif xidmətlərə əlçatanlığın təmin olunması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr barədə müzakirələr aparılmışdır.

Milli İnsan Hüquqları İnstitutlarının Avropa Şəbəkəsinin Əlilliyi olan Şəxslərin Hüquqlarının Müdafiəsi Komitəsinin İşçi Qrupunun üzvləri ilə davamlı görüşlər keçirilmiş, görülən işləri əks etdirən birgə bülletenlərdə Ombudsmanın bu sahədəki fəaliyyəti əks etdirilmişdir.

***Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi.*** Penitensiar müəssisələrin müasir standartlara uyğunlaşdırılması məqsədilə yenidən qurulmasına, saxlanılma şəraitinin və tibbi-sanitariya xidmətinin yaxşılaşdırılmasına, bu müəssisələrdə insan hüquqlarının təmin olunmasına yönəlmiş tövsiyələr üzrə tədbirlər davam etdirilmişdir. Ombudsmanın müasir standartlara cavab verən yeni penitensiar müəssisələrin inşası ilə bağlı əvvəlki illərdə irəli sürdüyü təkliflər də nəzərə alınaraq, Bakı şəhərinin Umbakı qəsəbəsində müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumlar, habelə təqsirləndirilən şəxslər üçün yeni müasir penitensiar kompleks istifadəyə verilmişdir.

Həbs yerlərində saxlanılan şəxslər, məhkumlar, onların ailə üzvləri və müdafiəçiləri tərəfindən Ombudsmana və onun Çağrı Mərkəzinə ünvanlanmış ərizə və şikayətlər, o cümlədən görüş, telefon danışığı, tibbi yardım və bu kimi digər məsələlərlə bağlı müraciətlər araşdırılmış, başçəkmələr zamanı saxlanılan şəxslərin qanunvericiliklə təsbit edilmiş hüquqlarının təmin olunması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ərizəçi A. (3659/2-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Bakı istintaq təcridxanasında saxlanılan həyat yoldaşı ilə görüşünün və telefon danışığının təmin edilmədiyini bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı həmin Xidmətə ünvanlanmış müraciətdən sonra ərizəçinin həyat yoldaşının telefon danışığı təmin edilmişdir.

Ərizəçi Ə. (3180/4-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Penitensiar Xidmətin Həbsxanasında cəza çəkən övladının 15 saylı cəzaçəkmə müəssisəsinə köçürüləcəyi barədə ona məlumat verildiyini, lakin övladının onunla əlaqə saxlamadığını və olduğu yer barədə məlumatının olmadığını bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı həmin Xidmətə ünvanlanmış müraciətə verilmiş cavabda ərizəçinin övladının həbsxana rejimi bitdikdən sonra 15 saylı cəzaçəkmə müəssisəsinə köçürüldüyü, həmçinin anası ilə qısamüddətli görüşü və telefon danışığı təmin olunmuşdur.

Ərizəçi S. (9151/2-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Bakı İstintaq Təcridxanasında saxlanılan övladına sovqat apardığını, lakin görüşə icazə verilmədiyini bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Görülmüş tədbirlər nəticəsində ərizəçinin övladı ilə görüşü təmin edilmişdir.

Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların sağlamlıq vəziyyəti diqqətdə saxlanılmış, tibbi müayinə, ambulator və ya stasionar müalicə ilə bağlı müraciətlər təmin olunmuşdur.

Ərizəçi H. (2962/4-23) Ombudsmana müraciət edərək, Bakı İstintaq Təcridxanasında saxlanılan övladının səhhətində problemlərin yarandığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladı saxlanıldığı müəssisənin tibb-sanitar hissəsinin həkimləri tərəfindən təkrar klinik, instrumental və laborator müayinələrdən keçirilmiş, subyektiv şikayətlərinə uyğun olaraq ona ambulator müalicə təyin olunmuşdur.

Ərizəçi S. (11314-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Penitensiar Xidmətin 10 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən övladının onkoloji xəstə olduğunu, səhhəti ilə əlaqədar həmin Xidmətin Müalicə Müəssisəsinə göndərildiyini, lakin müalicəsi tam aparılmadan geri qaytarıldığını bildirmiş, zəruri

tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə ünvanlanmış müraciətdən sonra Milli Onkologiya Mərkəzində ərizəçinin övladı üzərində endoskopik polipektomiya cərrahi əməliyyatı icra edilmişdir.

Ərizəçi K. (13053-23) Ombudsmana müraciət edərək, Penitensiar Xidmətin 13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən atasının fəqərəarası disk yırtığı ilə bağlı həmin Xidmətin Müalicə Müəssisəsinə köçürüldüyünü, əməliyyat olunması barədə müraciətinə baxılmadığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə ünvanlanmış müraciətdən sonra ərizəçinin atası Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında MRT müayinəsindən keçirilmiş, müəyyən edilmiş fəqərəarası disk yırtığının ləğv olunması ilə bağlı cərrahiyyə əməliyyatı icra olunmuşdur.

Ərizəçi Z. (631/2-23) Ombudsmana müraciət edərək, Penitensiar Xidmətin Bakı İstintaq Təcridxanasında həbsdə olan həyat yoldaşının görmə qabiliyyətinin zəif olduğunu və bundan əziyyət çəkdiyini bildirmiş, onun müayinə və müalicəsinin Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsində təşkilində köməklik göstərilməsini xahiş etmişdir. Ombudsmanın müdaxiləsindən sonra ərizəçinin həyat yoldaşı müvafiq klinikada özünün seçdiyi həkim tərəfindən müayinə olunmuş, onda “OU fəsadlı katarakta. Makulyar ödəm" müəyyən edilmiş, ambulator müalicə təyin edilmişdir.

Göründüyü kimi, məhkumların və təqsirləndirilən şəxslərin tibbi yardımla təminatı məsələsi bir sıra hallarda Ombudsmanın müdaxiləsindən sonra öz müsbət həllini tapmışdır. Araşdırmalar göstərir ki, bu sahədə problemlər hələ də qalmaqdadır. Odur ki, müvafiq müəssisələrdə saxlanılan şəxslərin sağlamlığının qorunması hüququnun həyata keçirilməsinə və təmin olunmasına diqqətin artırılması zəruridir.

Penitensiar müəssisələrdə cəza çəkən əlilliyi olan məhkumların müayinə və müalicələri, əlillik sənədləri, protezləri, eləcə də pensiya almaq hüquqlarının təmin edilməsi daim Ombudsmanın diqqətində olmuşdur. İl ərzində əlilliyi olan bir sıra şəxslər müraciətləri əsasında ortopedik ayaqqabı və corab, ayaq protezi və əlil arabası ilə təmin edilmişdir. Bundan başqa, məhkumların əlillik dərəcəsinin təyini, o cümlədən tibb müəssisəsi tərəfindən göndərişin rəsmiləşdirilməməsi ilə bağlı şikayətlər də daxil olmuş, aidiyyəti orqanlara müraciətlərdən sonra qeyd edilən məsələlər öz həllini tapmışdır.

Ərizəçi K. (9982/2-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Penitensiar Xidmətin Müalicə Müəssisəsi tərəfindən əlilliyinin növbəti dəfə qiymətləndirilməsi üçün göndərişin düzgün tərtib edilərək yenidən göndərilmədiyini bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə ünvanlanmış müraciətdən sonra əlilliyin növbəti qiymətləndirilməsi ilə bağlı ərizəçi Müalicə Müəssisəsinə köçürülərək tibbi tədbirlərə cəlb olunmuş, müayinələrin nəticələri və düçar olduğu xəstəliyin ağırlıq dərəcəsi barədə həmin müəssisənin həkim-məsləhət komissiyasının rəyi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin elektron məlumat bazasına daxil edilmişdir.

Ərizəçi K. (9986-23) Ombudsmana müraciət edərək, əlillik vəziyyətinin qiymətləndirilməsi üçün göndərişin rəsmiləşdirilməsinə baxmayaraq, nəticəsiz qaldığını bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin əlillik vəziyyəti Tibb Baş İdarəsinin göndərişi əsasında qiymətləndirilmiş və ona ümumi xəstəlik - gözdən əlilliyi olan şəxs olması səbəbindən orqanizmin funksiyalarının 50 faiz pozulmasına görə müddətsiz əlillik təyinatı barədə qərar qəbul edilmişdir.

Qeyd edilməlidir ki, bir çox hallarda tibb müəssisələri tərəfindən göndərişin düzgün tərtib olunmaması da əlillik təyinatı ilə bağlı qərar qəbul edilməsində çətinliklər

yaradır. Belə hallar həmin məhkumların sosial təminat hüququnun pozulmasına səbəb olur.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 79-cu maddəsinə əsasən, məhkumlar bir cəzaçəkmə müəssisəsinin daxilində rejim növündən asılı olaraq adi və ya yaxşılaşdırılmış şəraitdə saxlanıla bilərlər. Həmin Məcəllənin 91-ci maddəsinə müvafiq olaraq, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər cəzaçəkmə müəssisələrində sanitariya və gigiyena qaydalarına uyğun zəruri maddi-məişət şəraiti ilə təmin olunurlar. Cəzaçəkmə müəssisələrində, tərbiyə müəssisələrində və həbsxanalarda hər məhkum üçün yaşayış sahəsinin norması dörd kvadratmetrdən, müalicə müəssisələrində isə beş kvadratmetrdən az ola bilməz.

Penitensiar müəssisələrdə məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması ilə bağlı məsələlər Ombudsmanın daim diqqətində olmuş, şikayətlərdə öz əksini tapmış bir sıra məsələlərlə bağlı aidiyyəti dövlət orqanlarına müraciətlər edilmiş və həllini tapmışdır.

Ərizəçi A. (6071/6-23) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Bakı İstintaq Təcridxanasında saxlanılan qardaşının saxlanıldığı kameranın dəyişdirilərək xüsusilə ağır cinayət törətməkdə təqsirləndirilən şəxslərlə eyni kameraya keçirildiyini, onun astma xəstəliyindən əziyyət çəkdiyini, həmin kameranın havasının ona mənfi təsir etdiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Penitensiar Xidmətə ünvanlanmış müraciətdən sonra ərizəçinin qardaşının saxlanıldığı kamera dəyişdirilərək digər kameraya keçirilmişdir.

Ərizəçi Ə. (869/2-23) Ombudsmana müraciət edərək, cəza çəkdiyi Penitensiar Xidmətin Həbsxanasında saxlanma şəraitindən narazı qaldığını bildirmiş, əvvəllər saxlanıldığı kameraya qaytarılmasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə müraciətdən sonra ərizəçinin yeri bundan əvvəl saxlanıldığı kameraya dəyişdirilmişdir.

Ombudsmanın və aparatın əməkdaşlarının iştirakı ilə məhkumların hüquqlarının daha səmərəli təmin olunması və onlara qanunlara hörmət ruhunun aşılanması məqsədilə cəzaçəkmə müəssisələrində silsilə maarifləndirmə tədbirləri keçirilmiş, insan hüquqları sahəsində milli, regional və beynəlxalq sənədlərin, habelə "Məhbuslarla Davranışın Minimal Standart Qaydaları"nın müddəaları ilə bağlı geniş məlumat verilmiş, suallar cavablandırılmışdır.

Göstərilənlərlə yanaşı, qadın məhkumların vəziyyəti Ombudsmanın fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil edir. Ombudsman və təsisatın əməkdaşları görüşlərində, habelə müntəzəm baxışlar zamanı məhkum və həbs yerlərində saxlanılan qadınlara onların hüquqlarını, əfvetmə haqqında əsasnamənin və digər normativ hüquqi aktların tələblərini izah edir, cəza müddətini başa vurduqdan sonra ailələrinə qayıtmalarını, faydalı əməklə məşğul olmalarını tövsiyə edirlər.

Qeyd olunmalıdır ki, bayram günləri ərəfəsində qadın məhkumlarla görüşlər keçirilir, anaları ilə birlikdə saxlanılan körpələrə bayram hədiyyələri təqdim edilir.

Yetkinlik yaşına çatmayan məhkumların vəziyyəti diqqətdə saxlanılmışdır. Penitensiar Xidmətin Tərbiyə Müəssisəsində həyata keçirilmiş maarifləndirmə tədbirləri zamanı burada cəza çəkən yetkinlik yaşına çatmayan məhkumlara beynəlxalq və milli qanunvericilik, o cümlədən hüquq və vəzifələri, hüquq-müdafiə mexanizmləri, preventiv tədbirlər haqqında məlumat verilmiş, qidalanma rejimi, psixoloji yardımın və göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, orta və peşə təhsili, habelə idman-sağlamlıq işinin və asudə vaxtın təşkili ilə bağlı müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

Penitensiar müəssisələrdə məhkumların əməyə cəlb edilməsi onların islah prosesinin ən vacib elementlərindən biridir.

2023-cü ildə məhkumların əmək hüquqlarının təmini ilə bağlı Ombudsmanın təklifləri nəzərə alınaraq, ictimai faydalı əməyə cəlb olunmuş məhkumların sayı 2,7%

artmış və bununla da 4.802 nəfər təşkil etmiş, eyni zamanda penitensiar müəssisələrdə 40 yeni iş yeri yaradılmışdır.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə institutunun tətbiqi də Ulu Öndər Heydər Əliyevin humanizm siyasətinin uğurla inkişaf etdirilməsinin təzahürü olmaqla cinayət-hüquq siyasətinin humanizmini nümayiş etdirməklə cinayət törətmiş şəxslərin islah olunma prosesinin sürətləndirilməsinə, onların sosial adaptasiyasına geniş imkan yaradır. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məsələlər üzrə Ombudsmanın əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də təklifləri nəzərə alınaraq, 4204 nəfər cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmuş, 72 nəfər məntəqə tipli cəzaçəkmə müəssisələrinə keçirilmiş, 5 nəfər Xüsusi Həkim Ekspert Komissiyasının rəyi əsasında ağır xəstəliyə görə azadlığa buraxılmışdır.

Qeyd edilənlərlə yanaşı, 2023-cü ildə alternativ qətimkan tədbirləri tətbiq edilərək, 1500-dən çox həbs edilmiş şəxs barəsində qətimkan tədbiri digər qətimkan tədbirləri ilə əvəz edilmiş və ya qanunvericilikdə nəzərdə tutulmuş başqa əsaslarla həbsdən azad edilmişlər.

Ombudsman məhkumların və onların ailə üzvlərinin əfv haqqında müraciətlərini nəzərə alaraq, müntəzəm olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasına müraciətlər etmiş, eyni zamanda həmin komissiyanın iclaslarında iştirak etmişdir.

“Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 may tarixli Sərəncamı ilə Ombudsmanın da təklifləri nəzərə alınaraq, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 801 şəxs əfv edilmişdir.

Ölkəmizdə qısa müddətdə ümumilikdə 12 amnistiya aktı qəbul edilmiş, 69 əfv fərman və sərəncamları imzalanmış, nəticədə minlərlə məhkum cəzanın çəkilməmiş hissəsindən azad olunmuşdur. Ombudsmanın fəaliyyəti dövründə isə onun vəsatəti ilə ümumilikdə 864, 2023-cü ildə isə 59 məhkum əfv edilmişdir.

## II fəsil.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Ombudsmanın beynəlxalq və regional təşkilatlarla, üzv olduğu qurumlarla, habelə xarici ölkələrdən olan həmkarları ilə əməkdaşlığı 2023-cü ildə də uğurla davam etdirilmişdir.

Ombudsman haqqında Konstitusiya Qanununa edilmiş dəyişikliyə əsasən, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi ilə bağlı Ombudsmana yeni səlahiyyətlər verilməsi müvafiq beynəlxalq konvensiyaların implementasiyası sahəsində ölkə üzrə qəbul edilmiş tövsiyələrin təmini baxımından böyük əhəmiyyət daşıyır.

2023-cü ildə Ombudsmanın "İnformasiya Komissarlarının Beynəlxalq Konfransı" təşkilatına tamhüquqlu üzv seçilməsi beynəlxalq əməkdaşlıq sahəsində əldə edilmiş növbəti nailiyyətlərdəndir. Bu təşkilat dünya üzrə informasiya əldə etmək hüququ sahəsində fəaliyyət göstərən ombudsmanları birləşdirən qlobal şəbəkə kimi çıxış etməklə üzv qurumlar arasında bilik və təcrübə mübadiləsi aparılması baxımından mühüm əhəmiyyətə malikdir.

Ombudsmanın beynəlxalq əməkdaşlıq əlaqələri çərçivəsində əsas fəaliyyət istiqamətlərindən biri də insan hüquqlarının müdafiəsi sahəsində mövcud müsbət təcrübələrin mübadiləsi, habelə Azərbaycana qarşı beynəlxalq hüququn pozulması faktları barədə insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq və regional təşkilatların və digər ölkələrin ombudsman və milli insan hüquqları təsisatlarının məlumatlandırılması olmuşdur. Bununla yanaşı, ölkəmizin əleyhinə yönələn qərəzli çağırışlara qarşı dərhal reaksiyalar verilmiş, Ermənistan tərəfindən beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarının pozulması faktları ilə bağlı beynəlxalq və regional qurumlara müraciətlər edilmişdir.

"Human Rights Watch" beynəlxalq qeyri-hökumət təşkilatının 2022-ci il üzrə hesabatında Azərbaycanla bağlı əsassız ittihamların yer alması ilə əlaqədar Ombudsmanın cavab reaksiyası həmin təşkilatın, eləcə də yerli və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmışdır. Ombudsman cavab reaksiyasında beynəlxalq qeyri-hökumət təşkilatının hazırladığı hesabatın qərəzli olduğunu, mövcud hadisələrin düzgün qiymətləndirilmədiyini, Ermənistanın törətmiş olduğu müharibə cinayətlərinə hər hansı bir münasibət bildirilmədiyini, ikili standartlara yol verildiyini qeyd etmişdir.

Ombudsman tərəfindən BMT, Avropa Şurası və digər qurumların nümayəndələrinin Xankəndi-Laçın yolunun bağlı olması iddiaları ilə əlaqədar əsassız açıqlamalarına reaksiya verilmişdir. Belə ki, həmin reaksiyalarda bu yolun humanitar məqsədlər üçün açıq olduğu vurğulanaraq qərəzli yanaşmalar faktlarla təkzib edilmiş, bu cür bəyanatların Azərbaycan və Ermənistan arasında, eləcə də regionda sülhün bərqərar olmasına maneə yaratdığı qeyd olunmuşdur.

2023-cü il 27 yanvar tarixində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə terror aktının təşkil edilməsi nəticəsində səfirlik əməkdaşlarının həlak olması və xəsarətlər alması faktı ilə bağlı Ombudsman tərəfindən bəyanat yayımlanmış, bu hücumun diplomatik əlaqələrlə bağlı beynəlxalq konvensiyaların tələblərini kobudcasına pozduğu bildirilmişdir.

Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzü nəticəsində 30 ilə yaxın davam etmiş işğal dövründə ekoloji terror siyasətinin həyata keçirilməsi, flora və faunanın məhv edilməsi, su mənbələrinin çirkləndirilməsi, təbii ehtiyatların qanunsuz istismarı və talanması faktları ilə bağlı Ombudsman beynəlxalq təşkilatlara müraciətlər ünvanlamış, Ermənistanın işğal zamanı və sonrakı dövrdə Azərbaycan ərazilərində

basdırdığı minaların səbəb olduğu itkilər, regionun ekoloji təhlükəsizliyi üçün ciddi təhdid yaradan Metsamor Atom Elektrik Stansiyasının istifadəsi, Oxçuçayın kimyəvi tullantılarla çirkləndirilməsi barədə məlumatlar diqqətə çatdırılmışdır.

Məlum olduğu kimi, Azərbaycan Ombudsmanı İkinci Qarabağ müharibəsi dövründən başlayaraq, Azərbaycana qarşı Ermənistan tərəfindən törədilən cinayətlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması istiqamətində geniş fəaliyyət həyata keçirir, bu mövzu ilə əlaqədar hesabatlar hazırlayaraq insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlara ünvanlayır. 2023-cü ildə bu fəaliyyətin davamı olaraq, Ombudsman tərəfindən Ermənistanın azərbaycanlılara qarşı törətdiyi cinayətlər və beynəlxalq hüququn pozulması faktlarını özündə ehtiva edən 3 geniş hesabat hazırlanaraq yerli ictimaiyyətin və aidiyyəti beynəlxalq təşkilatların diqqətinə təqdim olunmuşdur.

Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş cinayətlərin, eyni zamanda beynəlxalq humanitar hüququn pozulması hallarının sübutu olan kütləvi məzarlıqların aşkarlanması faktları nəzərə alınaraq, Ombudsmanın Xocavənd rayonunun Edilli kəndində tapılan kütləvi dəfn yerləri ilə bağlı xüsusi hesabatı hazırlanmış, yerli və beynəlxalq ictimaiyyətə təqdim olunmuşdur. Həmin hesabatda azərbaycanlılara məxsusluğu təsdiq olunmuş insan qalıqlarının qeyri-insani formada dəfn edilməsinə dair müstəqil yerində araşdırmanın nəticələri, çoxsaylı fotosübutlar yer almış, eyni zamanda beynəlxalq hüququn bu sahəyə aid tələbləri ilə bağlı məlumatlar öz əksini tapmışdır. Yekunda itkin düşmüş soydaşlarımızın taleyinə aydınlıq gətirilməsi, sağ qalanların Azərbaycana təhvil verilməsi, qətlə yetirilənlərin isə kütləvi dəfn olunduğu yerlər barədə məlumatların təqdim edilməsi, həmçinin mina basdırılmış ərazilərin dəqiq xəritələrinin verilməsi və Ermənistan hərbi-siyasi rəhbərliyi ilə bağlı hüquqi məsuliyyət tədbirlərinin görülməsi üçün qəti mövqe göstərilməsi ilə bağlı dünya ictimaiyyətinə çağırış ünvanlanmışdır.

Ermənistan tərəfindən hərbi əməliyyatlarda, hərbi qruplaşmalarda və ümumilikdə nifrət siyasətində uşaqlardan istifadə edilməsi ilə bağlı Ombudsmanın hesabatı aidiyyəti beynəlxalq təşkilatların və ölkə ictimaiyyətinin diqqətinə təqdim edilmişdir. Həmin hesabatda Ermənistanda fəaliyyət göstərən hərbi qruplaşmalar tərəfindən uşaqları öz sıralarına cəlb edərək onlara silahla davranış, çətin maneələrin dəf edilməsi, ərazilərin minalanması və bu kimi digər bacarıqların öyrədilməsi istiqamətində həyata keçirilən fəaliyyəti foto və videolarla özündə əks etdirən materiallara geniş yer verilmişdir. Sənəddə, eyni zamanda kiçik yaşlarından uşaqlara Azərbaycana qarşı nifrətin aşılanması kimi insan hüquqlarına hörmətsiz yanaşmaları özündə əks etdirən faktlar təqdim edilmiş, beynəlxalq hüququn Ermənistan tərəfindən pozulan aidiyyəti normaları ətraflı şəkildə qeyd olunmuş və bu əməllərin qarşısının alınması üçün dünya ictimaiyyətinə, o cümlədən aidiyyəti beynəlxalq təşkilatlara çağırış edilmişdir.

Birinci Qarabağ müharibəsinin ən ciddi humanitar nəticələrindən biri olan itkin düşmüş şəxslərlə bağlı hazırlanmış hesabat 30 Avqust – Beynəlxalq İtkin Düşmüş Şəxslər Günündə yerli və beynəlxalq ictimaiyyətə təqdim edilmişdir. Hesabatda bir neçə itkin düşmüş şəxsin ailə üzvləri ilə keçirilmiş görüşlər, habelə bu görüşlər zamanı əldə edilmiş məlumatlar, azad olunmuş ərazilərdə tapılan kütləvi məzarlıqlarda itkin hesab edilən şəxslərin qalıqlarının qeyri-insani vəziyyətdə basdırılmasının aşkarlanması faktları, məsələnin beynəlxalq hüquq çərçivəsində təhlili, Ombudsmanın mandatı çərçivəsində bu istiqamətdə atılan addımlar barədə məlumatlar yer almış, həmin soydaşlarımızın taleyinin aydınlaşdırılması üçün dünya ictimaiyyətinə çağırış edilmişdir.

İtkin düşmüş azərbaycanlıların taleyinə aydınlıq gətirilməsi məsələsi beynəlxalq tədbirlər və xarici səfərlərdə də Ombudsman tərəfindən mütəmadi olaraq qaldırılmışdır.

Hərbi münaqişələr, insan hüquqlarının pozulması, təbii fəlakətlər, qeyri-qanuni miqrasiya və digər səbəblər nəticəsində itkin düşmüş şəxslərlə bağlı məsələlərin həlli istiqamətində fəaliyyət göstərən İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyanın

nümayəndə heyətini qəbul edən Ombudsman dörd minə yaxın azərbaycanlının Birinci Qarabağ müharibəsindən etibarən itkin düşmüş şəxs hesab olunması, Ermənistanın onların sonrakı taleyi barədə hələ də məlumat verməməsi və bu səbəbdən humanitar hüququn pozulması hallarına görə məsuliyyət daşıdığını xüsusi olaraq qeyd etmişdir.

Ombudsmanın təşəbbüsü ilə Quba şəhərində 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar hibrid formatda konfrans təşkil olunmuş, bu sahədə ixtisaslaşmış ekspertlərin, Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun, Türkiyə Respublikası Nəcməddin Ərbakan Universitetinin nümayəndələrinin mövzu üzrə məruzələri dinlənilmişdir. Tədbir çərçivəsində Quba Soyqırımı Memorial Kompleksi ziyarət edilmişdir.

Ermənistanın mina terrorunun işğaldan azad edilmiş müxtəlif rayonlarımızda çoxsaylı insan tələfatına səbəb olması, quruculuq işlərinin aparılmasına və keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışına maneə yaratması ilə bağlı mütəmadi olaraq Ombudsman tərəfindən reaksiyalar yayımlanmış və dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi məqsədilə davamlı olaraq çağırışlar edilmişdir.

4 Aprel – Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günü ilə əlaqədar Ombudsman dünya ictimaiyyətinə müraciət ünvanlamış, Ermənistanın işğal dövründə, habelə işğaldan azad edildikdən sonra Azərbaycan ərazilərini təxribat-diversiya qrupları vasitəsilə minalaması faktını pisləmiş, yaşamaq və sağlamlığın qorunması hüquqlarının təmini naminə mina terroruna qarşı mübarizədə həmrəyliyə səsləmişdir.

Ombudsman, həmçinin Azərbaycanın qarşılaşdığı mina probleminin dünya ictimaiyyətinin diqqətinə çatdırılması məqsədilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və BMT-nin birgə təşkilatçılığı ilə Ağdamda keçirilmiş “Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol” mövzusunda ikinci beynəlxalq humanitar minatəmizləmə konfransına, habelə ANAMA-nın 25 illik yubileyinə həsr edilmiş tədbirə qatılmışdır.

Ombudsman tərəfindən davamlı olaraq beynəlxalq təşkilatların diqqətinə çatdırılan növbəti önəmli məsələ Ermənistanın işğalından azad edilmiş ərazilərdə aşkarlanan kütləvi məzarlıqlarda azərbaycanlılara məxsus insan qalıqlarının qeyri-insani şəkildə basdırılması və onlara işgəncə verilərək qətlə yetirilməsi kimi hallarla, həmçinin Ermənistanın soyqırımı siyasətini təsdiqləyən faktlarla bağlı olmuşdur. Ombudsman Ağdam rayonunun Ergi düzü ərazisində, Şuşa həbsxanası yaxınlığında, Qubadlı və Zəngilanda kütləvi məzarlıqların tapılması ilə bağlı beynəlxalq qurumlara ayrıca müraciətlər ünvanlamışdır.

Başlıbel qətliamının 30-cu ildönümü ilə bağlı müraciət yayımlayan Ombudsman dinc azərbaycanlılara qarşı törədilmiş bu amansız əməlin kəskin etnik nifrət zəminində törədildiyini vurğulamışdır. Müraciətdə Kəlbəcər rayonunun azad edilməsindən sonra həmin faciə zamanı qətlə yetirilənlərin dəfn yerlərinin üzə çıxdığı, lakin girov götürülən kənd sakinlərinin taleyinin hələ də itkin düşmüş şəxs kimi naməlum qaldığı bildirilmiş, bu kimi əməllər törədərək fundamental insan hüquqlarını kobudcasına pozan Ermənistanın beynəlxalq hüquq məsuliyyətinə cəlb edilməsi dünya ictimaiyyətindən tələb olunmuşdur.

Ermənistan tərəfindən Azərbaycan Ordusunun iki əsgəri – Aqşin Bəbirov və Hüseyn Axundovun əsir götürülməsi, H.Axundovun işgəncə və qeyri-insani rəftara məruz qalması hallarını özündə əks etdirən foto və videomaterialların Ermənistanda sosial şəbəkə səhifələrində yayılması, daha sonra onlara ittihamlar irəli sürülməsi və əsassız həbs qərarları çıxarılması ilə bağlı məsələ Ombudsmanın diqqətində olmuş, bu mövzu ilə bağlı davamlı olaraq Beynəlxalq Qızıl Xaç Komitəsi və digər aidiyyəti qurumlarla əlaqə yaradılmış, onların hüquqlarının təmini və dərhal azad olunmaları ilə bağlı çağırışlar edilmişdir. Ombudsman mediaya açıqlama ilə çıxış edərək, H.Axundova ömürlük həbs cəzası verilməsini insan hüquqlarının pozuntusu kimi qiymətləndirmişdir. Həmin hərbi qulluqçularımız ölkəyə qaytarıldıqdan sonra Ombudsman onlarla görüş

keçirmiş, Ermənistanda saxlandıqları müddət ərzində onlara qarşı rəftar məsələləri barədə məlumat almış, qayğılarını öyrənmişdir.

ABŞ Dövlət Departamentinin Azərbaycana dair 2022-ci il üzrə hesabatında Ombudsmanın fəaliyyəti ilə bağlı həqiqəti əks etdirməyən fikirlərlə bağlı da ictimaiyyətə açıq münasibət yayımlanmış, saxlanılan şəxslərin hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilmiş başçəkmələr və tədbirlər faktlar əsasında nəzərə çatdırılmışdır. Belə ki, 250-yə yaxın müəssisədə Ombudsman və onun milli preventiv qrupunun üzvləri tərəfindən davamlı olaraq monitorinqlər aparıldığı, yüzlərlə saxlanılan şəxsin fərdi qəbul edilərək müraciətlərinin dinlənildiyi və onlara ünvanlanan maarifləndirmə tədbirlərinin keçirildiyi qeyd olunmuşdur. Ombudsmanın Çağrı Mərkəzinin 24/7 rejimində fəaliyyət göstərdiyi və əlçatanlığın təmin edildiyi, hər hansı ayrı-seçkiliyə yol verilmədən müraciətlərin qəbul edilərək araşdırıldığı, vətəndaş cəmiyyətinin də preventiv başçəkmələrə cəlb olunduğu və Ombudsmanın bu əməkdaşlığı davamlı olaraq təşviq etdiyi diqqətə çatdırılmışdır.

Yeri gəlmişkən, Ombudsman ABŞ Dövlət Departamentinin Beynəlxalq Din Azadlığı Ofisinin nümayəndələrini qəbul edərkən onlara fəaliyyət istiqamətləri barədə məlumat vermiş, Ombudsmana bütün əhali qruplarından ünvanlanan müraciətlərə hər hansı ayrı-seçkilik olmadan həssaslıqla yanaşıldığını qeyd etmişdir. Ombudsmanın bölgələrdə də əhalinin maarifləndirilməsinə diqqət yetirdiyi və vətəndaş cəmiyyəti institutları ilə də sıx əməkdaşlıq etdiyi qonaqların diqqətinə çatdırılmışdır.

Ermənistanın regionda sülh quruculuğuna zərbə vuran təxribatlarına, silahlı hücumlarına Ombudsman tərəfindən davamlı olaraq münasibət bildirilmiş və beynəlxalq tərəfdaşlar bu hallar barədə müntəzəm şəkildə məlumatlandırılmışdır.

15 iyun tarixində Laçın sərhəd-buraxılış məntəqəsində törədilmiş silahlı təxribata Ombudsman tərəfindən operativ reaksiya verilməklə müraciət yayımlanmış, humanitar məqsədlər üçün istifadə edilən həmin məntəqənin atəşə tutulmasının insanların həyat və sağlamlığına ciddi təhdid yaratdığı və bunun Ermənistanın sülh prosesində maraqlı olmadığını növbəti dəfə sübut etdiyi bildirilmişdir.

Ermənistanda və digər xarici ölkələrdə Azərbaycanofobiya siyasətinin təzahürlərinin özünü göstərməsi, rəsmi şəxslərin çıxış və nitqlərində, habelə sosial şəbəkələrdə azərbaycanlılara qarşı nifrət nitqindən istifadə edilməsi məsələsi də daim Ombudsmanın diqqətdə saxladığı məsələlərdəndir.

Ombudsman Ağırlıqqaldırma üzrə Avropa Çempionatının Ermənistanda keçirilmiş açılış mərasimi zamanı Azərbaycan Respublikasının Dövlət Bayrağının yandırılmasına sərt münasibət bildirmiş, beynəlxalq təşkilatları, o cümlədən Beynəlxalq Ağırlıqqaldırma Federasiyasını və Beynəlxalq Olimpiya Komitəsini nifrət motivli bu vandalizm aktına görə təşkilatçı dövlətə qarşı qəti tədbirlərin görülməsinə çağırmışdır.

Bununla yanaşı, XX əsrin əvvəllərində azərbaycanlı-türk dövlət xadimlərinə qarşı terror aktları törətmiş “Nemezis” adlı təşkilatın üzvlərinin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Ermənistanda dövlət rəsmilərinin iştirakı ilə abidənin açılışının keçirilməsi faktına dair Ombudsman tərəfindən etiraz bəyanatı verilmiş, nifrət və terror siyasətini təbliğ edən bu kimi əməllərə qarşı sərt reaksiya verilməsi tələb edilmişdir.

Ombudsman Ermənistan tərəfindən azərbaycanlılara qarşı kəskinləşən nifrət təbliğatının göstəricisi olaraq Azərbaycan Respublikasının Livandakı Səfirliyi qarşısında 50-yə yaxın erməniəsilli şəxsin radikal çağırışlar səsləndirərək səfirliyin inzibati binasına hücum təşkil etməsinə də reaksiya vermiş, bu əməli azərbaycanlı diplomatların həyat və sağlamlığına qarşı yönələn təxribat kimi qiymətləndirmiş, Livanda və daha əvvəl digər bir neçə ölkədə də diplomatik nümayəndəliklərimizə edilən bu cür hücumların ciddi narahatlıq doğurduğunu bildirmişdir.

Azərbaycanla Ermənistan arasında münaqişənin sona çatması və iki ölkə arasında yeni sülh səhifəsinin açılması, insanların pozulmuş hüquqlarının bərpası və gələcəkdə bu cür halların təkrarlanmasının qarşısının alınması üçün tarixi fürsət

yarandığı bir zamanda nifrət siyasətinin olduqca təhlükəli xarakter daşıması nəzərə alınaraq, sosial şəbəkələrdə mütəmadi olaraq monitorinqlər aparılmış və bu təzahürlərin qarşısının alınması istiqamətində səy göstərilməsi üçün aidiyyəti beynəlxalq qurumlara çağırışlar ünvanlanmışdır.

2023-cü ildə Azərbaycan dövləti tərəfindən həyata keçirilmiş antiterror tədbirlərinin başa çatması ilə aparılan danışıqlardan sonra respublika ərazisində yaşayan erməniəsilli şəxslərin inteqrasiyası ilə bağlı bir sıra addımlar atılmağa başlamışdır. Ombudsman tərəfindən də Qarabağ ərazisində yaşayan erməniəsilli sakinlər üçün əlçatanlığın təmin edilməsi məqsədilə açıq müraciətlər yayımlanmış, təsisata müraciət üsulları bir daha diqqətə çatdırılmışdır.

Ombudsman 2023-cü il 17 noyabr tarixində BMT-nin “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında” Konvensiyasının tətbiqi ilə bağlı Ermənistanın Azərbaycana qarşı qaldırdığı iddia üzrə Beynəlxalq Ədalət Məhkəməsinin qəbul etdiyi müvəqqəti tədbirlər barədə qərara münasibət bildirmişdir. Ombudsman həmin qərarda Ermənistanın təqdim etdiyi iddiaların əksəriyyətinin Məhkəmə tərəfindən rədd edildiyini, bununla da hüquqi müstəvidə ölkəmizə qarşı əsassız iddiaların təkzib olunduğunu qeyd etmiş, tolerantlığın dərin köklərə malik olduğu Azərbaycanda dövlət tərəfindən Qarabağın erməni sakinlərinin reinteqrasiyası üçün əməli addımların atıldığını, Ombudsmanın da milli və beynəlxalq sənədlərə əsasən həmin şəxslərin hüquq və azadlıqlarının təminini diqqətdə saxladığını vurğulamışdır.

Bakı Təşəbbüs Qrupunun təşkil etdiyi “Neokolonializm: insan hüquqlarının pozulması və ədalətsizlik” adlı beynəlxalq konfransda Ombudsman da iştirak etmişdir. Konfransda çıxış edən Ombudsman Afrikada, Yaxın və Uzaq Şərqdə həyata keçirilən neokolonializm siyasətinin milyonlarla dinc insanın çoxsaylı fundamental hüquqlarının pozulması ilə nəticələndiyini qeyd etmiş, həmçinin Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətləri, soyqırımı aktları, 30 ilə yaxın müddət ərzində davam etdirdiyi işğal siyasətinin nəticələrini diqqətə çatdırmışdır.

Ombudsman Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşının Fransa müstəmləkəsi Yeni Kaledoniyadan arzuolunmaz şəxs olaraq çıxarılması faktı ilə bağlı mediaya açıqlama vermiş və Yeni Kaledoniya polisinin həmin jurnalistə qarşı rəftarının beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu, xüsusilə fikir və ifadə azadlığını kobud şəkildə pozduğunu bildirmişdir.

2021-2024-cü illəri əhatə edən “Azərbaycanda yerdəyişmə üzrə tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBİLAZE-2)” layihəsi çərçivəsində əməkdaşlıq davam etdirilmişdir. Bu layihə çərçivəsində Ombudsman Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin dəvəti ilə 8-ci Vyana Miqrasiya Konfransında iştirak məqsədilə Avstriya Respublikasına səfər etmişdir. Səfər çərçivəsində həmin mərkəzin baş direktoru ilə ikitərəfli görüş zamanı miqrantların hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən fəaliyyət, o cümlədən qanunsuz miqrantların saxlama yerlərinə başçəkmələr haqqında məlumat verilmiş, əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair müzakirələr aparılmışdır.

2023-cü ildə Ombudsman Misir Ərəb Respublikasının, Böyük Britaniyanın, İsveç Krallığının, Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirlərini, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbərini qəbul etmiş, insan hüquqlarının müdafiəsi və təbliği, Ermənistanın işğal və təxribatyönümlü siyasətinin səbəb olduğu insan hüquq pozuntularına dair məsələlər barədə fikir mübadiləsi aparmışdır.

Pakistan İslam Respublikasının ölkəmizdəki səfirliyi tərəfindən təşkil edilən “Kəşmir Həmrəylik Günü” ilə bağlı tədbirdə Ombudsman iki ölkə arasında müxtəlif sahələrdə inkişaf edən əməkdaşlığın insan hüquq və azadlıqlarının müdafiəsini də əhatə etdiyini qeyd etmişdir.

Ombudsman Aparatı və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) birgə əməkdaşlığı çərçivəsində dəyirmi masa və seminarlar keçirilmiş, bu tədbirlərdə Ombudsman və BQXK-nın ölkə nümayəndəliyinin rəhbəri çıxış etmişdir. Tədbirlərdə beynəlxalq humanitar hüququn normaları, minatəmizləmə standartları, mina qurbanlarına dəstəklə bağlı mövzulara yer verilmişdir. Bu qəbildən olan növbəti seminar aidiyyəti dövlət qurumlarının əməkdaşları, beynəlxalq ekspertlər və media nümayəndələrinin iştirakı ilə Naxçıvan şəhərində keçirilmiş, "Beynəlxalq humanitar hüquq çərçivəsində xüsusi kateqoriyaya aid şəxslərin hüquqlarının müdafiəsinin praktiki aspektləri" mövzusuna dair məruzələr təqdim edilmişdir.

Ombudsman ATƏT Parlament Assambleyasının prezidentinin rəhbərliyi ilə ölkəmizə səfər edən nümayəndə heyətini qəbul etmişdir. Qərbi Azərbaycan İcmasının nümayəndələri və Xocalı soyqırımının şahidlərinin də iştirak etdiyi həmin görüşdə Ombudsman regionda dayanıqlı sülhün təmini istiqamətində atılmalı olan addımlar, Ermənistanın bu sahədə öhdəliklərini yerinə yetirməməsi faktları, soydaşlarımızın deportasiyası, Birinci və İkinci Qarabağ müharibələri nəticəsində itkin düşmüş azərbaycanlılarla bağlı məsələlərə toxunmuşdur.

Azərbaycanlıların Ermənistandan deportasiya edilməsinin 75-ci ildönümü ilə əlaqədar Türkiyə Böyük Millət Məclisinin Qadın-Kişi Fürsət Bərabərliyi Komissiyası və Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun birgə təşkilatçılığı ilə Ankara şəhərində keçirilmiş beynəlxalq simpoziumda Ombudsman da iştirak etmişdir. Məcburi köç probleminin xüsusilə qadınlar üzərində yaratdığı psixoloji təsirlərə həsr edilmiş həmin simpoziumda Ombudsman Ermənistan tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş deportasiya, etnik təmizləmə, soyqırımı siyasəti, azərbaycanlıların izlərinin onların tarixən yaşadığı həmin torpaqlardan silinməsi məqsədilə tarixi, dini, mədəni abidələrin məhv edilməsi, yer adlarının dəyişdirilməsi kimi faktlar barədə məlumat vermişdir. Bütün bu əməllərin məhz etnik nifrətə əsaslandığı bildirilmiş, Ombudsman təsisatı tərəfindən azərbaycanlılara qarşı nifrət cinayətləri və nifrət nitqi ilə əlaqədar hazırlanmış videoçarx nümayiş etdirilmişdir.

***Xarici ölkələrin ombudsmanları və milli insan hüquqları institutları ilə əməkdaşlıq.*** Türkiyə Respublikasının Ombudsman İnstitutunun 10 illiyi münasibətilə Ankara şəhərində keçirilən, müxtəlif ölkələrdən 70-ə yaxın ombudsman və insan hüquq müdafiəçisinin iştirak etdiyi "21-ci əsrdə insan hüquqlarının gələcəyi" mövzusunda beynəlxalq konfransda iştirak edən Ombudsman çıxışı zamanı Türkiyə Ombudsman İnstitutu ilə sıx əməkdaşlıq əlaqələrinə diqqət çəkmiş, həmçinin Ermənistanın Azərbaycana qarşı apardığı etnik təmizləmə və işğal siyasəti, törətdiyi müharibə cinayətləri barədə ətraflı məlumat vermişdir.

Həmin konfrans çərçivəsində Ombudsman Ukrayna Ali Radasının İnsan Hüquqları üzrə Müvəkkili ilə görüş keçirmişdir. Ukrayna Ombudsmanı Azərbaycanın Ukrayna xalqına göstərdiyi humanitar dəstəyə görə təşəkkürünü bildirmiş, eyni zamanda insan hüquqlarının səmərəli müdafiəsi istiqamətində əməkdaşlıq barədə fikir mübadiləsi aparılmışdır.

Ombudsman beynəlxalq əməkdaşlıq istiqaməti üzrə fəaliyyəti çərçivəsində xarici ölkələrin ombudsmanları və milli insan hüquqları təsisatlarına müxtəlif mövzular üzrə məktublar ünvanlamışdır.

Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror əməli ilə bağlı İranın Ümumi Təftiş Təşkilatına məktubla müraciət edilmiş, bu hücumu təşkil edən və törədən şəxslərin ədalət mühakiməsinə cəlb olunması məqsədilə həmin təşkilatın rəhbəri tərəfindən səlahiyyətləri çərçivəsində təxirəsalınmaz tədbirlərin görülməsi xahiş edilmişdir.

İsveçin Bərabərlik üzrə Ombudsmanına ünvanlanmış məktubda müqəddəs Quranın yandırılması insidenti, o cümlədən Avropada müsəlmanlara qarşı dözümsüz münasibətin, islamofobiyanın genişlənməsi ilə bağlı narahatlıq ifadə edilmiş və bu cür

halların təkrarlanmaması üçün hadisəni törədən şəxslərin məsuliyyətə cəlb edilməsinin təmini ilə bağlı lazımi addımların atılmasına çağırış edilmişdir.

2023-cü ilin əvvəllərində Türkiyə Respublikasında dəhşətli dağıntılara və əlli mindən çox insanın həyatını itirməsinə səbəb olmuş güclü zəlzələ ilə əlaqədar Ombudsman Türkiyənin Baş Ombudsmanına, Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun rəhbərinə başsağlığı məktubları ünvanlamışdır. Türkiyənin ölkəmizdəki səfirliyini ziyarət edən Ombudsman zəlzələ qurbanlarının xatirəsinə həsr edilmiş matəm kitabına ürək sözlərini yazmışdır. Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri ilə görüş zamanı Ombudsman çoxsaylı insan tələfatının baş verməsi ilə əlaqədar dərin hüznünü ifadə etmiş və zəlzələdən zərər çəkmiş şəxslərə humanitar yardım məqsədilə Ombudsman təsisatı tərəfindən zəruri ləvazimatların və maddi yardım üçün vəsaitin də göndərildiyini bildirmişdir.

Ombudsman Özbəkistan Respublikası Ali Məclisinin İnsan Hüquqları üzrə Müvəkkilinin dəvəti ilə Səmərqənd şəhərində keçirilən “İnsan hüquq və azadlıqlarının etibarlı müdafiəsi sahəsində birgə fəaliyyət və əməkdaşlıq” mövzusunda beynəlxalq konfransda çıxış etmişdir. Konfrans iştirakçıları Ombudsmanın həssas əhali qruplarının hüquqlarının müdafiəsi sahəsində, habelə müharibə və postmüharibə dövründə həyata keçirdiyi araşdırma fəaliyyəti, Ermənistan tərəfindən törədilmiş ekoloji cinayətlər və Azərbaycanın sərvətlərinin talanması faktları barədə ətraflı məlumatlandırılmışdır.

Mərakeş Krallığının Ombudsman İnstitutunun 20 illiyi münasibətilə Rabat şəhərində keçirilən beynəlxalq konfransda Azərbaycan Ombudsmanı da iştirak etmişdir. Həmin səfər çərçivəsində krallığın Milli İnsan Hüquqları Şurasının sədri ilə keçirdiyi görüşdə Ombudsman əlçatanlığın təmin edilməsi məqsədilə müraciət imkanlarının genişləndirilməsi və Ombudsmanın üzv olduğu beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq əlaqələrinin gücləndirilməsi məqsədilə həyata keçirilən məsələlərə toxunmuşdur. Azərbaycan Respublikasının həmin ölkədəki səfirliyi tərəfindən Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar keçirilən anım tədbirində də çıxış edən Ombudsman həmin faciənin ötən əsrdə dinc insanlara qarşı törədilmiş ən dəhşətli cinayətlərdən biri olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırmış, bu soyqırımı aktına hüquqi-siyasi qiymət verilməsinin vacibliyini bildirmişdir.

Ombudsman Macarıstan Respublikasının Ombudsman Təsisatı tərəfindən təşkil edilmiş Türk Dövlətlərinin Ombudsmanlar və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyasının Budapeştdə keçirilən beynəlxalq konfansında çıxışı zamanı Milli Preventiv Mexanizm mandatı çərçivəsində görülən işlər barədə məlumat vermiş, başçəkmələr və bu sahədə fəaliyyəti özündə əks etdirən illik hesabatlarda ümumilikdə 200-dən çox təklif və tövsiyənin verildiyini qeyd etmişdir.

Səfər çərçivəsində Ombudsman Macarıstanın Konstitusiya Məhkəməsinin sədri, Penitensiar Xidmətin Baş direktoru, Macarıstan Parlamentində Macarıstan-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, Xarici İşlər və Ticarət Nazirliyinin Təhlükəsizlik siyasəti üzrə dövlət katibi ilə görüşlər keçirmişdir. Ombudsman, həmçinin digər ölkələrdən olan həmkarları ilə birgə regional istintaq təcridxanasında, Macarıstan Ombudsmanının Debretsen şəhərindəki regional mərkəzində və dövlət sərhəd-keçid məntəqəsində də olmuş, yaradılmış şərait barədə məlumatlandırılmışdır.

Ombudsman Qazaxıstan Respublikası Konstitusiya Məhkəməsinin 28 illiyi münasibətilə təşkil olunmuş “Konstitusiya ədalət mühakiməsi: hamı üçün ləyaqət, azadlıq və ədalət” mövzusunda Astana şəhərində keçirilən beynəlxalq konfransda iştirak etmişdir. Tədbirdə çıxış edən Ombudsman ölkəmizdə insan hüquqlarının təmininə yönəlmiş islahatlar, yaradılmış hüquq-müdafiə mexanizmləri barədə məlumat vermiş, ombudsman institutları ilə konstitusiya məhkəmələri arasında əməkdaşlığın əhəmiyyətinə toxunmuş, ölkə təcrübəsindən misal göstərməklə ümumilikdə fəaliyyət dövrü ərzində Ombudsman tərəfindən Konstitusiya Məhkəməsinə 40-dan çox sorğu ünvanlandığını bildirmişdir.

Rusiya Federasiyası Tatarıstan Respublikasının Kazan şəhərində keçirilən "Ombudsmanların səmərəli təcrübələri: milli xüsusiyyətlər və universal yanaşmalar" mövzusunda beynəlxalq konfransda "Sosial hüquqların təmin edilməsində Ombudsmanın rolu" mövzusunda məruzə ilə çıxış edən Ombudsman əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş tədbirlər, təsisatın qanunvericiliyin təkmilləşdirilməsi, dövlət proqramları və milli fəaliyyət planlarının hazırlanmasında iştirakı, illik məruzələrdə aidiyyəti sahə üzrə bir çox təklif və tövsiyələrin verilməsi, eyni zamanda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə əlaqədar görülən işlər barədə geniş məlumat vermişdir.

Azərbaycan Ombudsmanı Moldovanın Xalq Müdafiəçisi Aparatının 25 illiyinə həsr edilmiş "Müasir cəmiyyətlərdə mövcud olan yeni çağırışlar kontekstində insan hüquqlarının müdafiəsi və təbliği" mövzusunda beynəlxalq konfransda iştirak etmiş, "İnsan hüquqları və bərabərlik üzrə maarifləndirmə və təşviq dezinformasiya və propaqanda ilə mübarizə vasitəsi kimi" mövzusunda çıxış etmişdir. Ombudsman əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi, habelə insan hüquq və azadlıqları barədə məlumatlandırma sahəsində fəaliyyətə dair məlumatları diqqətə çatdırmış və Ermənistanın uzun illər ərzində ölkəmizə qarşı nifrət siyasəti yürütməsinin ciddi mənfi nəticələrə səbəb olduğunu bildirmişdir.

Ombudsman Moldova Respublikasına səfəri çərçivəsində həmin ölkənin Parlamentinin və Konstitusiya Məhkəməsinin sədrləri ilə görüşmüşdür. Görüşlər zamanı iki ölkə arasında dostluq əlaqələri barədə danışılmış, habelə Ermənistanın törətdiyi müharibə cinayətlərinə dair məlumatlar Ombudsman tərəfindən diqqətə çatdırılmışdır.

Ombudsman Rusiya Federasiyasının İnsan Hüquqları üzrə Müvəkkilinin dəvəti ilə 47 ölkə ombudsmanının iştirakı ilə Moskva şəhərində keçirilən "İnsan hüquqları müdafiəsinin problemləri: ombudsmanların səlahiyyətlərinə dair müsbət təcrübələrinin bölüşülməsi" mövzusunda 7-ci beynəlxalq elmi-praktiki konfransa qatılmışdır. Beynəlxalq konfransda çıxışında Ombudsman müharibə və postmüharibə dövründə fəaliyyətinə dair məlumatları iştirakçıların nəzərinə çatdırmış, son illərdə dünyada baş verən müharibə və terror aktlarının fundamental insan hüquqlarının pozulmasına səbəb olduğunu bildirmişdir. Müharibələrin ağır nəticələrindən biri kimi şəxslərin itkin düşməsini qeyd edən Ombudsman azərbaycanlı itkin düşmüş şəxslərin sonrakı taleyi barədə məlumat verilməməsi və İkinci Qarabağ müharibəsindən sonra yüzlərlə şəxsin mina partlayışlarının qurbanına çevrilməsi problemlərinə də çıxışında geniş yer vermişdir.

***Ombudsman Aparatının əməkdaşlarının beynəlxalq tədbir və təlimlərdə iştirakı.*** Ombudsman Aparatının əməkdaşları aşağıdakı tədbirlərdə iştirak etmiş, mövzu üzrə məruzələrlə çıxış etmiş və müxtəlif sahələr üzrə təcrübə mübadiləsi aparmışlar:

- *Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Komitəsi çərçivəsində fəaliyyət göstərən Ədliyyə, azadlıq və təhlükəsizlik, insan hüquqları və demokratiya məsələləri üzrə Alt Komitənin Brüsseldə keçirilən 10-cu iclası;*
- *Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzi tərəfindən Almaniya Federativ Respublikasının Qarmiş-Partenkirxen şəhərində keçirilən "Beynəlxalq humanitar hüquq və silahlı münaqişələrdə psixi sağlamlığın təşviqi" mövzusunda təlim;*
- *"Links Avropa" təşkilatı və "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyi tərəfindən keçirilən "Minalardan Azad Cənubi Qafqaz" regional kampaniyası çərçivəsində "Minalarla çirklənmə və bunun azərbaycanlı keçmiş məcburi köçkünlərin öz doğma şəhər və kəndlərinə qayıtmasına təsiri" mövzusunda maarifləndirmə tədbiri;*
- *Ombudsman Aparatı və Beynəlxalq Qızıl Xaç Komitəsinin birgə təşkilatçılığı ilə "Beynəlxalq humanitar hüququn milli səviyyədə implementasiyası" və*

*“Beynəlxalq Minatəmizləmə Standartları (IMAS) ilə tanışlıq. Mina qurbanlarına dəstək” mövzularında keçirilən birgə seminarlar;*

*- Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan Respublikasındakı nümayəndəliyi və Dövlət Miqrasiya Xidmətinin birgə təşkilatçılığı ilə həyata keçirilən “Miqrasiya Məktəbi-5” layihəsi çərçivəsində təlim;*

*- Azərbaycan Ombudsmanının yeni üzv olduğu İnformasiya Komissarlarının Beynəlxalq Konfransı və Filippin hökuməti tərəfindən “Millətlər arasında məlumat körpüsünün yaradılması: İnformasiyaya əlçatanlığın demokratiyanın qorunmasında, inklüzivlik və inkişafda qlobal rolunun konkretləşdirilməsi” mövzusunda Manilada keçirilən konfrans;*

*- Avropa Şurası tərəfindən həyata keçirilən “Azərbaycanda media peşəkarlığı və informasiya azadlığının təşviqi” layihəsinin Rəhbər Komitəsinin iclası;*

*- UNESCO, Oksford Universitetinin Hüquq fakültəsi, Bonavero İnsan Hüquqları İnstitutu, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik və İnkişaf İdarəsinin birgə təşkilatçılığı ilə 28 Sentyabr - Ümumdünya İnformasiya Əldə Etmək Azadlığı Günü münasibətilə “İnformasiya əldə etmək üçün onlayn məkanın əhəmiyyəti” mövzusunda keçirilən qlobal konfrans;*

*- Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının birgə təşkilatçılığı ilə keçirilən “Bərabərlik və inklüzivlik naminə əməkdaşlıq” mövzusunda beynəlxalq konfrans;*

*- Beynəlxalq Miqrasiya Təşkilatı və Özbəkistan Respublikasının İnsan Hüquqları üzrə Milli Mərkəzi tərəfindən Daşkənd şəhərində təşkil edilmiş “Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Pakt”ın icrasına dair beynəlxalq dəyirmi masa;*

*- Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyi ilə əlaqədar Qazaxıstan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Astana şəhərində keçirdiyi “İnsan hüquqlarına dair beynəlxalq hüquq normalarının milli qanunvericiliyə implementasiyası” mövzusunda beynəlxalq konfrans.*

***BMT ilə əməkdaşlıq.*** Ombudsman təsisatı ilə BMT-nin ölkə nümayəndəliyi arasında imzalanmış memoranduma uyğun olaraq, əməkdaşlıq əlaqələri sıx şəkildə davam etdirilmişdir.

2023-cü ildə insan hüquqları sahəsində fundamental sənədlərdən olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin 75 illiyi insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlar tərəfindən yüksək səviyyədə qeyd edilmişdir. Azərbaycan Ombudsmanı da bu kampaniyaya qoşularaq BMT-nin ölkəmizdəki nümayəndəliyi ilə əməkdaşlıqda bir sıra tədbirlər həyata keçirmişdir.

Ombudsman BMT-nin “İnsan Hüquqları – 75” kampaniyası çərçivəsində öhdəliklər müəyyən edilməsi ilə bağlı çağırışına qoşulmaqla silahlı münaqişə nəticəsində zərər çəkmiş və əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, ümumilikdə sosial statusu və fiziki sağlamlığından asılı olmayaraq hər kəsin bərabərliyi və həssas əhali qruplarının müdafiəsi sahəsində tədbirlərin həyata keçirilməsinin vacibliyini vurğulamışdır.

Ombudsman, eyni zamanda bu kampaniyaya aid videomüraciətində müxtəlif həssas əhali qruplarına yönələn tədbirlərin həyata keçirilməsi, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz şəraitdə qaytarılması, Birinci və İkinci Qarabağ müharibələri nəticəsində itkin düşmüş dörd minə yaxın soydaşımızın taleyinə aydınlıq gətirilməsi, dəqiq mina xəritələrinin verilməsi, habelə Qarabağın erməniəsilli sakinlərinin reinteqrasiyası məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirmək kimi öhdəliklərin müəyyən edildiyini bildirmişdir.

Azərbaycan Ombudsmanının təqdim etdiyi öhdəlik sənədi və videomüraciət BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının rəsmi internet səhifəsində yayımlanmışdır.

BMT tərəfindən keçirilən “Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyası çərçivəsində BMT İnkişaf Proqramının təşkil etdiyi layihə ilə bağlı da Ombudsman tərəfindən videomüraciət yayımlanmış, insanların həyatına, şəxsiyyətinə, mənəviyyatına, gələcəyinə, eləcə də cəmiyyətin inkişafına və tərəqqisinə mənfi təsir göstərən zorakılığın bu gün qlobal miqyasda həlli vacib mühüm problemlərdən biri olduğu qeyd edilmişdir.

Ombudsman tərəfindən BMT-nin Azərbaycandakı nümayəndəliyi və Vəkillər Kollegiyası ilə birgə təşkil edilmiş “İnsan Hüquqları – 75” Bakı Konfransı: Qlobal və milli çağırışların həlli üçün universallığın və bölünməzliyin təşviq edilməsi” mövzusunda beynəlxalq konfransda Azərbaycan Respublikası Milli Məclisinin, dövlət qurumlarının, beynəlxalq tərəfdaşların, habelə vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak etmiş, müxtəlif mövzularda məruzələr dinlənilmiş, həmçinin BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının videomüraciəti nümayiş etdirilmişdir.

10 Dekabr – Beynəlxalq İnsan Hüquqları Günü ilə əlaqədar BMT-nin rezident əlaqələndiricisinin də iştirakı ilə keçirilmiş tədbirdə insan hüquq və azadlıqlarının inkişafı və təşviqində Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin rolu barədə məlumat verilmişdir.

Ombudsman BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycanda akkreditə olunmuş yeni nümayəndəsi Bik Lum ilə görüş keçirmiş, məcburi köçkün, qaçqın və sığınacaq axtaran şəxslərin hüquqlarının müdafiəsi istiqamətində fəaliyyəti barədə məlumat vermişdir. Görüşdə keçmiş məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıdışı ilə əlaqədar görülən tədbirlərdən danışılmış və beynəlxalq təşkilatların bu sahədə dəstəyinin önəmi qeyd olunmuşdur.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqaz bölməsinin insan hüquqları üzrə baş müşaviri Vladimir Şkolnikovla görüş zamanı Ombudsman tərəfindən insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət verildiyi bildirilmiş, Ermənistanın təxribatları, mina terroru, itkin düşmüş soydaşlarımızın taleyi ilə bağlı məsələlər qaldırılmış və əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

Ombudsman UNICEF-in ölkəmizdə fəaliyyətini başa çatdıran nümayəndəsi Aleks Haykensi də qəbul etmişdir. Görüşdə iki qurum arasında əməkdaşlığın əhəmiyyəti və imzalanmış Fəaliyyət Planına uyğun olaraq həyata keçirilən işlər, Ombudsmanın MPM fəaliyyəti çərçivəsində uşaq müəssisələrinə başçəkmələr və miqrant uşaqların hüquqlarının müdafiəsi barədə danışılmışdır. İkinci Qarabağ müharibəsindən sonra azad edilmiş ərazilərə qayıdış prosesi çərçivəsində həssas əhali qruplarının, o cümlədən uşaq hüquqlarının təmini məsələsi diqqətə çatdırılmış, uşaqların mina təhlükəsizliyi barədə məlumatlandırılmasının əhəmiyyəti və iqlim dəyişikliklərinin onlara təsiri barədə də fikir mübadiləsi aparılmışdır.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və BMT-nin Ətraf Mühit Proqramının təşkilatçılığı ilə “İnsan Hüquqları – 75” devizi altında keçirilən “Təmiz, sağlam və dayanıqlı ətraf mühit hüququ” mövzusunda Avropa və Mərkəzi Asiya Yüksək səviyyəli Regional Dialoqunda iştirak edən Ombudsman Aparatının rəhbəri çıxışı zamanı iştirakçıların diqqətini Ermənistanın işğal dövründə və son dövrdə davam etdirdiyi ekoterrorizm siyasətinin nəticələrinə cəlb etmişdir.

Ombudsman Aparatında Ümumdünya Səhiyyə Təşkilatının ölkə nümayəndəliyinin regional məsləhətçisi ilə görüş keçirilmiş, “Psixi sağlamlıq xidmətlərinin münaqişədən sonrakı dövrdə koordinasiyası və transformasiyası” layihəsinə dair müzakirə aparılmışdır. Görüşdə Ombudsmanın təşəbbüsü ilə şəhid ailələri, müharibə veteranları, hərbi əməliyyatlar zamanı zərər çəkmiş mülki şəxslərə ünvanlanmış ödənişsiz tibbi-psixoloji yardım aksiyalarının təşkil olunduğu, həmçinin Ombudsmanın regional mərkəzləri tərəfindən davamlı maarifləndirmə tədbirlərinin keçirildiyi diqqətə çatdırılmışdır.

Ombudsman Aparatı tərəfindən UNICEF və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə birgə əməkdaşlıqda miqrasiya kontekstində uşaq hüquqlarının müdafiəsi ilə bağlı keçirilmiş ikigünlük təlimin açılışında giriş sözü ilə çıxış edən Ombudsman miqrasiya prosesinin iştirakçısı olan uşaqların hüquqlarının səmərəli müdafiəsi məqsədilə həyata keçirilən tədbirlər, aidiyyəti sahədə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşları üçün təşkil olunan təlimlər barədə məlumat vermişdir. UNICEF, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, Beynəlxalq Miqrasiya Təşkilatı, Beynəlxalq Qızıl Xaç Komitəsinin ekspertləri təlimçilər qismində çıxış etmişlər.

2023-cü il ərzində BMT-nin müxtəlif sahələr üzrə xüsusi məruzəçiləri tərəfindən Ombudsman təsisatına ünvanlanmış sorğular cavablandırılmışdır.

Milli insan hüquqları təsisatı qismində Universal Dövri İcmal prosesi çərçivəsində Azərbaycana dair tövsiyələrin icrası ilə bağlı sənəd hazırlanaraq BMT-yə göndərilmişdir. Qeyd edilməlidir ki, Universal Dövri İcmal prosesi çərçivəsində Azərbaycanın IV dövri hesabatına baxış zamanı Ombudsmanın əlilliyi olan şəxslərin hüquqlarının daha səmərəli müdafiəsinə və ölkədə sahibkarlığın inkişafına dair təklifləri maraqlı tərəflərin təqdimatlarında öz əksini tapmışdır.

BMT-nin İnsan Hüquqları Komitəsindən daxil olmuş sorğuya cavab olaraq, Ombudsman təsisatı tərəfindən “Mülki və siyasi hüquqlar haqqında” Beynəlxalq Paktın icrasına dair məlumatları əks etdirən sənəd hazırlanaraq aidiyyəti üzrə həmin Komitəyə göndərilmişdir.

***Avropa Şurası ilə əməkdaşlıq.*** Ombudsman Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçilərini qəbul etmiş, Ombudsmanın fəaliyyət istiqamətləri, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilən başçəkmələr barədə geniş məlumat vermişdir.

Ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarını qəbul edən Ombudsman insan hüquqlarına dair əməkdaşlıqla bağlı fikir mübadiləsi aparmış, Azərbaycan Ombudsmanının səlahiyyətlərinin genişləndirilməsi, eyni zamanda müharibə və postmüharibə dövründə həyata keçirdiyi fəaliyyət, Ermənistan tərəfindən törədilən insan hüquq pozuntuları, mina probleminin səbəb olduğu fəsadlar barədə məlumatları diqqətə çatdırmışdır. Bununla yanaşı, Ombudsman görüşdə Birinci Qarabağ müharibəsi dövründən itkin hesab olunan azərbaycanlıların taleyinə aydınlıq gətirilməməsi məsələsini qaldırmış, həmin şəxslərin ailələrinin tələblərini komissara çatdırmış və səlahiyyətləri çərçivəsində bununla bağlı köməklik göstərilməsini xahiş etmişdir. Qarabağda yaşayan erməniəsilli sakinlərin Ombudsmana müraciət edə bilmələri üçün açıqlamaların verildiyi də qeyd olunmuşdur.

Ombudsman Aparatında Avropa Şurasının İnsan hüquqları və qanunun aliliyi direktoratlığının rəhbərinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Ombudsmanın aparatında və regional mərkəzlərində müraciət edən şəxslərin qəbul edildiyi, həmçinin müraciətlərin 24 saat fəaliyyət göstərən Çağrı Mərkəzi, elektron müraciət forması və sosial şəbəkələr vasitəsilə qəbul olunduğu bildirilmişdir. Bundan əlavə, Ombudsmanın milli preventiv mexanizm mandatı çərçivəsində mütəmadi qaydada başçəkmələr həyata keçirildiyi, verilən tövsiyələrin icra vəziyyətinin monitorinqinin aparıldığı, müraciətlərin operativ olaraq araşdırıldığı və bu sahədə vəkillərlə əməkdaşlıq da diqqətə çatdırılmışdır.

Ombudsman Aparatında Avropa Şurasının “Milli azlıqların müdafiəsi haqqında” Çərçivə Konvensiyasının Məşvərət Komitəsinin üzvləri ilə görüş zamanı Azərbaycanda müxtəlif etnik mənsubiyyətə malik şəxslərin tolerantlıq və multikulturalizm şəraitində yaşadığı, hər hansı ayrı-seçkiliyə yol verilmədən milli azlıqların dil, din, mədəniyyətlə bağlı hüquqlarının təmin edildiyi, Ombudsmanın ayrı-seçkiliklə mübarizə sahəsində fəaliyyəti və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı qanunvericiliyə edilmiş dəyişikliklər barədə məlumat verilmişdir.

2023-cü ildən Ombudsman Aparatı tərəfindən Avropa Şurası və Avropa İttifaqının dəstəyi ilə Azərbaycanda bərabərliyin təşviqi üzrə yeni layihənin icrasına başlanılmışdır. Layihə Ombudsmanın bərabərlik hüququnun və ayrı-seçkiliyin qarşısının alınmasının təşviqi üzrə yeni mandatının səmərəli həyata keçirilməsi üçün beynəlxalq standartların və xarici təcrübənin tətbiqinə dəstək baxımından əhəmiyyət daşıyır.

Layihənin icrası prosesinə vətəndaş cəmiyyəti institutları də cəlb olunmuşdur.

*Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansı (MİHTQA) ilə əməkdaşlıq.* Azərbaycan Ombudsmanı dünya üzrə müxtəlif ölkələrin milli insan hüquqları təsisatlarını özündə birləşdirən MİHTQA-nın 200-ə yaxın milli insan hüquqları təsisatının rəhbər və nümayəndəsinin, eləcə də BMT-nin müxtəlif qurumlarının ekspert və təmsilçilərinin iştirakı ilə Cenevrə şəhərində keçirilən növbəti illik iclasında, habelə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyi və Milli İnsan Hüquqları Təsisatlarının Statusuna dair Paris Prinsiplərinin 30 illiyinə həsr edilmiş konfransda iştirak etmişdir. Tədbir çərçivəsində milli preventiv mexanizm fəaliyyəti ilə bağlı təcrübə mübadiləsi çərçivəsində Azərbaycan Ombudsmanı və onun milli preventiv qrupu tərəfindən həyata keçirilən başçəkmələr, bu fəaliyyət çərçivəsində tətbiq edilən yeniliklər və məhkum edilmiş şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində göstərilən səylər barədə məlumatlar vermiş, bununla bağlı müxtəlif ölkələrin təmsil olunduğu qrupda müzakirələr aparılmışdır.

Tədbirdə Qlobal Alyansın 2023-2027-ci illər üzrə Strateji Planı müzakirə olunaraq qəbul edilmişdir.

Səfər çərçivəsində Ombudsman BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının, MİHTQA-nın və bu qurumun Akkreditasiya üzrə Alt Komitəsinin, həmçinin Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsinin rəhbərləri və nümayəndələri ilə görüşlər keçirmiş, Paris Prinsipləri və Akkreditasiya üzrə Alt Komitənin tövsiyələri nəzərə alınaraq, Konstitusiya Qanununa dəyişikliklərin edilməsi barədə məlumat vermişdir. Bu görüşlər zamanı Ombudsmanın İkinci Qarabağ müharibəsi və postmüharibə dövründə həyata keçirdiyi araşdırma fəaliyyətini özündə əks etdirən hesabat, bəyanat və müraciətlər müvafiq rəsmi şəxslərə təqdim olunmuşdur.

Ombudsman MİHTQA, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, Ukrayna Ombudsman İnstitutu və Danimarka İnsan Hüquqları İnstitutu tərəfindən Kopenhagen şəhərində keçirilən Milli İnsan Hüquqları İnstitutlarının 14-cü iclasında iştirak etmişdir. “İşgəncə və digər pis rəftar: Milli insan hüquqları təsisatlarının rolu” mövzusuna həsr olunmuş iclasda çıxışı zamanı Ombudsman milli preventiv mexanizm mandatı çərçivəsində həyata keçirilən fəaliyyət, başçəkmələr barədə məlumat vermişdir. Ombudsmanın səlahiyyətlərinin genişləndirilməsi ilə bağlı Konstitusiya Qanununa dəyişikliklər edildiyi, habelə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirmək səlahiyyətinin verildiyi qeyd olunmuşdur. Ombudsman çıxışında Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozan əməllərinə, habelə azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə və quruculuq işlərinə də toxunmuş, bu işlərin aparılması zamanı azərbaycanlılara məxsus kütləvi məzarlıqların aşkarlandığını diqqətə çatdırmış, bu məsələ ilə bağlı hesabatların hazırlanaraq aidiyyəti beynəlxalq qurumlara göndərildiyini və mediada geniş yayımlandığını bildirmişdir.

*Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsi (MİHTAŞ) ilə əməkdaşlıq.* Ombudsman Cenevrəyə səfəri zamanı təsisatın üzvü olduğu Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsinin iclasında iştirak etmişdir.

2023-cü ildə MİHTAŞ-ın 10 illiyi münasibətilə Belçika Krallığının paytaxtı Brüsseldə keçirilən konfransda və Ümumi Yığıncaqda Azərbaycan Ombudsman təsisatı da təmsil olunmuşdur.

Qeyd edilənlərlə yanaşı, 2023-cü il ərzində Ombudsman tərəfindən qanunun aliliyi ilə bağlı hesabat, Nazirlər Komitəsinin tövsiyələrinin icra vəziyyətinə və digər müxtəlif mövzulara dair sorğu sənədləri cavablandırılaraq MİHTAŞ-a təqdim edilmişdir.

*Türk Dövlətləri Ombudsmanları və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyası (TÜRKOMB) ilə əməkdaşlıq.* 2023-cü ildə Azərbaycan Ombudsmanı TÜRKOMB-un Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən növbəti illik iclasında iştirak etmişdir. Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Şimali Kiprin ombudsman və milli insan hüquqları təsisatlarının nümayəndələrinin də iştirak etdiyi həmin iclasda Ombudsman tərəfindən TÜRKOMB çərçivəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı bir sıra təkliflər səsləndirilmişdir. Ombudsman həmin tədbirdə çıxışı zamanı bölgədə mövcud olan ekoloji problemlərə toxunaraq, Ermənistanda fəaliyyət göstərən və bütün region üçün təhlükə mənbəyi kimi çıxış edən istismar müddəti bitmiş Metsamor Atom Elektrik Stansiyasının fəaliyyət müddətinin uzadılması ilə bağlı narahatlığını bildirmiş, üzv qurumları ekoloji fəlakətə səbəb ola biləcək bu təhlükənin qarşısının alınması ilə bağlı təxirəsalınmaz tədbirlər görülməsi məqsədilə həmrəylik göstərməyə dəvət etmişdir.

*İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyası (İƏTOA) ilə əməkdaşlıq.* 2023-cü ildə İƏTOA-nın Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən Ümumi Yığıncağında çıxışı zamanı Ombudsman ölkəmizin məruz qaldığı hərbi təcavüz, soyqırımı siyasəti, müharibə cinayətləri və hazırkı mina problemi, eləcə də dörd minə yaxın itkin düşmüş şəxs barədə məlumat vermişdir. Ombudsman, həmçinin Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi ən amansız cinayətlərdən biri olan Xocalı soyqırımı barədə danışaraq, İƏTOA üzvlərinə insan hüquqları sahəsində beynəlxalq prinsip və normaların kobudcasına pozulması ilə nəticələnmiş bu ağır faciəyə siyasi-hüquqi qiymət verilməsi ilə bağlı münasibət bildirilməsi üçün çağırış etmişdir. Həmin iclasda seçkilər baş tutmuş və Azərbaycan Ombudsmanı yenidən Assosiasiyanın İdarə Heyətinin üzvü seçilmişdir.

*İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyası* (İƏTMDİHK) *ilə əməkdaşlıq.* Ombudsman təsisatının 20 illiyinə həsr edilmiş Bakı Beynəlxalq Konfransı çərçivəsində İƏTMDİHK ilə imzalanmış memoranduma əsasən əməkdaşlıq əlaqələri 2023-cü ildə uğurla davam etdirilmişdir.

Ombudsman İƏTMDİHK-nın Ciddə şəhərində keçirilən 21-ci sessiyası çərçivəsində "Biznes və insan hüquqları: Normativ baza və İƏT ölkələri üçün qaydaların tətbiqi" mövzusunda təşkil olunmuş tematik debatda iştirak etmişdir. Ombudsman BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinin tətbiqinə dair məsələlər, Ombudsman təsisatının bu sahədə həyata keçirdiyi fəaliyyət və ölkəmizdə Biznes və insan hüquqları sahəsində Milli Fəaliyyət Planının hazırlanması istiqamətində aparılan işlər barədə çıxış etmiş, işğal dövründə Ermənistan tərəfindən mövcud infrastrukturun tamamilə dağıdılması, ekosistemə ciddi zərər vurulması və ərazilərə mina basdırılması səbəbindən biznes fəaliyyətinin həyata keçirilməsinə uyğun şəraitin olmadığı, hazırda Azərbaycan tərəfindən həmin ərazilərdə geniş bərpa-quruculuq, minatəmizləmə işlərinin aparıldığı iştirakçıların diqqətinə çatdırılmışdır.

İƏT MDİHK-nın 21-ci sessiyası çərçivəsində Ombudsman Aparatı rəhbərinin "Məcburi köçkünlərin hüquq və azadlıqları" mövzusunda tədqiqat işi də müzakirə edilmişdir. İƏT ölkələrindəki məcburi köçkün probleminə diqqət çəkən həmin tədqiqat işində bu istiqamətdə bir sıra tövsiyələr verilmiş, eləcə də Azərbaycanın məcburi köçkünlərinin pozulmuş hüquq və azadlıqları barədə məlumatlar, onların qayıdışı ilə bağlı görülən tədbirlər və mövcud çətinliklər öz əksini tapmışdır.

2023-cü il 2-6 sentyabr tarixlərində İƏT MDİHK sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti işğal dövründə dini-mədəni abidələrin dağıdılması və İkinci Qarabağ

müharibəsi zamanı Ermənistanın raketlərdən istifadə etməklə mülki əhalini hədəfə alması faktlarının yerində araşdırılması məqsədilə Azərbaycana səfər etmişdir. Bu məqsədlə nümayəndə heyəti Ağdam, Füzuli və Gəncədə faktaraşdırıcı missiya həyata keçirmiş, işğaldan azad edilmiş Ağdam və Füzuli rayonlarında azərbaycanlılara məxsus qəbiristanlıqların dağıdılması, ərazilərin minalanması, məscidlərin təhqir edilməsi faktları ilə yerində tanış olmuşdur.

Nümayəndə heyəti Füzuli rayonunun işğalı dövründə qəbirlərin dağıdıldığı Qaraxanbəyli məzarlıqları və vandalizmə məruz qalmış Merdinli məscidində olmuşdur. Qonaqlar, eyni zamanda Füzulidə aparılan irimiqyaslı bərpa və tikinti işləri, quruculuq prosesi, Füzuli Hava Limanı ilə tanış olmuş, digər azad edilmiş ərazilərdə də hava limanlarının inşası barədə məlumatlandırılmışlar. Nümayəndə heyətinin üzvləri Füzuli şəhərində “Böyük Qayıdış” proqramı çərçivəsində doğma yurdlarına qayıdaraq dövlət tərəfindən inşa olunmuş mənzillərdə məskunlaşmış keçmiş məcburi köçkünlərlə görüş keçirmiş, onlarla söhbət əsasında aidiyyəti qeydlər aparmış, habelə yeni istifadəyə verilmiş Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbə baxış keçirmişlər.

Ağdamda davam etdirilən yerində araşdırmalar çərçivəsində nümayəndə heyəti Qiyaslı və Qarağacı məzarlıqlarında, Ağdam Şəhidlər Xiyabanında olmuş, həmin qəbiristanlıqlarda törədilmiş vandalizm əməlləri barədə məlumatlandırılmışdır. Ağdam şəhərində mülki infrastrukturun, tarixi-mədəni abidələrin dağıdılması və talan olunması, çoxsaylı minaların basdırılması faktları da diqqətə çatdırılmışdır. Səfər zamanı Ağdam Cümə məscidinə və yeni inşa edilən obyektlərə də baxış keçirilmişdir.

İƏT MDİHK nümayəndə heyəti İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən bir neçə dəfə qadağan edilmiş raketlərlə atəşə tutulması faktları ilə yerində tanış olmuşdur. Qələbə parkı ərazisinə baş çəkən nümayəndə heyəti üzvlərinə mülki sakinlərin yaşadığı binaların və digər infrastruktur obyektlərinin hədəfə alınması nəticəsində baş vermiş insan tələfatı barədə ətraflı məlumat verilmiş, həmin hücumlar nəticəsində zərər çəkmiş sakinlərlə görüş keçirilmişdir. Gəncəyə raket zərbələri nəticəsində ziyan dəymiş dini abidələrdən olan “İmamzadə” Ziyarətgah Kompleksinə də baxış keçirilmişdir.

Yerində araşdırmalar başa çatdıqdan sonra nümayəndə heyəti bir sıra dövlət qurumlarında görüşlər keçirmiş, o cümlədən Ombudsman Aparatında olmuş, Ermənistanın Azərbaycana qarşı təcavüz və işğal siyasətinin nəticələri, itkin düşmüş şəxslər problemi, ərazilərin minalanması faktları ilə bağlı geniş məlumatlar əldə etmişlər.

Səfərin yekunları ilə bağlı İƏT MDİHK tərəfindən beynəlxalq ictimaiyyətə təqdim etmək üçün hesabat hazırlanır.

*Asiya Ombudsmanlar Assosiasiyası (AOA) ilə əməkdaşlıq.* Rusiya Federasiyasının Tatarıstan Respublikasının Kazan şəhərində AOA-nın 17-ci illik iclası keçirilmişdir. İclas çərçivəsində seçkilər keçirilmiş və səsvermənin yekunlarına görə Azərbaycan Ombudsmanı yenidən AOA-nın vitse-prezidenti vəzifəsinə seçilmişdir.

Ombudsman çıxışı zamanı AOA tərəfindən həyata keçirilən əhəmiyyətli layihələr, Azərbaycan Ombudsman Təsisatının bu Assosiasiya ilə sıx əməkdaşlığı, Asiya qitəsində insan hüquqlarının müdafiəsi sahəsində yaxşı təcrübələrin paylaşılmasının əhəmiyyətini vurğulamışdır.

*Avropa Ombudsman İnstitutu ilə əməkdaşlıq.* Türkiyə Ombudsman İnstitutunun 10 illiyi münasibətilə Ankaraya səfəri zamanı Ombudsman Avropa Ombudsman İnstitutunun Baş katibi ilə görüş keçirmiş, Ombudsman Aparatında son illər ərzində uşaq hüquqları, əlillik, informasiya əldə etmək hüququ ilə bağlı struktur vahidlərinin yaradılması barədə məlumat vermişdir. Görüşdə həmçinin Azərbaycanın məruz qaldığı beynəlxalq hüquq pozuntuları, Ermənistanın törətdiyi çoxsaylı cinayətlər ətraflı şəkildə diqqətə çatdırılmış, Ombudsmanın faktaraşdırıcı fəaliyyətinə dair hesabatlar və digər materiallar Baş katibə təqdim olunmuşdur.

## III fəsil.

## HÜQUQİ MAARİFLƏNDİRMƏ, ELMİ-ANALİTİK FƏALİYYƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ

***İnsan hüquqları sahəsində maarifləndirmə.*** Cəmiyyətdə hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə Ombudsman tərəfindən əhalinin insan hüquqlarına dair məlumatlılıq səviyyəsinin artırılmasına xidmət edən müxtəlif mövzular üzrə hüquqi maarifləndirmə tədbirlərinin təşkili, eyni zamanda təsisatın əməkdaşlarının digər qurumlar tərəfindən keçirilmiş analoji tədbirlərdə məruzəçi və təlimçi qismində iştirakı təmin edilmişdir.

Ölkə Prezidentinin müvafiq Sərəncamı ilə 2023-cü ilin “Heydər Əliyev İli” elan olunması ilə əlaqədar Ombudsman Aparatı və regional mərkəzlər tərəfindən dövlət qurumlarının, hüquq-mühafizə, yerli icra və yerli özünüidarə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələrinin iştirakı ilə “Heydər Əliyev və hüquqi dövlət quruculuğu”, “Heydər Əliyev və müstəqil Azərbaycanda insan hüquqlarının inkişafı”, “Ümummilli Lider Heydər Əliyev insan hüquqları sahəsində islahatların və müasir milli hüquq müdafiə mexanizmlərinin banisidir”, “Heydər Əliyev və Azərbaycanda qadın hüquqları”, “Heydər Əliyev və uşaq hüquqları”, “Heydər Əliyev və Azərbaycanda multikultural dəyərlər”, “Heydər Əliyev və şanlı Zəfər tariximiz”, “Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi”, habelə digər aktual mövzular üzrə maarifləndirmə tədbirləri keçirilmişdir. Bununla yanaşı, Ombudsman tərəfindən ənənəvi olaraq hər il 10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə elan olunan jurnalist yazı və uşaq rəsm müsabiqələri də məhz “Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda insan hüquqları” mövzusuna həsr olunmuşdur.

Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə Bərdə və Göyçay rayonlarında təşkil olunmuş konfranslarda iştirak edən Ombudsman təsisatı əməkdaşlarının “Heydər Əliyev və insan hüquqlarına verilən dəyər”, “Heydər Əliyev və Azərbaycanda insan hüquqları islahatları” mövzularında məruzələri Ümummilli Lider tərəfindən ölkəmizdə insan hüquqlarının səmərəli təmini üzrə həyata keçirilmiş genişmiqyaslı islahatlar və onun nəticəsində qazanılmış uğurlara həsr olunmuşdur.

Ombudsman Aparatı və Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) birgə təşkilatçılığı ilə DSX-nin Sərhəd Nəzarətində keçirilmiş tədbirdə “Heydər Əliyev və hüquqi dövlət quruculuğu” adlı məruzə ilə çıxış edən Ombudsman Aparatının əməkdaşı Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə hüquqi dövlət quruculuğu və insan hüquqlarının inkişafı istiqamətində atılmış mütərəqqi addımlardan danışmışdır.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında, habelə Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi tərəfindən Hüquq və İnsan Haqları İnstitutunda Ulu Öndərin 100 illik yubileyi ilə əlaqədar elmi-praktik konfranslarda görkəmli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquqları üzrə qanunvericilik bazasının və institusional mexanizmlərin formalaşdırılması sahəsində həyata keçirilmiş islahatlar, ilk dövlət proqramının təsdiq edilməsi, Ombudsman təsisatının yaradılması və əldə olunmuş digər uğurlar diqqətə çatdırılmış və geniş müzakirələr aparılmışdır.

Ombudsman tərəfindən ənənəvi olaraq 2023-cü ildə də 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü ilə əlaqədar 18 may - 18 iyun tarixləri “İnsan hüquqları aylığı”, BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasının qəbul edilməsinin ildönümü ilə bağlı isə 20 oktyabr - 20 noyabr tarixlərində “Uşaq hüquqları aylığı” elan olunmaqla Bakıda və regionlarda insan hüquqlarına dair müxtəlif aktual mövzulara həsr edilmiş hüquqi maarifləndirmə tədbirləri keçirilmişdir. Aidiyyəti dövlət

qurumları, idarə, müəssisə və təşkilatlar, vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları və media nümayəndələri də həmin prosesdə fəal iştirak etmişlər.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyi və hər il milli səviyyədə qeyd olunan 18 İyun - İnsan Hüquqları Günü münasibətilə Ombudsman Aparatının BMT-nin Azərbaycandakı nümayəndəliyi və Vəkillər Kollegiyası ilə birlikdə elan etdiyi ödənişsiz hüquqi yardım kampaniyası çərçivəsində Bakı şəhəri və regionlar da əhatə olunmaqla Ombudsmanın regional mərkəzlərində şəhid ailələrinə, müharibə iştirakçılarına, əlilliyi olan şəxslərə və digər vətəndaşlara ödənişsiz hüquqi xidmətlər göstərilmişdir. Ombudsmanın BMT-nin Azərbaycandakı Nümayəndəliyi və agentlikləri ilə əməkdaşlıqda insan hüquqları sahəsində birgə İşçi Qrupunun 2023-cü il üçün Fəaliyyət Planına əsasən, Ombudsmanın regional mərkəzlərinin iştirakı ilə təşkil olunmuş həmin kampaniya üzrə keçirilmiş tədbirlər əhalinin sosial cəhətdən həssas qruplarının hüquqlarının müdafiəsi və onların hüquqi cəhətdən maariflənmələri baxımından faydalı olmuşdur.

Azərbaycan Dövlət İqtisad Universitetinin müəllim və tələbələri ilə keçirilmiş maarifləndirici görüşdə, eləcə də Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası ilə birgə 12 İyun – Ümumdünya Uşaq Əməyinə qarşı Mübarizə Gününə həsr olunmuş maarifləndirmə tədbirlərində iştirakçılar ölkəmizdə insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi, uşaqların hüquqlarının və qanuni mənafelərinin qorunması istiqamətində həyata keçirilən genişmiqyaslı fəaliyyət, o cümlədən Ombudsmanın gördüyü işlər barədə ətraflı məlumatlandırmışlar.

Ombudsman Aparatı ilə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında həmkarlar ittifaqlarının kadr və fəalları üçün təşkil edilmiş növbəti ixtisasartırma və yenidənhazırlanma kurslarının dinləyicilərinə “İnsan hüquqlarının beynəlxalq hüquqi standartları”, “Beynəlxalq əmək hüququ standartlarına riayət olunmasına beynəlxalq nəzarət və sosial təminat hüquqları” mövzularında mühazirə oxunmuşdur.

Ombudsman Aparatı ilə Polis Akademiyası arasında insan hüquqları sahəsində maarifləndirmə istiqamətində davam etdirilən səmərəli əməkdaşlıqda bir sıra rayon (şəhər) polis idarə və şöbələrinin rəhbər heyətinə fənn müəlliminin birgə iştirakı ilə oxunmuş növbəti mühazirənin mövzusu korrupsiyaya qarşı mübarizə, polisin fəaliyyətində insan hüquqlarının qorunması, bu sahədə milli və beynəlxalq normativ hüquqi aktların tələblərinə həsr olunmuş mövzularda mühazirə oxunmuşdur.

Polis Akademiyasında “Müasir dövrdə insan hüquqlarının təminatının aktual problemləri” mövzusunda təşkil edilmiş dəyirmi masada iştirak edənlərə Ombudsmanın Milli Preventiv Mexanizm (MPM) qismində fəaliyyəti, bu sahədə görülən işlər, həyata keçirilən başçəkmələr, hüquqi təhlil və müvafiq hesabatlar haqqında məlumatlar təqdim olmuşdur.

Ədliyyə Akademiyasının dinləyiciləri üçün oxunmuş mühazirələrdə insan hüquqlarının milli və beynəlxalq müdafiə mexanizmləri, bu sahədə beynəlxalq qanunvericilik aktlarının implementasiyası məsələləri və tətbiqi əsasları, Ombudsmanın Milli Preventiv Mexanizm qismində fəaliyyəti, ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə müntəzəm keçirilən başçəkmələr, müvafiq müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının təmini, saxlama şəraiti və rəftar məsələləri, habelə irəli sürülmüş tövsiyələr və onların icrası vəziyyəti ilə bağlı ətraflı məlumat verilmişdir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan Şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzində “İnsan hüquq və azadlıqlarının dövlət təminatı”, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 2 saylı Uşaq Reabilitasiya Mərkəzində “Uşaq hüquqlarının müdafiəsi və uşaq əməyinin qarşısının alınması” mövzularında maarifləndirmə tədbirləri keçirilmiş, iştirakçılar ölkəmizin Konstitusiyasında, tərəfdar

çıxdığı beynəlxalq müqavilələrdə və milli qanunvericilik aktlarında öz əksini tapmış insan hüquq və azadlıqlarının, o cümlədən uşaq hüquqlarının müdafiəsi məsələləri, bu sahədə həyata keçirilən çoxşaxəli fəaliyyət barədə məlumatlandırılmışlar.

Ombudsman Aparatı ilə ali təhsil müəssisələri arasında əməkdaşlığa uyğun olaraq 2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Bakı Dövlət Universitetinin (BDU), Azərbaycan Dillər Universitetinin, Qərbi Kaspi Universitetinin, Bakı Avrasiya Universitetinin, Xəzər Universitetinin müvafiq ixtisasları üzrə təhsil alan tələbələrindən, habelə BDU-nun Hüquq fakültəsinin “İnsan hüquqları” və “Tibbi hüquq” ixtisaslaşmaları üzrə magistrantlarından ibarət olmaqla təsisatda 69 tələbə və magistrant istehsalat və elmi-tədqiqat təcrübəsi keçmişdir. İnsan hüquqları sahəsində bilik və bacarıqlar əldə etmələri üçün təcrübəçilərə lazımi şərait yaradılmış, eyni zamanda buraxılış işləri və magistrlik dissertasiyalarının yazılması üçün Aparatın İnsan Hüquqları Kitabxanasında zəruri hüquq ədəbiyyatlarından faydalanmaq imkanı təmin edilmişdir.

Yeri gəlmişkən, BDU-nun Hüquq fakültəsində “Hüquqşünaslıq” ixtisasının “İnsan hüquqları” ixtisaslaşması üzrə magistr dissertasiyalarının müdafiəsi üçün yaradılmış ixtisaslaşdırılmış Elmi Şuraya sədrlik edən Ombudsmanın iştirakı ilə keçirilmiş müdafiə prosesində BDU-nun “İnsan hüquqları və informasiya hüququ” UNESCO kafedrasında professor-müəllim heyətinin rəhbərliyi ilə Azərbaycan və ingilis dillərində yerinə yetirilmiş aktual mövzulara həsr olunan dissertasiya işləri müsbət qiymətləndirilmiş və insan hüquqlarının müdafiəsi üzrə elmi tədqiqatların davam etdirilməsi məqsədilə əməkdaşlığın genişləndirilməsinin zəruri olduğu bildirilmişdir.

Sabunçu Rayon İcra Hakimiyyətinin təşəbbüsü, Ombudsmanın, Elm və Təhsil Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə həyata keçirilən “Susma, səsini eşitdir!” adlı layihə çərçivəsində Bakı şəhər Sabunçu rayonunun Nardaran-Bilgəh, Maştağa, Pirşağı-Kürdəxanı, Zabrat, Balaxanı, Ramana, Sabunçu, Bakıxanov qəsəbələrinin bir sıra tam orta məktəblərinin təşkilatçılığı ilə maarifləndirmə tədbiri keçirilmişdir.

Avropa Hüquqşünas Tələbələr Assosiasiyası - Bakı İctimai Birliyinin (ELSA Azərbaycanın) Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə birgə həyata keçirdiyi “Gənc Hüquq Müdafiəçiləri” Səhnələşdirilmiş Məhkəmə Müsabiqəsi layihəsinin final mərhələsində iştirak edən Ombudsman müsabiqənin sonunda çıxış edərək, səhnələşdirilmiş məhkəmə proseslərinin təcrübə əldə etmək istəyən gənc hüquqşünaslar üçün əhəmiyyətli platforma olduğunu, bu müsabiqənin hüquqşünas olmaq istəyən şagirdlərə hüquqi biliklərin aşılanması, yeniyetmə və gənclərin öz hüquqlarını düzgün dərk etmələri, hüquq müdafiə formalarını düzgün müəyyən etmələri baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının 2023-cü il 06 mart tarixli 13-cü iclasının qərarı ilə təsdiq edilmiş Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) maarifləndirilməsi üzrə Fəaliyyət Planına əsasən, Bakı şəhərində və regionlarda BMT-nin “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyi”ndən irəli gələn öhdəliklərə uyğun olaraq, sağlam həyat tərzinin, sağlamlığın qorunması, sağlam ətraf mühitdə yaşamaq hüquqlarının təbliği, uşaq və gənclər arasında narkomaniyaya, habelə digər zərərli vərdişlərə qarşı sosial-hüquqi mübarizənin gücləndirilməsi mövzuları üzrə maarifləndirmə fəaliyyəti həyata keçirilmişdir.

Ombudsmanın regional mərkəzləri tərəfindən 24 Yanvar - Beynəlxalq Təhsil Günü ilə əlaqədar keçirilmiş maarifləndirici tədbirlərdə iştirakçılara DİM-lərdən biri olan hər kəs üçün inklüziv və keyfiyyətli təhsilin təmin edilməsinin insan inkişafındakı əhəmiyyəti, Ombudsmanın təhsil hüququnun müdafiəsi üzrə fəaliyyəti barədə məlumat verilmişdir.

DİM-lərin sülh, ədalət və səmərəli institutlardan bəhs edən 16-cı məqsədinın təşviqi məqsədilə Ombudsman Aparatı tərəfindən informasiya əldə etmək hüququnun müdafiəsi ilə bağlı Masallı rayonunda və Lənkəran şəhərində yerli icra hakimiyyəti və hüquq mühafizə orqanlarının, təhsil şöbələrinin və informasiya sahibi olan digər dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə təşkil edilmiş növbəti maarifləndirici tədbirlərdə informasiya əldə etmək hüququnun yaranma tarixi, bu sahədə mövcud olan beynəlxalq hüquqi aktlar, Ombudsmanın informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin "İnformasiya əldə etmək haqqında" Qanunun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarətin həyata keçirilməsi funksiyasının icrası barədə məlumat verilmiş, mövzu ilə əlaqədar təqdimat və videoçarx nümayiş etdirilmişdir.

"Beynəlxalq Autizm Maarifləndirmə Ayı" çərçivəsində Ombudsmanın təşəbbüsü ilə Azərbaycan Autizm Assosiasiyası ilə birgə "Autizmlə mümkündür!" şüarı altında "Erkən aşkarlamanın faydaları" mövzusunda keçirilmiş dəyirmi masada Ombudsmanın təşəbbüsü əsasında nəşr olunmuş erkən aşkarlamanın faydaları, risk faktorları, autizmdə erkən diaqnostik simptomlar, autizm spektrli pozuntulardan əziyyət çəkən uşaqların reabilitasiyası üçün ilkin addımlar və əməl olunmalı qaydalar, valideynlər üçün tövsiyələr üzrə faydalı informasiyaların öz əksini tapdığı, autizmin xəstəlik deyil, fərqlilik olmasının vurğulandığı buklet haqqında məlumat verilmiş və iştirakçılara təqdim olunmuşdur.

Xüsusi qayğıya ehtiyacı olan insanlara həsr edilmiş "Fərqli Fərdlər" Beynəlxalq Konqresinin 5-ci yubiley mərasimində fəxri qonaq qismində iştirak edən Ombudsman çıxışı zamanı autizm spektr pozuntusu olan uşaqların sosial-hüquqi müdafiəsi, reabilitasiyası, sosial inklüziyası, bu sahədə ictimaiyyətin məlumatlılığının artırılması ilə bağlı maarifləndirmə tədbirlərinin əhəmiyyətli olduğunu bildirmişdir.

Ombudsmanın regional mərkəzləri tərəfindən "Autizm haqqında ictimaiyyətin məlumatlandırılması" və "Erkən aşkarlamanın faydaları" mövzularında dövlət qurumlarının əməkdaşları, autizm spektr pozuntusu olan uşaqların valideynləri, tələbələr və fəal gənclər daxil olmaqla, geniş ictimaiyyət nümayəndələrinin iştirakı ilə təşkil edilmiş hüquqi maarifləndirmə tədbirlərində iştirakçılara əhalinin digər həssas qruplarının hüquqlarının müdafiəsi ilə yanaşı autizmli şəxslərin hüquqlarının müdafiəsi istiqamətində görülmüş işlər barədə ətraflı məlumat verilmişdir.

Ombudsmanın təşəbbüsü ilə 2023-cü il ərzində Azərbaycan və ingilis dillərində 17 adda maarifləndirici kitab, liflet və buklet nəşr etdirilmişdir. Bütövlükdə, Ombudsman təsisatının fəaliyyəti dövründə 243 adda vəsait hazırlanaraq geniş oxucu auditoriyasına təqdim olunmuşdur. Kitabların elektron versiyaları ölkə üzrə kitabxanalara və digər informasiya resurslarına göndərilmişdir.

Ombudsman Aparatının İnsan Hüquqları Kitabxanası tərəfindən kitab, buklet, liflet, plakat və disklər dövlət qurumlarına, kitabxanalara, təhsil ocaqlarına, cəzaçəkmə və tərbiyə müəssisələrinə, həmçinin müxtəlif görüş və tədbirlər zamanı qonaqlara, habelə Ombudsmanın və aparatın əməkdaşları tərəfindən xarici səfərlər zamanı aidiyyəti üzrə təqdim olunmuşdur.

Ombudsman Aparatının, Qərbi Azərbaycan İcmasının və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Qubadakı Heydər Əliyev Mərkəzində 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş "Etnik təmizləmə və soyqırımı cinayətlərinin hüquqi aspektləri: tarixi faktlar kontekstində" mövzusunda hibrid formatda keçirilmiş beynəlxalq konfrans çərçivəsində aparatın İnsan Hüquqları Kitabxanası tərəfindən təşkil olunmuş, soyqırımı, deportasiya, etnik təmizləmə mövzusunu əhatə edən "Susmayan həqiqətlər" adlı sərgi açılmışdır.

Sərgidə Ümummilli Lider Heydər Əliyevin, ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın soyqırımı, deportasiya, etnik təmizləmə siyasətinin qurbanı olan azərbaycanlıların rifahı naminə fəaliyyətlərini əks

etdirən, həmçinin 1905, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə keçmiş çar Rusiyası və SSRİ dövlət başçılarının imzaladıqları fərman, sərəncam, qərar və göstərişlərin yer aldığı bu və digər tarixi faktlarla zəngin olan kitablar nümayiş etdirilmişdir.

İndiki Ermənistan adlandırılan dövlətin ərazisində dəfələrlə soyqırımına və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların İrəvanda, Zəngəzurda, Göyçədə, Dərələyəzdə, Zəngibasarda, Vedibasarda doğulduqlarını, yaşadıqlarını, orta və ali təhsil aldıqlarını, müxtəlif dövlət təltifləri ilə təltif olunduqlarını, dövlət strukturlarında çalışdıqlarını təsdiqləyən müxtəlif sənədlərin əsillərindən və fotolardan ibarət arxiv sənədlərinin təqdim olunduğu sərgidə azərbaycanlıların Qərbi Azərbaycandan deportasiya olunduqdan sonra öz pozulmuş hüquqlarının təmin olunması məqsədilə müxtəlif dövlət qurumlarına və beynəlxalq təşkilatlara ünvanladıqları sənədlərin surətləri də nümayiş etdirilmişdir.

Ombudsman tərəfindən "Ümummilli Lider Heydər Əliyev və müstəqil Azərbaycanda insan hüquqlarının inkişafı" mövzusunda təşkil edilmiş elmi-praktiki konfrans çərçivəsində açılmış "Ümummilli Lider Heydər Əliyev - 100" başlıqlı sərgidə Ulu Öndərin çoxşaxəli irsinin yer aldığı nəşrlər nümayiş etdirilmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən Bakı Ekspo Mərkəzində IX Bakı Beynəlxalq Kitab Sərgisində ənənəvi təcrübənin davamı olaraq, müharibə və postmüharibə dövründə Ombudsmanın həyata keçirdiyi fəaliyyətlə əlaqədar hesabatlar daxil olmaqla təsisatın müxtəlif dillərdə hazırlanmış nəşrləri nümayiş etdirilmiş, yeni çap olunmuş hesabat və kitabların təqdimatları keçirilmişdir.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyi ilə bağlı beynəlxalq konfrans çərçivəsində təsisatın nəşrlərindən ibarət geniş sərgi açılmış və konfrans iştirakçılarına müxtəlif mövzular üzrə maarifləndirici nəşrlər hədiyyə edilmişdir.

***Elmi-analitik fəaliyyət.*** İnsan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi məqsədilə normativ hüquqi aktların təkmilləşməsinə yönəlmiş bır sıra tədbirlər həyata keçirilmiş, təklif və tövsiyələr verilmişdir.

Ombudsman haqqında Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli, 900-VIKQD nömrəli Konstitusiya Qanunu ilə Ombudsmanın mandatı genişləndirilmiş, "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"nın və "Uşaq hüquqları haqqında Konvensiya"nın həyata keçirilməsi, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının təşviqi və monitorinqi üzrə müstəqil mexanizm funksiyalarının həyata keçirilməsi üzrə səlahiyyəti təsbit olunmuş, habelə fəaliyyət istiqamətlərinə uyğun olaraq yerli, regional və beynəlxalq təşkilatlarla, xarici ölkələrin insan hüquqları təsisatları ilə əməkdaşlıq etmək, bu məqsədlə müqavilələr bağlamaq və beynəlxalq qurumlarda təmsil olunmaq mandatı rəsmi qaydada müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə, Miqrasiya Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, Azərbaycan Respublikasının "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Uşaq hüquqları haqqında", "Psixiatriya yardımı haqqında", "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Mediasiya haqqında", "Polis haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunlarına, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"nə, həmçinin Azərbaycan Respublikası Prezidentinin bir sıra fərmanları ilə təsdiq edilmiş müvafiq normativ-hüquqi aktlara ("Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş

elektron informasiya sistemi haqqında Əsasnamə"yə və s.), Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarları ilə təsdiq edilmiş normativ-hüquqi aktlara ("Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"nə, "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam qaydaları"na və s.) təklif edilən müvafiq əlavə və dəyişikliklərin layihələrinə, eyni zamanda "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Qanununun layihəsinin 2-ci hissəsinə dair rəy və təkliflər hazırlanmış və aidiyyəti dövlət qurumlarına təqdim olunmuşdur.

Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq məktubunun icrası çərçivəsində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən göndərilmiş bir sıra normativ hüquqi aktların, o cümlədən Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin, "Sosial müavinətlər haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Dövlət qulluğu haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikası qanunlarının, habelə Azərbaycan Respublikasının müvafiq qanunları ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin, "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin, "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin, eyni zamanda Azərbaycan Respublikası Prezidentinin "Beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin müəyyən edilməsi haqqında" 2013-cü il 27 dekabr tarixli 72 nömrəli və "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarının, həmçinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə aylıq əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi və ödənilməsi Qaydası"nın layihələrinə baxılmış, müvafiq rəy və təkliflər hazırlanmışdır.

Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən hazırlanmış müvafiq qanun layihələrinə, o cümlədən Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, habelə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə qanun layihələrinə dair rəy və təkliflər hazırlanmışdır.

"Cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumların məcburi müalicəsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 yanvar tarixli, 14 nömrəli qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsinə, habelə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli, 618-VIQD nömrəli Qanununa uyğunlaşdırılmasına dair rəy və təkliflər hazırlanaraq aidiyyəti üzrə cavablandırılmışdır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 2011-ci il 29 dekabr tarixli, 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"nın və 2015-ci il 30 iyun tarixli, 7-N nömrəli Qərarı ilə təsdiq "Penitensiar müəssisələrdə həbs edilmiş şəxslərin və məhkumların qeydiyyatı işinin təşkilinə dair Təlimat"ın "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli, 618-VIQD nömrəli Qanununa uyğunlaşdırılması, habelə ayrı-seçkilik hallarının baş verməməsi məqsədilə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli, 63 nömrəli qərarı ilə təsdiq edilmiş

"İstintaq təcridxanalarının daxili intizam Qaydaları"nda da telefon danışıqları ilə yanaşı, videogörüşlərin də nəzərdə tutulması üçün həmin normativ hüquqi aktlara zəruri dəyişikliklərin edilməsi barədə təkliflər hazırlanmışdır.

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun tətbiqi və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 20 aprel tarixli, 346-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 625 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 11 yanvar tarixli 1960 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 24 yanvar tarixli 82s nömrəli Sərəncamının 1.1-ci bəndinin icrası ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının həmin Qanuna uyğunlaşdırılmasına dair təkliflərin təqdim edilməsi barədə müraciət üzrə arayış tərtib olunmuş və aidiyyəti üzrə ünvanlanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 fevral tarixli 164s nömrəli Sərəncamının 1-ci hissəsinin icrası ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 776-VIQD nömrəli Qanununa uyğunlaşdırılmasına dair rəy və təkliflər hazırlanmışdır.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 821-VIQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 aprel tarixli 3855 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 may tarixli 378s nömrəli Sərəncamının icrası ilə bağlı qanun layihələrinə dair rəy və təkliflər hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli, 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanına, habelə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyindən Ombudsmana razılaşdırılması üçün göndərilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 19 oktyabr tarixli, 838s nömrəli Sərəncamının 1-ci hissəsinin icrası ilə bağlı hazırlanmış konstitusiya qanunu, qanun, fərman və qərar layihələrinə dair rəy və təkliflər hazırlanmışdır.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavənin ("Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi ilə bağlı) edilməsi təklif olunmuşdur.

Qeyd edilənlərlə yanaşı, ölkəmiz tərəfindən imzalanmış bəzi konvensiyaların ratifikasiya olunması ilə bağlı Ombudsmanın əvvəlki illik məruzələrində öz əksini tapmış təkliflərin də nəzərə alınması məqsədəmüvafiqdir.

Ombudsman haqqında Konstitusiya Qanununun 13.2.8 və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 32-ci maddələrinə əsasən, Ombudsman Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müvafiq sorğularla müraciət etmişdir.

Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə

edilən güzəştlərin tətbiqi Qaydaları"nın 2.1-ci bəndinin "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə güzəştlər haqqında" Azərbaycan Respublikasının 1993-cü il 3 sentyabr tarixli, 697 nömrəli Qanununun 1-ci maddəsinə (Şəhid və şəhid ailəsi anlayışı) və Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinin (Bərabərlik hüququ) I, III-V hissələrinə, 29-cu maddəsinin (Mülkiyyət hüququ) VII hissəsinə, 38-ci maddəsinin (Sosial təminat hüququ) I-III hissələrinə, 71-ci maddəsinin (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) I-II hissələrinə və 149-cu maddəsinin (Normativ hüquqi aktlar) I və V hissələrinə, həmçinin Azərbaycan Respublikasının 1 fevral 1999-cu il tarixli 618-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Əmək Məcəlləsinin 47-ci maddəsinin "f" bəndinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin (Bərabərlik hüququ) I, III, IV və V hissələrinə, 35-ci maddəsinin (Əmək hüququ) IV, VI və VIII hissələrinə, 71-ci maddəsinin (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) I, II, V, və VI hissələrinə, 149-cu maddəsinin (Normativ hüquqi aktlar) I və III hissələrinə, eləcə də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 2013-cü il 05 iyun tarixində qeydiyyatdan keçmiş və Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin 2013-cü il 23 may tarixli 1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məcburi köçkünlərə (ölkə daxilində köçürülmüş şəxslərə) "məcburi köçkün" statusu və onu təsdiq edən vəsiqənin verilməsinə dair Qaydalar"ın 4.1.6-cı bəndinin ("Məcburi köçkün" statusu və onu təsdiq edən vəsiqənin verilməsi) Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinin (Bərabərlik hüququ) I, III, IV hissələrinə və 149-cu maddəsinin (Normativ hüquqi aktlar) I, III, VI hissələrinə uyğunluğunun yoxlanılmasına dair Konstitusiya Məhkəməsinə sorğular göndərilmişdir.

Fəaliyyəti dövründə Ombudsmanın Konstitusiya Məhkəməsinə ünvanladığı qırx dörd sorğudan iyirmi altı sorğu üzrə məhkəmənin plenumu tərəfindən müvafiq olaraq qərar və qərardadlar, habelə palata tərəfindən qərardadlar qəbul edilmişdir.

***İctimaiyyətlə əlaqələr və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq.*** İnsan hüquqlarının müdafiəsi sahəsində vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları, müxtəlif icmalar, media, geniş ictimaiyyətlə əməkdaşlıq çərçivəsində müxtəlif tədbirlər həyata keçirilmiş, insan hüquqlarının daha etibarlı müdafiəsi və səmərəli təmini istiqamətlərinə həsr edilmiş faydalı müzakirələr aparılmış, əlaqələr daha da genişləndirilmişdir.

Ombudsmanın təşəbbüsü ilə vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə məişət zorakılığı və ayrı-seçkiliklə mübarizə, uşaq əməyi və bullinq, habelə bu kimi digər mövzular üzrə maarifləndirici tədbirlər davam etdirilmişdir.

Müxtəlif dövlət qurumları və onların yerli struktur bölmələri, ali, orta ixtisas və ümumi təhsil müəssisələri ilə yanaşı, vətəndaş cəmiyyəti institutları, o cümlədən Konstitusiya Araşdırmalar Fondu, Əlil Qadınlar Cəmiyyəti, Beynəlxalq İnsan Hüquqları və Media Mərkəzi, "Zirvə" İslahatlara Dəstək Mərkəzi, Bakı Qeyri-Hökumət Təşkilatları Resurs və Təlim Mərkəzi, habelə "Modern İnkişaf və Ailə", "Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım", "Sosial Tədqiqatlar Mərkəzi və Avropa Hüquqşünas Tələbələr Assosiasiyası – Bakı (ELSA)", Qərbi Azərbaycan İcması, Azərbaycan Autizm Assosiasiyası kimi ictimai birliklər və digər qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq davam etdirilmişdir.

2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Polis və Ədliyyə Akademiyaları, Azərbaycan Dillər Universiteti, Qərbi Kaspi Universiteti, Bakı Avrasiya Universiteti, Xəzər Universiteti də daxil olmaqla bir sıra ali təhsil ocaqları ilə əməkdaşlıq davam etdirilmişdir.

Həmkarlar ittifaqlarının kadr və fəalları üçün Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında görüş keçirilmişdir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Vəkillər Kollegiyası və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu kimi ictimai birliklər Ombudsmanın Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə birgə təşkil etdiyi konfransda bir araya gəlmiş, müzakirələr və fikir mübadiləsi aparılmışdır.

Ombudsmanın ənənəvi olaraq elan etdiyi aylıqlar çərçivəsində də vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlıq davam etdirilmişdir.

2023-cü il ərzində gənclərin məlumatlılığının artırılması, onlarda idarəçilik bacarıqlarının formalaşdırılması, habelə Ombudsmanın fəaliyyəti ilə yaxından tanış olmaları məqsədilə könüllülük proqramı üzrə bir sıra gənclər təsisatın fəaliyyətində yaxından iştirak edərək, öz bilik və təcrübələrini genişləndirmişlər.

Qeyd edilənlərlə yanaşı, Ombudsman müntəzəm olaraq müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, müharibə veteranları və şəhid ailələrinin, habelə əsir və itkin düşmüş vətəndaşlarımızın ailə üzvləri ilə görüşmüş, müraciətlərini dinləmiş, tövsiyələrini vermiş, problemlərinin həlli istiqamətində zəruri tədbirlər həyata keçirmişdir.

***Media ilə əməkdaşlıq.*** Ombudsmanın geniş ictimaiyyətlə əlaqələrinin daha sıx və səmərəli təşkili məqsədilə media və sosial şəbəkələr vasitəsilə əlaqələndirməyə böyük əhəmiyyət verilmiş, media subyektləri ilə əməkdaşlıq əhəmiyyətli dərəcədə genişləndirilmişdir.

Ombudsmanın fəaliyyəti barədə məlumatların ictimaiyyətə çatdırılmasını təmin etmək üçün sosial şəbəkə hesablarına "Telegram" və "Whatsapp" kanalları da əlavə olunmuşdur. Belə ki, həm rəsmi internet səhifəsi, həm də təsisatın sosial şəbəkə hesabları ("Facebook", "Twitter", "Instagram", "Youtube", "Telegram", "Whatsapp") və media vasitəsilə Ombudsmanın çoxşaxəli fəaliyyəti mütəmadi olaraq işıqlandırılmışdır.

Yerli və beynəlxalq televiziya və radio kanallarına, informasiya agentliklərinə müntəzəm şəkildə video müsahibələr vermiş Ombudsmanın həyata keçirdiyi geniş fəaliyyət, o cümlədən iştirak etdiyi çoxsaylı tədbirlər barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə press relizlər hazırlanmış, eyni zamanda ingilis və rus dillərinə tərcümə olunaraq yayımlanmışdır.

Yeri gəlmişkən, Ombudsman Aparatının 2024-2026-cı illər üzrə Kommunikasiya Strategiyası işlənib hazırlanmış və növbəti illər üzrə müvafiq hədəflər müəyyən edilmişdir. Ümumilikdə, aparatın müvafiq sahədə strategiyası, o cümlədən sosial media siyasətinin icrasına nəzarət aparatda yaradılmış işçi qrupu tərəfindən həyata keçirilir.

Ombudsmanın 20 Yanvar faciəsi, Xocalı soyqırımı və 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü, o cümlədən insan hüquqlarına dair digər mövzularda bəyanat, reaksiya, münasibət, eləcə də çağırışlarının televiziya kanallarında işıqlandırılması, eyni zamanda yerli və xarici elektron və çap mediada yayımlanması təmin edilmişdir.

Ombudsman Aparatı tərəfindən təşkil olunmuş tədbirlərdə media subyektlərinin də iştirakı təmin edilmişdir. Təsisatın ənənəvi olaraq elan etdiyi "İnsan hüquqları aylığı" və "Uşaq hüquqları aylığı" ərzində, eləcə də həyata keçirilən hüquqi maarifləndirmə fəaliyyəti çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə keçirilən silsilə tədbirlər təsisatın rəsmi internet səhifəsində və sosial şəbəkə platformalarında, eləcə də mətbuatda işıqlandırılmışdır.

IX Bakı Beynəlxalq Kitab Sərgisində Ombudsman Aparatının nəşrlərinin təqdimat mərasimi təsisatın "Facebook" hesabında canlı yayımlanmış, eyni zamanda videosüjetlər vasitəsilə televiziya kanallarında ictimaiyyətə təqdim olunmuşdur.

Ombudsmanın Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev ölkəmizdə hüquqi dövlət quruculuğu və insan hüquqları sahəsində islahatların banisidir", 18 İyun - Azərbaycanda İnsan Hüquqları

Gününə həsr edilmiş “İnsan hüquqlarının müdafiəsinə dair ilk Dövlət Proqramının təsdiqindən 25 il ötür”, Ümumdünya Uşaqlar Gününə həsr olunmuş “Ombudsmanın fəaliyyətində uşaq hüquqlarının müdafiəsi”, 18 Dekabr - Beynəlxalq Miqrant Gününə həsr edilmiş “Miqrasiya və insan hüquqları: Qlobal trendlər və milli çağırışlar” adlı məqalələri qəzetlərdə dərc edilmiş, rəsmi səhifədə yerləşdirilmişdir.

Ombudsmanın dəvəti ilə ölkəmizə səfər etmiş İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının (İƏTMDİHK) nümayəndə heyətinin Füzuli, Ağdam və Gəncədə apardığı yerində araşdırmalarla bağlı məlumatlar da birbaşa bağlantı və videosüjetlər vasitəsilə televiziya kanallarında, habelə mediada və təsisatın sosial şəbəkə hesablarında geniş işıqlandırılmışdır.

İƏTMDİHK nümayəndə heyətinin səfəri, missiyanın məqsədləri ilə bağlı media subyektlərinin nümayəndələrinə müsahibələr verilmiş, sualları cavablandırılmışdır.

İkinci Qarabağ müharibəsindən sonra Ermənistan tərəfindən beynəlxalq hüquq normalarının, o cümlədən insan hüquqlarının pozulması ilə nəticələnən təxribatlara yol verilməsi, media və sosial şəbəkələr vasitəsilə Azərbaycana qarşı etnik zəmində nifrətin təbliği ilə bağlı faktların dünya ictimaiyyətinə çatdırılması da Ombudsmanın fəaliyyətinin əsas hissəsini təşkil etmişdir. Belə ki, postmüharibə dövründə regionda dayanıqlı sülhün təmini məsələsinin zəruriliyi barədə beynəlxalq ictimaiyyətə dəfələrlə çağırışlar edilmiş, Ermənistanın həyata keçirdiyi mina terrorunun nəticələri, işğaldan azad edilmiş ərazilərimizdə kütləvi məzarlıqların aşkar olunması, bu ərazilərdə baş vermiş təxribatlar barədə müraciət və açıqlamalar beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmış, Ombudsmanın sosial şəbəkə hesabları vasitəsilə dərhal reaksiya verilməsi təmin olunmuşdur.

Ombudsman Aparatının sosial şəbəkə platformalarında Ombudsmanın Çağrı Mərkəzinin fəaliyyəti ilə bağlı şəffaflığın və hesabatlılığın təmini məqsədilə şikayətlərin mövzusu, ərizəçilərin aid olduğu kateqoriya və şikayət olunan dövlət qurumlarına dair aylıq statistik məlumatların verilməsi təmin edilmiş, sosial şəbəkə hesablarında yayımlanması həyata keçirilmişdir.

Azərbaycan Respublikasının dövlət orqanlarında kommunikasiya işinin təkmilləşdirilməsi və bu sahədə təcrübə mübadiləsinin aparılması məqsədilə ictimaiyyətlə əlaqələr sahəsinə məsul əməkdaşlar üçün təşkil olunan səfər və tədbirlərdə Ombudsman Aparatının əməkdaşı da iştirak etmişdir. Türkiyə Respublikasına səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Türkiyənin Xarici İşlər, Milli Müdafiə, habelə Mədəniyyət və Turizm nazirliklərində, "Anadolu" Agentliyində, Radio və Televiziya Ali Şurasında, Türkiyənin Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin İstanbul şöbə müdirliyində, "TRT World" televiziya kanalında və bir sıra digər qurumlarda görüşlər keçirmişdir. Görüşlər zamanı Türkiyənin dövlət qurumlarının kommunikasiya sahəsində fəaliyyəti, sosial media ilə iş, media savadlılığı, televiziyaların monitorinqi sistemi, peşəkar beynəlxalq jurnalistika, dəyişən beynəlxalq və regional siyasi gündəliyə çevik uyğunlaşma və gələcək hədəflər haqqında təqdimatlar dinlənilmiş, ətraflı müzakirələr aparılmışdır.

2023-cü ildə Ombudsman barədə onlayn qaydada yerli və xarici mətbuatda 6353 məlumat yayımlanmış, qəzetlərdə 209 məlumat dərc edilmiş, televiziya kanallarında yayımlanmış 204 videomaterial qeydiyyata alınmış, Azərbaycan və ingilis dillərində 300 mətbuat açıqlaması yayımlanmışdır. Ombudsmanın sosial şəbəkə səhifələrində, o cümlədən “Facebook” səhifəsində 468, “Instagram” səhifəsində 414, “X” səhifəsində 268, “Youtube” səhifəsində 35, “Telegram” səhifəsində 231, “Whatsapp” vasitəsilə isə 100 paylaşım edilmişdir.

## TƏKLİF VƏ TÖVSİYƏLƏR

Ombudsman insan hüquq və azadlıqlarının səmərəli təmin olunması və etibarlı müdafiəsi məqsədilə aşağıdakıları *təklif edir:*

*- müasir çağırışlara, yeni dövrün tələblərinə və mövcud prioritetlərə uyğun olaraq, həmçinin beynəlxalq təşkilatların tövsiyələrini nəzərə alaraq, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın, hüquq müdafiə sisteminin və idarəetmənin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi, beynəlxalq əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə növbəti illər üçün insan hüquqları sahəsində Milli Fəaliyyət Proqramının hazırlanıb qəbul olunması;*

*- doğum haqqında şəhadətnaməsi olmadığı üçün şəxsiyyət vəsiqəsi ala bilməyən və ya şəxsiyyət vəsiqəsi olmadığı üçün təkrar doğum haqqında şəhadətnamə ala bilməyən yetkinlik yaşına çatmış vətəndaşların bu sahədə hüquqlarının təmini məqsədilə "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin 2.2.2-ci maddəsinin yeni redaksiyada (vətəndaşın doğum haqqında şəhadətnaməsi (16 yaşına çatmış şəxsin doğum haqqında şəhadətnaməsi olmadıqda şəhadətnamədə qeyd olunan məlumatlar sorğu əsasında müvafiq icra hakimiyyəti orqanından alınır)) verilməsi;*

*- yaşayış yeri olmayan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsiyyət vəsiqəsi verən müvafiq orqanının ünvanı üzrə qeydiyyatdan keçirilməsi və onlara şəxsiyyət vəsiqəsi fərdiləşdirilərkən şəxsiyyət vəsiqəsinin "yaşayış yeri" bölməsində həmin ünvanın şərti olaraq göstərilməsindən sonra yaranan riskli hallar nəzərə alınmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 aprel tarixli, 55s nömrəli Sərəncamına əlavə və dəyişikliklərin edilməsi və nəticədə vətəndaşların qeydiyyat probleminin həll olunması;*

*- "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin birinci hissəsinin 1-ci bəndinin müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin I hissəsinə uyğunlaşdırılması məqsədilə, eyni zamanda bu Qanunun 8-ci maddəsi ilə ziddiyyət təşkil etdiyini nəzərə alaraq, həmin Qanunun 5-ci maddəsinin birinci hissəsinin 1-ci bəndindən "o şərtlə ki, Azərbaycan Respublikasının vətəndaşı bu Qanunun qüvvəyə mindiyi günədək Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olsun" sözlərinin çıxarılması;*

*- Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə cinayət işinin başlanmasının rədd edilməsi, cinayət işi üzrə icraatın dayandırılması barədə qərarların əsassız və qanunsuz olması səbəbindən prokuror, yuxarı prokuror və ya məhkəmə (şikayət əsasında) tərəfindən iki dəfə ləğv edilməsi hallarında, istintaq edilən həmin cinayət işinin digər müstəntiqin icraatına verilməsinə dair imperativ normanın daxil edilməsi, eyni zamanda bu hallarla bağlı məsuliyyət məsələsinə diqqətin artırılması;*

*- uşaq hüquqlarının etibarlı müdafiəsi məqsədilə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 228.2-ci maddəsinin yeni redaksiyada ("Yetkinlik yaşına çatmamış şahidin dindirilməsi psixoloqun, zəruri hallarda isə müəllimin, digər*

*müvafiq ixtisaslı mütəxəssisin və onun qanuni nümayəndəsinin iştirakı ilə aparılır.”) verilməsi;*

*- uşaq hüquqlarının etibarlı müdafiəsi məqsədilə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 432.5-ci maddəsindən (“16 yaşınadək və əqli cəhətdən zəiflik əlamətləri olan yetkinlik yaşına çatmayan şəxsin iştirakı ilə istintaq hərəkətlərinin aparılmasında müstəntiq müəllim və ya psixoloqun iştirakını təmin etməlidir.”) “16 yaşınadək və əqli cəhətdən zəiflik əlamətləri olan” sözlərinin çıxarılması;*

*- cinayət və mülki mühakimə işlərində (icraatında) nümayəndəlik institutunun məhdudlaşdırılmasının aradan qaldırılması;*

*- mülkiyyətin toxunulmazlığı prinsipinə müvafiq olaraq, eyni zamanda mülkiyyət hüququnun etibarlı müdafiəsi məqsədilə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 178.5-ci maddəsindəki “daşınmaz əmlakın dövlət reyestrində əsassız qeydə alınmış” müddəasının həmin Məcəllənin 6.1.4-cü, 6.2-ci, 178-ci və 139-1-ci maddələrinin tələblərinə uyğun olmadığı üçün dəyişdirilməsi;*

*- vətəndaşların şəxsi həyatına qanunsuz müdaxilələrin, onların şərəf və ləyaqətinin müdafiəsi hüququnun daha etibarlı müdafiəsi və pozulması hallarının qarşısının alınması, eyni zamanda işgüzar nüfuzu ləkələyən məlumatların, o cümlədən audio və ya video materialların media subyektlərində yayılmasına qarşı mübarizənin sistemli təşkili məqsədilə mexanizmin yaradılması;*

*- Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 10.11-ci maddəsi ilə (Məhkəmə aktları bütün hallarda açıq elan edilir) həmin Məcəllənin 350.1-ci maddəsinin (Qətnamə yalnız qapalı məhkəmə iclası iştirakçıları üçün elan edilir) uyğunlaşdırılması;*

*- şəxsin ölkədən çıxışına qoyulmuş məhdudiyyət barədə həmin şəxsin məlumatlandırılmaması, bununla bağlı məlumatın yalnız şəxsiyyət vəsiqəsinin (ümumvətəndaş pasportunu) dəyişdirilməsi və ya sərhədi keçərkən bildirilməsinin hüquqların məhdudlaşdırılmasına səbəb olduğunu nəzərə alaraq, ölkədən getmək və ölkəyə gəlmək hüququ məhdudlaşdırılan vətəndaşlar barədə məlumatların “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edildiyi andan həmin vətəndaşlara bildirişin göndərilməsinin məcburiliyi ilə bağlı müddəaların qanunvericiliyə daxil edilməsi;*

*- məhkəmə qərarlarının icrasının çevikliyinin və effektivliyinin artırılması məqsədilə icra qurumları ilə aidiyyəti dövlət orqanları arasında koordinasiyanın təşkilinə, eləcə də məhkəmə qərarlarının icrasına inzibati və məhkəmə nəzarətinə diqqətin artırılması;*

*- Azərbaycan Respublikası Əmək Məcəlləsinin 45-ci maddəsinin (əmək müqaviləsinin müddəti) 5-ci bəndində “5 ildən” sözlərinin “3 ildən” sözləri ilə əvəz edilməsi;*

*- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli qərarı ilə təsdiq edilmiş xarici ölkələrə ezamiyyə xərclərinin normalarına yenidən baxılması;*

*- əmək pensiyasının minimum məbləği artırılarkən həmin artıma qədər təyin edilmiş bütün pensiya məbləğlərinin müvafiq artıma mütənasib və ya müəyyən məbləğdə artırılması;*

*- əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə fiziki şəxslərin Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.6-cı maddəsi ilə müəyyən edilmiş əsas iş yerində hər hansı muzdlu işlə əlaqədar əldə etdikləri aylıq və illik gəlirlərinin məbləğinin və onun vergidən azad edilən hissəsinin artırılması;*

*- əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə fiziki şəxslərin Azərbaycan Respublikası Vergi Məcəlləsinin 101-ci maddəsi ilə müəyyən edilmiş vergi tutulan aylıq gəlirinin məbləğinin artırılması;*

*- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nın 1.3-cü bəndinin 2019-cu il 1 yanvar tarixindən 2022-ci il 1 iyul tarixinə kimi olan dövrdə pensiyaya çıxmış şəxslərə də şamil edilməsi;*

*- ailənin maddi-məişət şəraitinin müayinəsinin aparılması ilə bağlı müddətin müəyyən edilməməsinin süründürməçiliyə və şikayətlərə səbəb olduğunu nəzərə alaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"na müayinənin aparılması ilə bağlı müddətin müəyyən edilməsi əlaqədar əlavə və dəyişikliklərin aparılması;*

*- əhalinin, xüsusilə aztəminatlı ailələrin və həssas qrupların real ehtiyacları nəzərə alınaraq, minimum istehlak səbətinin tərkibindəki ərzaq məhsullarının miqdarının (həcminin) artırılması;*

*- 3 yaşınadək uşağa qulluğa görə müavinətin əmək fəaliyyəti ilə məşğul olmayan şəxslərə də şamil edilməsi;*

*- müvafiq yaşda olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə 3 yaşınadək uşağa qulluğa görə müavinətin və 1 yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinətin məbləğinin artırılması;*

*- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) verilən müavinətin məbləğinin artırılması;*

*- sağlamlığın qorunması hüququnun effektiv təmin edilməsi məqsədilə bütün tibb xidmətlərinin və xəstəliklərin icbari tibbi sığorta hesabına həyata keçirilməsi;*

*- "Sağlamlıq haqqında tibbi arayış" (digər tibbi arayışlar, işə girmədən əvvəl müayinə, təhsil müəssisələrinə daxil olma ilə bağlı müayinə (18 yaşdan yuxarı), sığorta ilə bağlı müayinə (18 yaşdan yuxarı), inzibati məqsədlərlə digər müayinələr (18 yaşdan yuxarı), 1 ay ərzində təkrar müraciət zamanı (18 yaşdan yuxarı)) tibbi xidmətlərinin Xidmətlər Zərfinə daxil olmayan ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin (№ 3.3.1.338-3.3.1.340 və 43.3.1.342-3.3.1.344) siyahısından çıxarılaraq icbari tibbi sığorta çərçivəsində göstərilən Xidmətlər Zərfinə əlavə edilməsi;*

*- icbari tibbi sığortanın tətbiqi sahəsində operativliyin və əlaqələndirmənin, həmçinin tabeliyindən asılı olmayaraq, bütün tibb müəssisələrində göstərilən tibbi xidmətlər barədə məlumatlılığın və həmin xidmətlərə əlçatanlığın təmin edilməsi istiqamətində səmərəliliyin artırılması məqsədilə vahid tibbi elektron bazanın yaradılması;*

*- uşaqların sağlam fiziki və psixi inkişafına, onların sağlamlıq durumuna tibbi-profilaktik nəzarətin gücləndirilməsi, eyni zamanda 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin müntəzəm olaraq müvafiq tibbi-reabilitasiya xidmətlərindən istifadəsinin asanlaşdırılması;*

*- hepatit, şəkərli diabet, hemofiliya, talassemiya və bu kimi başqa xəstəliklərdən əziyyət çəkən, xüsusilə aztəminatlı ailələrdən və əhalinin həssas qruplarından olan vətəndaşlarımızın mövcud durumu nəzərə alınaraq, dövlət büdcəsi hesabına verilən dərmanların və digər vasitələrin daha keyfiyyətliləri ilə əvəz edilməsi və siyahısının real ehtiyaclara uyğun genişləndirilməsi;*

*- ixtisaslaşdırılmış tibb müəssisələrində narkotik asılılığından əziyyət çəkən yetkinlik yaşına çatmayan şəxslərin müalicəsinin təşkili məqsədilə müvafiq şöbənin yaradılması;*

*- müvafiq uşaq müəssisələrində uşaqlara göstərilən xidmətlərin keyfiyyətinin artırılmasının təmini məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 9 yanvar tarixli, 6 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əqli və fiziki inkişafında pozuntular olan uşaqlar üçün internat tipli xüsusi ümumtəhsil məktəblərinin rəhbər işçiləri, inzibati-təsərrüfat, tədris-yardımçı və xidmət işçiləri heyətinin nümunəvi ştatları"nda "tibb bacısı", "gecə dayəsi" və "psixoloq" ştatlarının sayının artırılması;*

*- körpələr evində, bağça-körpələr evində və uşaq evlərində uşaqların sağlamlığın qorunması hüququnun təmin edilməsi sahəsində səmərəliliyin artırılması məqsədilə "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli, 103 nömrəli Qərarı ilə təsdiq edilmiş "Körpələr evində, bağça-körpələr evində və uşaq evlərində uşaqlar üçün qida normaları"nın (3 nömrəli əlavə) müasir standartlara uyğunlaşdırılması;*

*- insan həyatı və ya sağlamlığı üçün xüsusi əhəmiyyətini nəzərə alaraq, məktəbəqədər, orta və ali təhsil müəssisələrində qidanın təhlükəsizliyinə və rasionuna diqqətin artırılması, yetkinlik yaşına çatmayanlar üçün qəbul edilməsi qadağan olunan və ya məqsədəmüvafiq hesab edilməyən qida məhsullarının satışına nəzarətin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə birgə müntəzəm planlı və plandankənar monitorinqlərin keçirilməsi;*

*- tədris üçün zəruri olan köməkçi vəsaitlərin, o cümlədən iş dəftərlərinin valideynlərin şəxsi hesabına əldə edildiyini, bu vəziyyətin valideynlərin (xüsusilə ailədə iki və daha çox uşaq olduqda), ələlxüsus aztəminatlı ailələrin narazılığına səbəb olduğunu, eyni zamanda uşaqların həmin köməkçi vasitələr olmadan tədris proqramını tam qavramasının da mümkün olmadığını nəzərə alaraq, ümumtəhsil məktəblərində tədris proqramlarında nəzərdə tutulmuş dərsliklərin digər çalışma və köməkçi vəsaitlərlə komplekt şəkildə şagirdlərə dövlət hesabına verilməsi və ya tədris metodikasında zəruri*

*dəyişikliklər edilməklə həmin vəsaitlərin əvvəlki illərdə olduğu kimi dərs vəsaitlərinə inteqrasiya edilməsi;*

*- xüsusi internat məktəblərində ibtidai sinif şagirdləri istisna olmaqla, digər şagirdlərin müvafiq dərs vəsaitləri ilə təmin edilmədiyini nəzərə alaraq, sağlamlıq imkanları məhdud şəxslərin təhsili üzrə dövlət proqramının, dərslik və dərs vəsaitlərinin hazırlanması və sağlamlıq imkanları məhdud şəxslərin həmin vəsaitlərlə təmin olunmasının sürətləndirilməsi;*

*- ümumtəhsil internat məktəblərinin fəaliyyətini tənzimləyən əsasnamələrin Azərbaycan Respublikasının qanunvericiliyinin, o cümlədən ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə, habelə müasir çağırışlara uyğun yenidən işlənib hazırlanması və təsdiq edilməsi;*

*- müvafiq uşaq müəssisələrində uşaqların sağlam, təhlükəsiz və inkişaf etdirici mühitdə yaşamaq hüququnun təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 23 iyun tarixli, 157 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin, internat tipli sanator ümumtəhsil məktəblərinin, internat tipli liseylərin və internat tipli gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları"nda "gecə dayəsi" və "psixoloq" ştatlarının sayının artırılması;*

*- orta məktəblərdə mövcud psixoloq ştatlarının şagird sayına uyğun artırılması, habelə peşəkar və ixtisaslaşmış psixoloqların cəlb edilməsi;*

*- ümumi təhsil müəssisələrində uşaqlarla psixoloji işin səmərəli təşkili məqsədilə "Ümumi təhsil müəssisələrində psixoloq ştatının sayının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 27 fevral tarixli, 70 nömrəli Qərarı ilə müəyyən edilmiş "psixoloq" ştatı sayının artırılması;*

*- uşaqların inkişafına dövlət dəstəyinin daha da artırılması, erkən uşaqlıq dövründə uşaqların inkişafının təmin olunması, uşaqlara göstərilən sosial xidmətlərin səmərəliliyinin artırılması, uşaqlıq dövrünün düzgün formalaşmasına dəstəyin artırılması, uşaqların gələcəkdə sağlamlıq və sosial risklərə məruz qalma ehtimalının qarşısının alınması məqsədilə "Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli, 61 nömrəli Qərarı ilə təsdiq edilmiş "Büdcədən maliyyələşdirilən dövlət uşaq bağçalarının nümunəvi ştatları"na (1 №-li əlavə) və "Körpələr evi-uşaq bağçalarının nümunəvi ştatları"na (2 №-li əlavə) "uşaq psixoloqu" və "erkən inkişaf üzrə mütəxəssis" ştatlarının əlavə edilməsi;*

*- regionlarda hələ də qəzalı vəziyyətdə olan məktəblərin, uşaq bağçaları və körpələr evlərinin yenidən qurulması və ya əsaslı təmir edilməsi üzrə fəaliyyətin davam etdirilməsi, onların müasir avadanlıqlarla təchiz edilməsi;*

*- qəzalı vəziyyətdə olan Quba Xüsusi Peşə Məktəbində saxlanma şəraitinin Azərbaycan Respublikasının qanunvericiliyi, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"si ilə müəyyən edilmiş tələblərə uyğunlaşdırılması məqsədilə yenidən təşkil edilməsi;*

*- dövlət ali və orta ixtisas təhsili müəssisələrində dövlət sifarişli yerlərin sayının artırılması;*

*- ehtiyaca uyğun olaraq, yeni tələbə yataqxanalarının inşa edilməsi istiqamətində aparılan işlərin davam etdirilməsi;*

*- Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş, habelə “Dövlət qulluğu haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş təhsil almaq hüququnun və yaradıcılıq azadlığının, həmçinin elmi və yaradıcılıq fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin dövlət qulluğu və dövlət qulluğunun xüsusi növlərində çalışan şəxslərə elmi dərəcələr verilməsinin məqsədəuyğun hesab edilməməsi barədə 2000-ci il 19 may tarixli qərarının ləğv edilməsi;*

*- “Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 739- VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 iyul tarixli, 1531 nömrəli Fərmanının 1.3-cü bəndində nəzərdə tutulmuş və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 141-1.1-ci maddəsinə uyğun olaraq, çoxmənzilli binanın idarə edilməsi qaydasının müəyyən edilməsinin sürətləndirilməsi;*

*- ötən əsrin ortalarından etibarən Bakı şəhərində, onun ətrafındakı qəsəbə və kəndlərdə, o cümlədən birgə təsərrüfatlara (sovxozlara) məxsus ərazilərdə müxtəlif şəxslər tərəfindən zəbt edilmiş torpaq sahələrində qanunsuz tikilmiş evlərin, habelə bələdiyyələr tərəfindən fərdi ev tikintisi üçün verilmiş torpaq sahələrində inşa olunmuş evlərin inventarlaşdırılması və dövlət qeydiyyatına alınması, eyni zamanda həmin ərazilərdə və yeni yaşayış massivlərində daşınmaz əmlak və nəqliyyat infrastrukturu obyektlərinə ünvanların verilməsi;*

*- Ermənistan silahlı qüvvələri tərəfindən respublikanın bir sıra yaşayış məntəqələrinin, xüsusilə mülki əhalinin sıx məskunlaşdığı yerlərin, o cümlədən şəhər və rayon mərkəzlərinin raket atəşinə tutulması nəticəsində fərdi yaşayış evlərinə və mənzillərinə dəymiş ziyanın nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin davam etdirilməsi məqsədilə zəruri maliyyə vəsaitinin ayrılması;*

*- hazırda yataqxana və qəzalı binalarda yaşayan məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə onların işğaldan azad edilmiş ərazilərə köçürülən keçmiş məcburi köçkünlər tərəfindən təhvil verilmiş xidməti mənzillərə müvəqqəti olaraq köçürülməsi;*

*- Azərbaycan Respublikasının ərazisində olan miqrantların uşaqları üçün dövlət büdcəsi hesabına Azərbaycan dili kurslarının təşkil edilməsi;*

*- desosializasiya risklərinin azaldılması məqsədilə qanunsuz miqrantların saxlanılması mərkəzlərində saxlanılan şəxslərin əməyə cəlb edilməsi;*

*- readmissiya sazişləri çərçivəsində Azərbaycan Respublikasına geri qayıdan ailələrə, xüsusilə uşaqlara psixoloji və digər zəruri dəstəyin göstərilməsi;*

*- uşaq hüquqlarının müdafiəsinin, o cümlədən pozulan uşaq hüquq və azadlıqlarının bərpa edilməsinin, habelə bu sahədə hüquq pozuntularının qarşısının alınmasının Ombudsmanın fəaliyyətinin əsas istiqamətlərindən olduğunu nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları"nın 1.7-ci bəndinə əsasən yaradılan İşçi qrupun tərkibində Ombudsmanın da təmsil olunması və bu məqsədlə həmin Qaydaların 1.6-cı bəndinə müvafiq əlavənin edilməsi;*

*- Azərbaycan Respublikasının sülhməramlı kontingentinin tərkibində onun ərazisindən kənarda aparılan sülhməramlı əməliyyatlarda iştirak edərkən həlak olmuş və ya ölmüş elan edilmiş hərbi qulluqçulara şəhid statusunun verilməsi ilə bağlı qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi;*

*- müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün məbləğinin artırılması;*

*- Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.2.5-ci maddəsindəki "döyüşçülərin" sözünün dəqiqləşdirilməsi məqsədilə həmin sözün "qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin" sözləri ilə əvəz edilməsi;*

*- Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.2.5-ci maddəsinə (həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin (şəhid statusu almış şəxslər istisna olmaqla) dul arvadlarının (ərlərinin) və övladlarının) uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli qərarı ilə təsdiq edilmiş "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.5-ci bəndində verilmiş "həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri))" sözlərindən sonra "və övladları" sözlərinin əlavə edilməsi;*

*- hərbi qulluqçulara (müddətli həqiqi hərbi qulluqçular istisna olmaqla) tutduqları vəzifəyə görə ödənilən pul təminatının artırılması;*

*- hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onlara ərzaq üçün ödənilən aylıq pul kompensasiyasının məbləğinin ölkə üzrə minimum istehlak səbətinin tərkibindəki ərzaq məhsullarının aylıq dəyərinə uyğunlaşdırılması;*

*- hərbi qulluqçulara hərbi rütbələrə görə ödənilən pul təminatının məbləğinin artırılması;*

*- müvəqqəti mənzil kirayəsi üçün hərbi qulluqçulara ödənilən pul məbləğinin artırılması;*

*- "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının 1997-ci il 20 may tarixli, 296-IQ nömrəli Qanununun 4.1-ci maddəsində hərbi qulluqçular üçün nəzərdə tutulmuş sığorta məbləğinin artırılması;*

*- "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28*

*dekabr tarixli 569 nömrəli Fərmanının Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bütün hərbi qulluqçularına (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu istisna olmaqla) şamil edilməsi;*

*- qanunvericilikdə nəzərdə tutulmuş müddətdə xidmət keçməmiş kadr zabitlərinə, dövlət tərəfindən onların təhsilinə çəkilən xərclərin müvafiq müddət üzrə hesablanaraq onlardan dövlət nəfinə ödənilməsi şərti ilə öz arzularına uyğun ehtiyata buraxılması qaydalarının hazırlanması;*

*- Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hüquqi maarifləndirmə və təlim-tərbiyə işinin, həmçinin şəxsi heyətin psixoloji durumunun və hərbi nizamnamələrə uyğun xidmətinin daha da gücləndirilməsi məqsədilə tədbirlərin genişləndirilməsi;*

*- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali tibb təhsili olan peşəkar və tələb olunan sahələr üzrə ixtisaslı kadrlarla komplektləşməsini təmin etmək üçün Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə qəbul sayının artırılması;*

*- "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına bir dəfə verilən qısa müddətli 10 günlük məzuniyyətin, hər birinin müddətinin 10 gün olmaqla 2 dəfə verilməsi;*

*- "Alternativ xidmət haqqında" qanunun hazırlanması və qəbul edilməsi;*

*- sosial infrastruktur obyektlərinin əlilliyi olan şəxslərə müyəssər olması üçün uyğunlaşdırılması məqsədilə maliyyə vəsaitinin ayrılması, eyni zamanda belə şəxslər üçün tələbata uyğun sayda müyəssər ictimai nəqliyyat vasitələrinin alınmasına dəstək verilməsi;*

*- cəza-icra qanunvericiliyində və digər qanunvericilik aktlarında xüsusi ictimai təhlükə törətməyən və az ağır cinayət törətmiş 18-24 yaş arası məhkumların fərqli rejimdə cəza çəkməsinə imkan verən dəyişikliklərin edilməsi və belə məhkumların cəzasını çəkməsi üçün xüsusi cəzaçəkmə müəssisəsinin yaradılması;*

*- məhkum edilmiş şəxslərin təhsil almaq hüququnun təmin edilməsi, orta ixtisas və ya ali təhsilini davam etdirməsi, öz bilik və bacarıqlarını artırması məqsədilə müvafiq mexanizmin, o cümlədən internet platformaların yaradılması;*

*- həbs edilmiş şəxslərin, müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin sağlamlığının qorunması hüququnun səmərəli təmini məqsədilə belə şəxslərin müayinə və müalicəsinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrində aparılması mümkün olmadıqda, həmin tibbi xidmətlərin digər tibb müəssisələrində icbari tibbi sığorta hesabına həyata keçirilməsi ilə bağlı "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-2-ci maddəsinə müvafiq əlavə və dəyişikliklərin edilməsi;*

*- informasiya təhlükəsizliyinin qorunmasının əhəmiyyəti nəzərə alınaraq, dövlət strukturları üçün nəzərdə tutulmuş proqram təminatı lisenziyalarının alınması.*

Qeyd edilənlərlə yanaşı, Ombudsman insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, habelə Ombudsman haqqında Konstitusiya Qanunu ilə müəyyən edilmiş

hallarda insan hüquqları pozuntularının qarşısının alınması sahəsində təsisat tərəfindən həyata keçirilən fəaliyyətin səmərəliliyinin artırılması məqsədilə aşağıda göstərilmiş məsələlərin həllinin zəruriliyini *diqqətə çatdırır:*

*- beynəlxalq təcrübəni nəzərə alaraq, Ombudsman Aparatında "Biznes və insan hüquqları" üzrə struktur bölmənin təşkil edilməsi;*

*- Ombudsmanın Aparatının və regional mərkəzlərinin maddi bazasının gücləndirilməsinə maliyyə dəstəyinin verilməsi;*

*- Azərbaycan Televiziyasında və ya İctimai Televiziyada "Ombudsman saatı"nın (və ya "Mənim Hüquqlarım və Vəzifələrim" adlı bir saatlıq verilişin) təşkil edilməsi və bu məqsədlə müvafiq maliyyə vəsaitinin ayrılması.*

## Mündəricat


**Giriş sözü** 3

**I fəsil. İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ**

**1.1. Mülki və siyasi hüquqların müdafiəsi** 6

- Azadlıq hüququ 6
- MPM funksiyalarının həyata keçirilməsi 9
- İnformasiya əldə etmək hüququnun müdafiəsi 13
- Hüquq və azadlıqların məhkəmə təminatı 16
- Hüquqi yardım almaq hüququ 21
- Məhkəməyədək icraat mərhələsində cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının müdafiəsi 22

**1.2. İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi** 24

- Əmək hüququ 24
- Sosial təminat hüququ 27
- Sağlamlığın qorunması hüququ 32
- Təhsil hüququ 33
- Mənzil hüququ 37
- Biznes və insan hüquqları 39

**1.3. Əhali qruplarının hüquqlarının müdafiəsi** 40

- Qaçqınların, məcburi köçkünlərin və miqrantların hüquqlarının müdafiəsi 40
- Şəhid ailələrinin və müharibə veteranlarının hüquqlarının müdafiəsi 43
- Hərbi qulluqçuların hüquqlarının müdafiəsi 45
- Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi 47
- Uşaq hüquqlarının müdafiəsi 48
- Ahılların hüquqlarının müdafiəsi 53
- Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi 54
- Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi 57

**II fəsil. BEYNƏLXALQ ƏMƏKDAŞLIQ** 61

- Xarici ölkələrin ombudsmanları və milli insan hüquqları institutları ilə əməkdaşlıq 66
- Ombudsman Aparatının əməkdaşlarının beynəlxalq tədbir və təlimlərdə iştirakı 68
- Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq 69
- Avropa Şurası ilə əməkdaşlıq 71
- *Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansı ilə əməkdaşlıq* 72
- *Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsi ilə əməkdaşlıq* 72
- *Türk Dövlətləri Ombudsmanları və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyası ilə əməkdaşlıq* 73
- *İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyası ilə əməkdaşlıq* 73
- *İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyası ilə əməkdaşlıq* 73
- *Asiya Ombudsmanlar Assosiasiyası ilə əməkdaşlıq* 74
- *Avropa Ombudsman İnstitutu ilə əməkdaşlıq* 74

**III fəsil. HÜQUQİ MAARİFLƏNDİRMƏ, ELMİ-ANALİTİK FƏALİYYƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ**

- İnsan hüquqları sahəsində maarifləndirmə 75
- Elmi-analitik fəaliyyət 79
- İctimaiyyətlə əlaqələr və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq 82
- Media ilə əməkdaşlıq 83

**Təklif və tövsiyələr** 85

**Mündəricat** 94

**Diaqramlar**

## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) 2023-cü ildə ünvanlanan müraciətlərin daxilolma üsulu üzrə bölgüsü




## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) ünvanına 2023-cü ildə daxil olan müraciətlərin aylar üzrə bölgüsü




Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)
Çağrı Mərkəzinə 2023-cü ildə daxil olan
bütün (icraata qəbul edilən və şifahi cavablandırılan) müraciətlərin
aylar üzrə bölgüsü
1000
900
800
700
600
500
400
300
200
100
0
528
648
662
596
918
677
725
828
776
804
734
687
Yanvar
Fevral
Mart
Aprel
May
İyun
İyul
Avqust
Sentyabr
Oktyabr
Noyabr
Dekabr


Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)
Çağrı Mərkəzinə 2021-2023-cü illərdə daxil olan
bütün (icraata qəbul edilən və şifahi cavablandırılan) müraciətlər
10000
9000
8000
7000
6000
5000
4000
3000
2000
1000
0
5160
6600
8583
2021
2022
2023

## 2023-cü ildə
## Ombudsman və onun Milli Preventiv Qrupu (MPQ) tərəfindən müvafiq dövlət qurumlarının tabeliyində olan saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə keçirilmiş başçəkmələr




| Dövlət qurumları | Say |
|---|---|
| Ədliyyə Nazirliyinin Penitensiar Xidməti (ƏN) | 169 |
| Daxili İşlər Nazirliyi (DİN) | 51 |
| Elm və Təhsil Nazirliyi (ETN) | 45 |
| Yerli icra hakimiyyətləri (YİH) | 39 |
| Səhiyyə Nazirliyi (SN) | 25 |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) | 9 |
| Dövlət Təhlükəsizliyi Xidməti (DTX) | 6 |
| Dövlət Miqrasiya Xidməti (DMX) | 2 |
| Müdafiə Nazirliyi (MN) | 1 |

## 2021-2023-cü illərdə Ombudsman və onun Milli Preventiv Qrupu (MPQ) tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə keçirilmiş başçəkmələr

